RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 57 (9802) 15 mart 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# "Cənab Prezident, Sizinlə danışmaq hər zaman çox xoşdur"

## Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib



Bizim yanaşma ondan ibarətdir ki, biz qlobal nizamı olduqca düzgün qiymətləndirirdik. Milli maraqlarımız məsələsində biz heç kəsə və ya heç bir təsisata arxalanmamışıq. Olsun Rusiya-Ukrayna müharibəsi, yaxud Yaxın Şərqdəki hadisələr və Afrikadakı gərginlik - hər bir ölkə anlamalıdır ki, o, öz taleyinin sahibidir.

Onlar bunu nə qədər tez başa düşsələr, bu, onlar üçün bir o qədər də yaxşı olar. Çünki əgər siz həmişə kiminsə yardımına bel bağlasanız, birincisi, bu, sizi zəiflədəcək, ikincisi, bu yardımın daimi olacağına dair heç bir zəmanət yoxdur, üçüncüsü də siz suverenliyinizin bir hissəsini itirmiş olursunuz. Çünki əgər siz həmişə kimdənsə asılısınızsa və həmişə kimdənsə yardım istəyirsinizsə, onda bir gün gələcək, həmin şəxs gəlib sizdən hesabat istəyəcək.

Bizim təcrübəmiz uğurlu olmuşdur və onun uğurlu olması sübuta yetirilmişdir. Yəni biz öz resurslarımıza güvənirdik, biz suverenliyimizi və ərazi bütövlüyümüzü özümüz bərpa etdik və indi də gələcəyimizi özümüz qururuq. Hesab edirəm ki, bu, çox vacib bir nəticədir və bu, təkcə nəzəriyyə deyil, bu, Azərbaycanda baş verənlərdir.

❖ ❖ ❖

Mən realist olmağa üstünlük verirəm. Növbəti aylar və ya hətta illərdə sabitliyə nail olacağımızı düşünmürəm. Rusiya-Ukrayna müharibəsindən söhbət gedirsə, hətta müharibə dayansa belə, müharibənin yenidən başlamayacağına dair heç bir zəmanət yoxdur. Bir vaxtlar demək olar ki, otuz il ərzində bizdə - Azərbaycan və Ermənistan arasında atəşkəs razılaşması var idi. Bu razılaşmaya 1994-cü ilin yazında nail olunmuşdur. Lakin bu, müharibənin sona çatması demək deyildi. Sadəcə, transformasiya baş vermişdir və müharibə yalnız sülh sazişi imzalananda bitir.

Hətta indiki dövrdə, İkinci Qarabağ müharibəsinin bitməsindən beş il keçməsinə baxmayaraq, bizim Ermənistanla sülh müqaviləmiz yoxdur. Bəli, sakitlikdir, itkilər yoxdur və bu da bugünkü vəziyyətin böyük üstünlüyüdür. Lakin sülh sazişi imzalanana qədər burada sabitlik olmayacaq.

Eyni yanaşmanı dünyanın bütün digər hissələrinə - Yaxın Şərqə və Afrikaya da şamil etmək olar. Əfsuslar olsun ki, münaqişələrin sayı artmaqdadır və əgər siz öz həllini tapmış münaqişə axtarsanız, görə bilərsiniz ki, sadəcə burada, Qarabağda olan münaqişə öz həllini tapıb.

→ 2

# Azərbaycan öz enerji sərvətlərinə məsuliyyətlə yanaşır

## Ölkəmizin enerji siyasəti XII Qlobal Bakı Forumunda da təqdir edilir

Azərbaycan faydalı qazıntılarla zəngin ölkə olsa da, gündəliyində bərpaolunan enerji də diqqət mərkəzindədir: "Bu gün artıq qərara alınıb ki, gələn illərdə Azərbaycanın bərpaolunan enerji imkanları faydalı qazıntıdan olan enerji istehsalına, demək olar ki, bərabər olacaq. Bu gün Azərbaycanda yaradılmış enerji istehsalı imkanları 8 qiqavatdır. 2030-cu ilə qədər bizim bərpaolunan enerjidən, əsasən günəş və küləkdən, o cümlədən Azərbaycanın azad edilmiş ərazilərdəki hidroresurslardan əlavə 6,5 qiqavatlıq enerji güclərimiz olacaq. Beləliklə, biz bu günə olan potensialımızı, demək olar ki, iki dəfə artıracağıq. Bunun sayəsində biz nəinki neft və qazı, o cümlədən "yaşıl enerji"ni də ixrac edə biləcəyik. Bu rəqəmlər tamamilə realdır. Onlar artıq imzalanmış müqavilələrə və anlaşma memorandumlarına əsaslanır".

Hazırda həmin layihələr öz icrasının müxtəlif mərhələlərindədir. 2023-cü ilin oktyabrında "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verildi. "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası, Cəbrayıl rayonunda "Şəfəq" Günəş-Elektrik Stansiyası tikilməkdədir. Prezident İlham Əliyevin "yaşıl enerji" zonası elan etdiyi işğaldan azad olunmuş ərazilərimizdə qısa zamanda onlarla su-elektrik stansiyası və yarımstansiyası inşa edilib, "yaşıl enerji" layihələri digər bölgələrimizə də addımlamaqdadır.

Azərbaycan öz enerji sərvətlərinə məsuliyyətlə yanaşan ölkədir. Odur ki, enerji təchizatı baxımından qıtlıqla üzləşmirik. Əksinə, bu gün Azərbaycan neçə-neçə ölkənin enerji təhlükəsizliyinə töhfə verir. 12 ölkə - Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiya Azərbaycandan təbii qaz alır. Göründüyü kimi, onlardan 10-u Avropa ölkəsidir.

→ 14

# Sülh olacaq?!

## İlham Əliyevin şərtlərini İrəvan sözdə yox, əməldə təsdiqləsə, bununla bağlı saziş imzalana bilər

Hər zaman həqiqətləri söyləyən Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin də bu məsələyə münasibəti birmənalıdır. Cənab İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda keçirilən XII Qlobal Bakı Forumunun açılış mərasimində dövlət başçısı bir daha prosesi dəyərləndirdi: "Biz Cənubi Qafqazda sülhə nail olmalıyıq. Bu baxımdan, Azərbaycan sülh prosesinin təşəbbüskarı olub. Əslində, Azərbaycan hətta bu gün Ermənistanla müzakirə olunan və əsasən razılaşdırılmış sülh sazişi layihəsinin, həmin sülh müqaviləsinin müəllifidir. Bəndlərin əksər hissəsi razılaşdırılıbdır".

Dövlət başçısı bəzi Avropa bürokratlarının Ermənistanı "sülh göyərçini" kimi təqdim etməyə çalışdıqlarını da xatırlatdı və dedi ki, həmin dairələr yəqin Hayastanın keçmiş hökumətinin, hərbi xuntanın hansı vəhşiliklər törətdiklərini yaddan çıxarıblar: "Onlar yaddan çıxarırlar ki, İkinci Qarabağ müharibəsində ermənilər bizim şəhərlərimizi, kəndlərimizi atəşə tuturdu. Yüzdən artıq vətəndaşımızı həmin raketlərə, ixracı qadağan olunmuş "İsgəndər M" raketinə görə itirdik. Biz hələ də suala cavab almamışıq: Ermənistan ordusu "İsgəndər M" raketini necə əldə edib? Çünki Rusiyada bu raketin ixracı yasaqdır. İnanmayanlar isə, - buradan cəmi 5-10 dəqiqəlik yoldur, - getsinlər Hərbi Qənimətlər Parkına və Şuşada tapdığımız "İsgəndər M" raketini görsünlər. Biz onu artıq 2021-ci ilin yazında tapdıq, çünki o, qarın altında qalmışdı. Biz Şuşanı azad etdiyimiz zaman o, şəhərə atılmışdı".

→ 11

# Ermənistanın beynəlxalq hüquq müstəvisində növbəti məğlubiyyəti

## BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupu Ruben Vardanyanın işi ilə bağlı bu ölkənin iddialarını rədd edən rəy bildirib



44 günlük müharibədən sonra Rusiya vətəndaşlığından çıxaraq Qarabağa gələn R.Vardanyan burada Azərbaycan qanunlarına zidd fəaliyyətlə məşğul olmağa başlayıb. Hətta onun çox qısa müddətdə buradakı quldur rejimin "dövlət naziri" seçilməsinin özü böyük şübhə doğururdu. Həmin zaman fəaliyyətini separatizmi gücləndirməyə, vəziyyəti gərginləşdirməyə həsr edən R.Vardanyan dialoq prosesinə mane olmağa, təhlükəsizliyə təhdidlər yaratmağa başlamış, pul vəsaitlərini Qarabağdakı qanunsuz silahlı birləşmələrin terrorçuluq fəaliyyətinin təşkilinə yönəltmişdi. Azərbaycanın suveren ərazilərində sərvətlərimizin talançılığı ilə məşğul olan Vardanyan həm də ard-arda verdiyi cəfəng açıqlama və bəyanatları ilə həddini aşırdı. O, tarixi təhrif edən tamamilə yalan və böhtan xarakterli məlumatlarla əsl həqiqətləri pərdələmək istəyirdi.

2023-cü ildə həyata keçirilən antiterror tədbirləri sayəsində Qarabağda quldur yuvasını dağıdan "dəmir yumruq" Vardanyanın bu özbaşınalıqlarına və cinayət əməllərinə də birdəfəlik son qoydu. Sonra isə növbə Vardanyanın törətdiyi qeyri-qanuni əməllərə görə hüquq müstəvisində cavab verməsinə çatdı.

Törətdiyi qeyri-qanuni əməllərə görə Ermənistan vətəndaşı Ruben Vardanyan 2023-cü il sentyabrın 27-də saxlanılaraq, ittiham elan edilməklə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunub. Barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilən R.Vardanyanın məhkəmə prosesi hazırda davam edir.

→ 12

# “Cənab Prezident, Sizinlə danışmaq hər zaman çox xoşdur”

## Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də XII Qlobal Bakı Forumu zamanı "Euronews" televiziyasına müsahibə verib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının müsahibəsindən bir hissə martın 14-də həmin televiziya kanalında yayımlanıb. İndi müsahibənin tam variantını təqdim edirik.**




**Müxbir: Cənab Prezident, Qlobal Bakı Forumu artıq 12-ci ildir ki, keçirilir. Builki tədbirin nəticələri ilə bağlı gözləntiləriniz nədən ibarətdir?**

**Prezident İlham Əliyev:** Ümid edirəm ki, iştirakçılar ənənəvi olaraq qlobal gündəlikdə duran məsələlər barədə öz mövqelərini, fikirlərini və yanaşmalarını bölüşəcəklər, xüsusilə bu gün beynəlxalq arenada vəziyyətin kəskin şəkildə dəyişdiyi bir vaxtda. Bu forumun iştirakçılarının adları onun potensialını əks etdirir. Çıxışımda qeyd etdiyim kimi, burada müxtəlif ölkələrdən 50-dən artıq fəaliyyətdə olan, sabiq dövlət və hökumət başçısı iştirak edir. Bu şəxslər böyük təcrübəyə və biliyə malikdirlər.

Artıq açılış sessiyasından da bəlli olur ki, burada müxtəlif fikirlərin kombinasiyası mövcuddur. Onlar heç də üst-üstə düşmür və bunun özü müsbət haldır. Əminəm ki, panellər çərçivəsində daha da qızğın müzakirələr aparılacaq. Beləliklə, bu forumda hər zaman yeni ideyalar meydana gəlir və beynəlxalq məsələlərə yanaşmanın formalaşmasında forumun vacib rolu var.

**- Builki forumun mövzusu "Dünya düzəninin yenidən düşünülməsi"dir. Sizcə, bizim hamımızın qlobal səviyyədə üzləşdiyi əsas çağırışlar nədən ibarətdir?**

- Bu gün hər kəs tərəfindən bölüşülən fikir odur ki, hazırda yeni qaydaların müəyyənləşdirilməsi prosesi baş verir. Bildiyimiz dünya nizamı artıq mövcud deyil. Hələ ki beynəlxalq ictimaiyyət tərəfindən istifadə olunacaq qarşılıqlı əlaqə konfiqurasiyası heç kəsə bəlli deyil. Buna dair fərqli fikirlər var. Lakin aydın olan odur ki, birincisi, hər bir ölkə özünün daxili işlərinə və daxili imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma və hətta beynəlxalq hüquqa arxalanmamalıdır. Beynəlxalq hüququn selektiv tətbiqinin qurbanı olan Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurması baxımından böyük təcrübəsi var.

İkincisi, gələcək üçün vacib məsələlərdən biri odur ki, ölkələr beynəlxalq təsisatlar çərçivəsində fəaliyyətə deyil, ikitərəfli münasibətlərə daha çox əhəmiyyət verəcəklər. Çünki bu gün bəzi beynəlxalq təşkilatlar ya öz zəifliyini nümayiş etdirir və ya tamamilə iflic vəziyyətindədir. Əlbəttə, biz hələ ki qlobal transformasiyanın ilkin mərhələsindəyik və bir çox məsələ hadisələrin gedişatından asılı olacaq.

**- Biz dünyada çoxsaylı geosiyasi dəyişikliklərin şahidi oluruq. Əsasən, xüsusilə də bu regionda baş verən dəyişikliklərlə bağlı mövqeyiniz nədən ibarətdir?**

- Əlbəttə, ətrafımızda baş verən böhranlardan regionumuzun qorunması vacib məsələdir. Təəssüflər ki, onilliklər ərzində Cənubi Qafqaz qarşıdurma və düşmənçilik bölgəsi olub. Hazırda nisbətən sakit dövrdəyik və biz diqqətimizi buna yönəltməliyik. Biz növbəti hərbi qarşıdurmanı istisna edəcək əhatəli təhlükəsizlik mexanizmləri yaratmalıyıq və sovet dövründə olduğu kimi, qonşuluq şəraitində yaşamağa çalışmalıyıq.

Bəli, biz o zaman müstəqil dövlətlər deyildik, gələcəyimizi planlaşdırmaq iqtidarında deyildik və böyük mənada, mərkəzi sovet hakimiyyətindən asılı vəziyyətdə idik. Ancaq ən azından Cənubi Qafqaz respublikaları arasında fəal təmaslar var idi. Yəni biz belə bir təcrübəyə malikik və sadəcə, bunu nəzərimizdə saxlamalıyıq. Bu regionla əlaqədar biz geosiyasi transformasiyalar ilə bağlı geridə qalmamalı, diqqətimizi regional problemlər və regional fürsətlər üzərində cəmləşdirməliyik.

**- Daha geniş regiona nəzər saldıqda burada Rusiya-Ukrayna məsələsini, Yaxın Şərqdə cərəyan edən hadisələri görürük. Qlobal kollektiv yanaşma olaraq biz bu hadisələrdən nəyi öyrənərək irəliləyə bilərik?**

- Bizim yanaşma ondan ibarətdir ki, biz qlobal nizamı olduqca düzgün qiymətləndirirdik. Milli maraqlarımız məsələsində biz heç kəsə və ya heç bir təsisata arxalanmamışıq. Olsun Rusiya-Ukrayna müharibəsi, yaxud Yaxın Şərqdəki hadisələr və Afrikadakı gərginlik - hər bir ölkə anlamalıdır ki, o, öz taleyinin sahibidir.

Onlar bunu nə qədər tez başa düşsələr, bu, onlar üçün bir o qədər də yaxşı olar. Çünki əgər siz həmişə kiminsə yardımına bel bağlasanız, birincisi, bu, sizi zəiflədəcək, ikincisi, bu yardımın daimi olacağına dair heç bir zəmanət yoxdur, üçüncüsü də, siz suverenliyinizin bir hissəsini itirmiş olursunuz. Çünki əgər siz həmişə kimdənsə asılısınızsa və həmişə kimdənsə yardım istəyirsinizsə, onda bir gün gələcək, həmin şəxs gəlib sizdən hesabat istəyəcək.

Bizim təcrübəmiz uğurlu olmuşdur və onun uğurlu olması sübuta yetirilmişdir. Yəni biz öz resurslarımıza güvənirdik, biz suverenliyimizi və ərazi bütövlüyümüzü özümüz bərpa etdik və indi də gələcəyimizi özümüz qururuq. Hesab edirəm ki, bu, çox vacib bir nəticədir və bu, təkcə nəzəriyyə deyil, bu, Azərbaycanda baş verənlərdir.

**- Gələcəyə baxışınıza gəldikdə, bu qlobal sabitliyin yekunda haraya gedəcəyini görürsünüz? Sizcə, biz buna nail olacağıq?**

- Bu məsələdə mən o qədər də nikbin deyiləm. Mən realist olmağa üstünlük verirəm. Növbəti aylar və ya hətta illərdə sabitliyə nail olacağımızı düşünmürəm. Rusiya-Ukrayna müharibəsindən söhbət gedirsə, hətta müharibə dayansa belə, müharibənin yenidən başlamayacağına dair heç bir zəmanət yoxdur. Bir vaxtlar demək olar ki, otuz il ərzində bizdə - Azərbaycan və Ermənistan arasında atəşkəs razılaşması var idi. Bu razılaşmaya 1994-cü ilin yazında nail olunmuşdur. Lakin bu, müharibənin sona çatması demək deyildi. Sadəcə, transformasiya baş vermişdir və müharibə yalnız sülh sazişi imzalananda bitir.

Hətta indiki dövrdə, İkinci Qarabağ müharibəsinin bitməsindən beş il keçməsinə baxmayaraq, bizim Ermənistanla sülh müqaviləmiz yoxdur. Bəli, sakitlikdir, itkilər yoxdur və bu da bugünkü vəziyyətin böyük üstünlüyüdür. Lakin sülh sazişi imzalanana qədər burada sabitlik olmayacaq.

Eyni yanaşmanı dünyanın bütün digər hissələrinə - Yaxın Şərqə və Afrikaya da şamil etmək olar. Əfsuslar olsun ki, münaqişələrin sayı artmaqdadır və əgər siz öz həllini tapmış münaqişə axtarsanız, görə bilərsiniz ki, sadəcə burada, Qarabağda olan münaqişə öz həllini tapıb. Bu, beynəlxalq hüquq, tarixi ədalət əsasında həllini tapmış yeganə münaqişədir. Bu həlli bütün dünya qəbul edir.

**- Hesab edirəm ki, belə hadisələr bu cür müzakirələrin başlanılmasına səbəb olur. Bu, o geosiyasi arenanın mühüm bir hissəsidir, elə deyilmi?**

- Əlbəttə. Çünki biz geosiyasi dəyişikliklərdən bəhs edəndə daha dəqiq danışmalıyıq. Bu, Vaşinqtonda baş verən hadisələrdir. Amerikanın yeni administrasiyasının siyasəti ilə bağlı nələr baş verir və bu, bir daha bütün dünyanın Ağ Evdə qəbul olunmuş qərarlardan necə asılı olduğunu nümayiş etdirir. Beləliklə, bu, qlobal geosiyasi dəyişikliyin mənbəyidir. O, yenicə başlayıb və biz bu geosiyasi dəyişikliyin ilk aylarını yaşayırıq.

Buna görə də belə çoxsaylı qonaqların iştirak etdiyi toplantılar hadisələri müvafiq şəkildə qiymətləndirmək, fikirləri, narahatlıqları və ya gözləntiləri bölüşmək üçün vacibdir. Mənim çıxışıma nəzər salsanız görərsiniz ki, mən baş verənlərlə bağlı çox nikbin əhvali-ruhiyyədəyəm. Çıxışımda dediyim kimi, biz ABŞ-nin əvvəlki administrasiyası və Azərbaycan arasında münasibətlərin pisləşməsindən məyusluq hissi keçirmişdik. Onların mövqeyi bizim milli maraqlarımıza ədalətsiz yanaşmadan ibarət idi. Buna görə biz Tramp administrasiyası dövründə ABŞ ilə münasibətlərimizin və güclü tərəfdaşlığımızın yenidən qurulmasına çox nikbin baxırıq.

Lakin qonşu zalda bəzi insanlar var ki, onlar nikbin olmaq əvəzinə daha çox məyusdurlar. Bu da təbiidir, çünki hər bir ölkənin öz maraqları var. Hər bir siyasətçinin öz baxışları var. Mən ümid edirəm ki, burada, bu forumda ideyaların toqquşması baş verəcək və bu da forumu uğurlu edəcək.

**- Siz artıq Prezident Trampla danışmısınız və o, Sizin fikirlərinizi bölüşürmü?**

- Mən, sadəcə, onunla onu seçkilərdə qələbə münasibətilə təbrik etmək üçün danışmışam və bu da bizim aramızda baş vermiş yeganə söhbətdir.

**- Hələ ki. Cənab Prezident, Sizinlə danışmaq hər zaman çox xoşdur.**

- Çox sağ olun. Sizə Bakıda xoş vaxt keçirməyi arzulayıram.

**- Sağ olun. Sizi görmək xoş idi.**

- Sağ olun.

# Moldovanın portalı XII Qlobal Bakı Forumunda Prezident İlham Əliyevin çıxışına geniş yer ayırıb




**Moldovanın "noi.md" xəbər portalı "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumunun rəsmi açılış mərasiminə dair məqalələr dərc edib.**

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin forumda söylədiyi fikirlərə geniş yer verilib. Prezidentin nitqində Azərbaycanın beynəlxalq mövqelərinin konturları, üzləşdiyi vəzifələr və əldə etdiyi uğurlar göstərilib. Azərbaycan dövlətinin başçısı Bakı Forumunun aktual qlobal problemlərin müzakirəsi üçün aparıcı platformalardan birinə çevrildiyini vurğulayıb. Bu kontekstdə Prezident İlham Əliyev xatırladıb ki, ötən il Bakıda keçirilən COP29 iqlim konfransı ekspertlər tərəfindən "Bakı sıçrayışı" adlandırılıb və bu, Azərbaycanın qlobal siyasətdə artan rolundan xəbər verir.

Məqalədə həmçinin Prezident İlham Əliyevin Azərbaycanın yaşadığı işğal illərini və Ermənistan tərəfinin verdiyi dağıntıları haqqında fikirləri də yer alıb. Dövlətimizin başçısının sitatına istinadla Azərbaycanın güc və qətiyyət nümayiş etdirərək öz ərazi bütövlüyünü bərpa etdiyi vurğulanıb. Azərbaycanın öz hərbi potensialını fəal şəkildə inkişaf etdirdiyini və son 20 ildə işğal olunmuş əraziləri azad edən qüdrətli ordu yaratdığı qeyd edilib.

Eyni zamanda Prezident İlham Əliyevin Azərbaycanın zərərinə erməni diasporunu dəstəkləyən bəzi Qərb siyasətçilərini tənqid edən fikirləri də məqalədə xüsusi yer tutub. Azərbaycan Prezidentinə istinadla vurğulanıb ki, Robert Menendez, Adam Şif, Frank Pallon və Nensi Pelosin erməni diasporunun maliyyə resurslarından Azərbaycana hücum və nüfuzdan salmaq üçün istifadə ediblər. Həmçinin ABŞ-nin keçmiş dövlət katibi Antoni Blinken onilliklər ərzində əməkdaşlığa, o cümlədən Bakının İraq və Əfqanıstandakı hərbi missiyalarda iştirakına baxmayaraq, ABŞ-Azərbaycan münasibətlərini faktiki olaraq pozub. Azərbaycan Prezidenti Avropa İttifaqını da tənqid edərək, Brüsseli Ermənistanın "yeni böyük qardaşı" adlandırıb. Prezident İlham Əliyev bəyan edib ki, Ermənistan-Azərbaycan sərhədində Avropanın monitorinq missiyası faktiki olaraq onun ölkəsinə qarşı kəşfiyyat fəaliyyəti ilə məşğuldur. Dövlətimizin başçısı Ermənistana verilən silahların Azərbaycana qarşı yönələ biləcəyindən də narahat olduğunu bildirib. Prezident İlham Əliyev qeyd edib ki, keçmişdə baş vermiş faciəli hadisələrə baxmayaraq, ölkə gələcəyə baxır və Cənubi Qafqazda davamlı sülhə nail olmağa çalışır.



Milli Məclisin iclasında

# Nazirlər Kabinetinin hesabatı dinlənilib





**Martın 14-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə, martın 10-da və 11-də başçılığı ilə nümayəndə heyətinin Gürcüstana rəsmi səfəri barədə məlumat verib.**

Milli Məclisin Sədri qeyd edib ki, rəsmi səfərin ilk günündə Tbilisi şəhərindəki Heydər Əliyev Parkında Ümummilli Liderin abidəsi ziyarət edilib, abidənin önünə əklil qoyulub, Ulu Öndərin xatirəsi ehtiramla yad edilib.

Rəsmi səfər çərçivəsində Gürcüstan parlamentinin Sədri Şalva Papuaşvili, Gürcüstan Prezidenti Mixeil Kavelaşvili və Baş nazir İrakli Kobaxidze ilə görüşlər keçirildiyini bildirən Sahibə Qafarova deyib: "Görüşlərdə dost ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif aspektləri haqqında fikir mübadiləsi aparıldı, möhkəm tarixi əsaslara malik olan münasibətlərin dinamik inkişafından razılıq ifadə edildi. Qeyd olundu ki, Azərbaycanla Gürcüstanın iş birliyi böyük enerji və nəqliyyat layihələrinin həyata keçirilməsinə imkan yaratmışdır. Xalqlarımızın mənafeyinə xidmət edən bu layihələr Avrasiya məkanında mühüm amilə çevrilmişdir. Yüksəksəviyyəli münasibətlərin parlamentlər müstəvisində də uğurla davam etdirildiyi bildirildi. Vurğulandı ki, parlamentlərarası əlaqələr Azərbaycanla Gürcüstanın ikitərəfli və çoxtərəfli münasibətlərinin mühüm tərkib hissələrindən biridir. İki ölkənin parlament üzvlərinin beynəlxalq platformalarda bir-birinə qarşılıqlı dəstəyinin və birgə fəaliyyətinin əhəmiyyəti qeyd olundu".

Milli Məclisin Sədrinin sözlərinə görə, görüşlərdə regionda vəziyyət, sülh və sabitliyin təmin olunmasının vacibliyi ilə bağlı fikir mübadiləsi aparılıb, beynəlxalq münasibətlər sistemində mövcud olan ikili standartların, ölkələrə qarşı qərəzli, ədalətsiz yanaşmaların yolverilməz olduğu bildirilib.

Rəsmi səfər çərçivəsində Azərbaycan və Gürcüstan parlamentlərinin sədrləri iki ölkənin qanunvericilik orqanları arasında əməkdaşlıq haqqında memorandumun imzalandığını deyən Sahibə Qafarova Gürcüstana rəsmi səfərin uğurlu keçdiyini qeyd edərək, bununla əlaqədar nümayəndə heyətinin üzvlərinə öz minnətdarlığını bildirib.

Sonra spiker Sahibə Qafarova bildirib ki, Milli Məclisin yaz sessiyasının beşinci iclasıdır və qanunvericiliyə uyğun olaraq Nazirlər Kabineti ötən ildəki fəaliyyəti barədə hesabat verir.

Milli Məclisin Sədri qeyd edib ki, müstəqillik dövründə ilk dəfə olaraq 2024-cü ildə ölkəmizin bütün suveren ərazisində keçirilən prezident və parlament seçkiləri Azərbaycanın müstəqil inkişaf yolunda inamla irəlilədiyini bir daha təsdiq etmişdir: "Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası xalqımıza və dövlətimizə yeni böyük uğurlar gətirmişdir. Dövlət başçısı tərəfindən ölkəmizin inkişafı ilə bağlı strateji hədəflərin müəyyən edilməsi hökumətin fəaliyyətində məqsədyönlülüyü və səmərəliliyi yüksəltmişdir. Ölkənin iqtisadi dayanıqlığının qorunmasına, modernləşməyə və sosial rifaha xidmət edən düşünülmüş tədbirlər həyata keçirilmişdir.

Dövlət başçısının sərəncamı ilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Noyabr ayında Bakıda keçirilən COP29 Konfransı Azərbaycanı iqlim dəyişmələri ilə bağlı beynəlxalq dialoqun mərkəzinə çevirmişdir. Bu cür möhtəşəm tədbirə evsahibliyi etməklə ölkəmiz qlobal idarəetmədə və dayanıqlı inkişafda konstruktiv rol oynaya bilən bir dövlət olduğunu nümayiş etdirmişdir".

Sahibə Qafarovanın sözlərinə görə, 2024-cü ildə ümumi daxili məhsulun artımı həm neft, həm də qeyri-neft-qaz sahələri hesabına əldə edilmişdir: "İqtisadiyyatın şaxələndirilməsi, xüsusilə də nəqliyyat-tranzit potensialının reallaşdırılması, kənd təsərrüfatının, turizmin, rəqəmsal və "yaşıl iqtisadiyyat"ın inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər görülməkdədir. Hökumətin bu istiqamətdə gördüyü işlər iqtisadiyyatın dayanıqlı olmasına xidmət edir. Qeyd edim ki, ötən il ümumi daxili məhsul 4,1 faiz artmış və ya mütləq rəqəm ifadəsində 126 milyard manat təşkil etmişdir. Valyuta ehtiyatlarımız il ərzində 5 milyard dollardan çox artaraq 72 milyard dollara çatmışdır.

Böyük qayıdış, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası üçün 2024-cü ildə büdcədən 5,4 milyard manata yaxın vəsait ayrılmış, il ərzində 5500-ə yaxın insanın doğma yurdlarına köçürülməsi təmin edilmişdir.

Qanunvericilik orqanı olaraq, hörmətli həmkarlar, dövlət büdcəsinin təsdiq və icrasında iştirak etdiyimizə görə mən bəzi büdcə rəqəmlərinə də xüsusi toxunmaq istəyirəm. Dövlət büdcəsinin gəlirləri proqnozdan 5,5 faiz və ya 774 milyon manat çox icra olunmuşdur. Dövlət büdcəsi ilə əlaqədar, hörmətli həmkarlar, mən möhtərəm Prezidentin fikirlərinə istinad etmək istərdim. Dövlət başçısı demişdir: "Azərbaycan tarixində bu qədər böyük büdcə olmayıb. ...Biz yalnız daxili resurslar hesabına, şəffaflıq, idarəetmə və düzgün iqtisadi siyasət nəticəsində bu nəticələrə çatmışıq. Mən dəfələrlə bildirmişdim və artıq hesab edirəm ki, bunu hər kəs görür, hər bir ölkənin siyasi müstəqilliyi onun iqtisadi müstəqilliyindən asılıdır". Möhtərəm cənab Prezidentin bu sözləri əminliklə söyləməyə bizə imkan verir ki, Azərbaycan dinamik və davamlı inkişaf yolunda bundan sonra da inamla addımlayacaqdır".

Spiker qeyd edib ki, Nazirlər Kabinetinin illik hesabatlarının Milli Məclisdə dinlənilməsi parlamentlə hökumət arasında təmasların artmasına, sosial-iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasında və həllində deputatların iştirakına şərait yaradır: "Ötən il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təkliflər, həmişə olduğu kimi, yenə də hökumət tərəfindən diqqətlə araşdırılmışdır. Bu təkliflərin icra vəziyyətinə dair ətraflı məlumat bizə təqdim edilmişdir.

Eyni zamanda artıq 5 ildir ki, hesabata ayrıca olaraq, sosial və infrastruktur obyektlərinin əsaslı təmiri və tikintisi, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması barədə deputatların təkliflərinin icrasına dair məlumat daxil edilir".

Milli Məclisin Sədri çıxışının sonunda deputatların aparılacaq müzakirələrdə də fəal iştirak edəcəklərinə və səmərəli təkliflər irəli sürəcəklərinə əminliyini bildirib.

Sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı təqdim edib. *(Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabat qəzetin bugünkü nömrəsində dərc olunub).*

İclasda Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı ətrafında müzakirələr aparılıb. Müzakirələrdə Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, Sədr müavinləri Ziyafət Əsgərov, Musa Qasımlı, komitə sədrləri Azər Əmiraslanov, Tahir Rzayev, deputatlar Elman Nəsirov, Bəhruz Məhərrəmov, Naqif Həmzəyev, Aydın Mirzəzadə, Fariz İsmayılzadə, Əziz Ələkbərov, Jalə Əliyeva, Sahib Alıyev çıxış ediblər.

Deputatlar vurğulayıblar ki, dövlət başçısının rəhbərliyi və hökumətin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizin iqtisadi qüdrəti daha da artıb, Azərbaycan beynəlxalq səviyyədə və regionda söz sahibinə çevrilib. Millət vəkilləri 2024-cü ildə Azərbaycan hökumətinin fəaliyyətinin səmərəli olduğunu deyiblər. Hökumətin fəaliyyətinin uğurlu olmasında iqtisadi inkişaf, maliyyə dayanıqlığı, əhalinin rifahı və sosial vəziyyəti ilə bağlı amillərin əhəmiyyətindən söz açıblar. Bildirilib ki, işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması sahəsində görülən işlər hökumətin geniş maliyyə imkanlarının göstəricisidir. Bununla yanaşı, ölkənin təhlükəsizliyi və müdafiə qüdrətinin möhkəmləndirilməsi istiqamətində əlavə tədbirlərin reallaşdırılması məqsədəmüvafiq hesab olunub. Həmçinin insanların rifahının daha da yaxşılaşdırılmasına yönəlmiş sosial layihələrin həyata keçirilməsi ilə bağlı lazımi vəsaitin ayrılması müsbət dəyərləndirilib. Təhsil və səhiyyə sahələrinin inkişafı, məşğulluq proqramlarının genişləndirilməsi istiqamətində əhəmiyyətli işlərin görüldüyü söylənilib.

Qeyd edilib ki, aparılan genişmiqyaslı iqtisadi və institusional islahatlar, həyata keçirilən kompleks tədbirlər nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik 2024-cü ildə də qorunub saxlanılıb. Hökumətin atdığı mühüm addımlar inflyasiyanın idarə edilməsi və iqtisadi sabitliyin əldə edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. İnformasiya-kommunikasiya texnologiyaları, nəqliyyat-logistika və digər sahələrdə müşahidə olunan inkişaf qeyri-neft sektorunun iqtisadiyyatın mühüm tərkib hissəsinə çevrilməsinə imkan yaradıb. Habelə investisiya mühitinin yaxşılaşdırılması, yeni iş yerlərinin açılması sosial rifahın artırılmasına müsbət təsir edir. Dayanıqlı iqtisadi artım nəticəsində işğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışı təmin edilir.

Bildirilib ki, 2024-cü ildə iqtisadiyyatın şaxələndirilməsi, regionların sosial-iqtisadi inkişafı istiqamətində önəmli işlər görülüb. Kənd təsərrüfatı və sənaye sahələrində həyata keçirilən layihələr, habelə enerji təhlükəsizliyinin təmin edilməsi və bərpaolunan enerji mənbələrinin inkişafı ilə bağlı tədbirlər diqqətəlayiqdir.

Fasilədən sonra Nazirlər Kabinetinin 2024-cü ildəki fəaliyyəti haqqında hesabata dair müzakirələr davam etdirilib.

Müzakirələrdə komitə sədrləri Zahid Oruc, Hicran Hüseynova, Sadiq Qurbanov, Fazil Mustafa, Anar İsgəndərov, Musa Quliyev, deputatlar Razi Nurullayev, İlham Məmmədov, Bəxtiyar Əliyev, Aydın Hüseynov, Vüqar Bayramov, Ceyhun Məmmədov, Tural Gəncəliyev, Sevil Mikayılova, Qüdrət Həsənquliyev çıxış ediblər.

Deputatlar Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə hökumətin 2024-cü ildə qarşıya qoyulmuş vəzifələrə və dövrün çağırışlarına uyğun səmərəli fəaliyyət göstərdiyini vurğulayıblar. Bildirilib ki, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası, ictimai-siyasi sabitlik, milli və dövlət maraqlarına əsaslanan çevik və uğurlu iqtisadi diplomatiya, iqtisadi və siyasi müstəqilliyi uzlaşdıran ləyaqətli və qətiyyətli dövlət siyasəti Nazirlər Kabinetinin fəaliyyəti üçün əlverişli mühit və zəmin yaradıb.

Millət vəkilləri hesabat dövründə həyata keçirilən siyasi, iqtisadi, institusional islahatları, uğurlu xarici siyasət nəticəsində dövlətin müstəqilliyinin daha da möhkəmləndirilməsini, iqtisadiyyatın və hərbi qüdrətin artmasını, qeyri-neft-qaz, sənaye və turizm kimi sektorlarda inkişafı müsbət qiymətləndiriblər.

Ötən il ərzində makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın və qeyri-neft sektorunun inkişafı istiqamətində əldə olunan nailiyyətlərdən söz açan millət vəkilləri əhalinin sosial müdafiəsinin təmini tədbirlərini, şəhid ailələrinə, qazilərə və müharibə veteranlarına göstərilən sosial dəstək proqramlarını yüksək dəyərləndiriblər. Onlar ailə və uşaq hüquqlarının, əhalinin sağlamlığının qorunması, həmçinin təhsil, elm, energetika kimi sahələrdə əldə olunan müsbət göstəriciləri diqqətə çatdıraraq dövlətin bu sektorlara diqqət və qayğısından bəhs ediblər. Bildirilib ki, sənəddə iqtisadiyyatın bütün sahələrinin inkişafı, əhalinin sosial rifahının yaxşılaşdırılması məqsədilə atılmış addımları əks etdirən statistik rəqəmlər ölkəmizin daha da güclənməsini göstərir. Sənaye sahəsinin ÜDM-də payının 36 faizə çatması ölkəmizin inkişaf etmiş sənaye ölkəsi kimi güclənməsini əks etdirir. Turizmin 2023-cü ilə nisbətən 13 faiz artaraq son nəticədə ÜDM-də payının 2,4 faizə çatması da ölkəmizin beynəlxalq imicinin formalaşmasını və cəlbediciliyini ifadə edir.

Hökumətin 2024-cü ildəki fəaliyyətini qənaətbəxş hesab edən deputatlar bildiriblər ki, əhalinin sosial rifahı yaxşılaşdırılıb, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı təmin edilib, dövlət sosial proqramları, regionların inkişafı ilə bağlı tədbirlər uğurla icra olunub. Çıxışlarda hesabat ilində müdafiə və milli təhlükəsizliyin möhkəmləndirilməsi işləri də yüksək qiymətləndirilib. Habelə, energetika, ekoloji təhlükəsizliyin təmin olunması sahəsində məqsədyönlü tədbirlərin görüldüyü qeyd edilib.

Millət vəkilləri həmçinin seçicilərin üzləşdiyi bəzi problemləri də hökumət üzvlərinin diqqətinə çatdırıblar, bir sıra aktual məsələlərə toxunublar, təkliflərini səsləndiriblər.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova səmərəli müzakirələrin keçdiyini bildirib. O, çıxış edənlərin mütləq əksəriyyətinin hökumətin hesabatı haqqında müsbət rəylər söylədiyini qeyd edib. Bir sıra təklif və sualların olduğunu deyən spiker, bunlara işçi qaydada cavab verilməsini təklif edib.

İclasda Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı nəzərə alınıb.

Sonra Baş nazir Əli Əsədov çıxış edərək, son dövrlərdə hökumətin Milli Məclislə konstruktiv əməkdaşlıq etdiyini, bir çox məsələlərin həllində ümumi məxrəcə gəlindiyini bildirib. O, deputatların çıxışlarında 2024-cü ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hökumətinə gördüyü işlərə dair yüksək qiymət verildiyinə görə təşəkkürünü ifadə edib. Baş nazir qarşıda yeni hədəflərin, həllini gözləyən məsələlərin olduğunu söyləyib. Səsləndirilən fikirlərə münasibət bildirən Baş nazir müzakirələrdə qaldırılan məsələlərin diqqətdə saxlanılacağını, onların həlli istiqamətində lazımi addımların atılacağını bildirib.

Parlamentin Sədri Sahibə Qafarova Baş nazirə və hökumət üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, qarşıdan gələn bayramlar münasibətilə təbriklərini çatdırıb.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Azərbaycan və Venesuela parlamentlərinin dostluq qruplarının onlayn iclasında

**Azərbaycan və Venesuela parlamentlərində fəaliyyət göstərən parlamentlərarası əlaqələr üzrə işçi qruplarının onlayn iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan Venesuela Bolivar Respublikası Milli Assambleyasının Venesuela-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Amerika Valentina Peres Davila iştirakçılara assambleya sədri Xorxe Rodriqesin salamlarını çatdırıb. Parlamentlərarası əlaqələrin dərinləşdirilməsinin və beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığın vacibliyini vurğulayan dostluq qrupunun rəhbəri, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin apreldə Daşkənddə keçiriləcək Dördüncü Konfransına dəvət aldıqlarını və tədbirdə iştirak edəcəklərini bildirib.

Onlayn iclasda çıxış edən Milli Məclisin Venesuela ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri deputat Tamam Cəfərova iştirakçılara Milli Məclisin Sədri Sahibə Qafarovanın səmimi salamlarını çatdırıb. İkitərəfli münasibətlərin inkişafından məmnunluğunu ifadə edən işçi qrupunun rəhbəri may ayında Azərbaycan və Venesuela arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunacağını bildirib. O, beynəlxalq platformalarda qarşılıqlı dəstəyin, qurumlararası siyasi məsləhətləşmələrin və iqtisadiyyat, təhsil, turizm sahələrində əməkdaşlığın vacibliyini qeyd edib. Parlament diplomatiyasının rolunu vurğulayan deputat Tamam Cəfərova dostluq qruplarının qarşılıqlı əməkdaşlığının dərinləşdirilməsinin vacibliyini ifadə edib.

İclasda iki ölkə arasında siyasi, mədəni, iqtisadiyyat, enerji sahələrində əməkdaşlığın genişləndirilməsinin, enerji səmərəliliyi sahəsində məsləhətləşmələrin aparılmasının vacibliyi vurğulanıb. Parlamentlərarası əlaqələrin möhkəmləndirilməsi, hüquqi bazanın gücləndirilməsi, təhsil, xüsusilə universitetlərarası əməkdaşlığın inkişafı müzakirə edilib. Həmçinin beynəlxalq platformalarda, xüsusilə Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Onlayn iclasda Milli Məclisin Venesuela ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri, Milli Məclisin komitə sədrləri - Sadiq Qurbanov və Arzu Nağıyev, deputatlar Aydın Hüseynov, Mehriban Vəliyeva, Naqif Həmzəyev, Ülviyyə Həmzəyeva, Zaur Şükürov, Venesuela parlamentinin Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun üzvləri, eləcə də Venesuelanın Azərbaycandakı səfiri Kristofer Alberto Martinez Berroteran iştirak ediblər.

***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyətinə dair hesabatı

Hörmətli xanım Sədr! Hörmətli deputatlar!

Bu gün Nazirlər Kabineti 2024-cü ildəki fəaliyyəti haqqında geniş hesabatla Milli Məclis qarşısında çıxış edir.

Belə bir hesabatlılıq Hökumətlə Milli Məclis arasında səmərəli və işgüzar əməkdaşlığa əhəmiyyətli fayda verir.

Hökumətin gördüyü işləri və əsas vəzifələri hörmətli millət vəkilləri ilə birlikdə müzakirə etməyə və dəqiqləşdirməyə şərait yaradır.

Hörmətli deputatlar!

2024-cü il Azərbaycanın müasir tarixinə əlamətdar siyasi hadisələrin baş verdiyi, möhtəşəm nailiyyətlərin əldə edildiyi il kimi yazıldı. Ötən il Vətənimizin müstəqillik tarixində ilk dəfə olaraq bütün suveren ərazimizdə növbədənkənar prezident seçkiləri və növbədənkənar parlament seçkiləri keçirildi.

Prezident seçkilərinin nəticələri Ulu Öndərin layiqli davamçısı olan cənab İlham Əliyevin Prezident kimi Vətənə, xalqa və dövlətçiliyə həsr edilmiş 20 illik misilsiz xidmətlərinə xalq tərəfindən verilən yüksək qiymətin bariz nümunəsinə çevrildi.

Tam suveren Azərbaycanın ilk parlament seçkiləri də çox uğurla keçdi və sədri Prezident İlham Əliyev olan Yeni Azərbaycan Partiyasına xalqımızın inamını növbəti dəfə nümayiş etdirdi.

Dövlət başçısının rəhbərliyi ilə bütün sahələrdə həyata keçirilən uğurlu siyasət 2024-cü ildə də müasir Azərbaycanın hərtərəfli tərəqqisinə və güclənməsinə, sosial-iqtisadi sahədə davamlı inkişafın təmin olunmasına, ölkəmizin regional mövqeyinin möhkəmləndirilməsinə, beynəlxalq münasibətlər sistemindəki rolunun artmasına xidmət etmişdir.

"Yaşıl dünya naminə həmrəylik ili" elan edilən 2024-cü ildə ölkəmizin həyatında mühüm hadisələrdən biri dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən olan COP29-un keçirilməsi oldu.

80 ölkənin dövlət və hökumət başçılarının bu beynəlxalq tədbirdə iştirakı və müstəsna önəm daşıyan qərarların qəbul edilməsi Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha bütün dünyaya nümayiş etdirdi.

2024-cü il həm də müstəqillik tariximizdə növbəti əlamətdar diplomatik hadisə ilə yadda qaldı. Azərbaycan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv seçildi. Təbii ki, bu, beynəlxalq aləmdə ölkəmizin artan nüfuzundan xəbər verir.

Hörmətli deputatlar!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci il yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibəsində söylədiyi kimi: 2024-cü il iqtisadi inkişaf baxımından uğurlu il olmuşdur və Azərbaycanın iqtisadiyyatı inkişaf etmişdir.

Əlbəttə ki, bütün bunların təməlində cənab Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə aparılan düşünülmüş siyasət dayanır.

Hesabat ilində ölkədə:

- 126,3 mlrd. manatlıq və ya 2023-cü illə müqayisədə real ifadədə 4,1% çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur.
- 2024-cü ildə ÜDM istehsalı neft-qaz sektorunda 0,3%, qeyri-neft-qaz sektorunda isə 6,2% artmışdır.
- qeyri-neft-qaz sənayesi 7,3% artmışdır.
- əhalinin hər nəfərinə düşən ÜDM isə 3,6% artaraq 12,4 min manat (7,3 min ABŞ dolları) təşkil etmişdir.

2024-cü ildə xarici ticarət dövriyyəmiz təxminən 47,4 mlrd. ABŞ dollarına çatmış, müsbət ticarət saldosu 5,3 mlrd. dollar olmuşdur. Qeyri-neft ixracı 3,3 mlrd. dolları üstələmişdir.

2024-cü ildə ölkənin strateji valyuta ehtiyatları 2,5 mlrd. dollar (və ya 3,7%) artaraq 71 mlrd. dollar (hazırda 73 mlrd. dollar) təşkil etmişdir və xarici dövlət borcunu 14 dəfə üstələyir.

İlin sonuna xarici dövlət borcunun məbləği 20,6% azalaraq 5,1 mlrd. dollar olmuş və ÜDM-in cəmi 6,9%-ni təşkil etmişdir.

Hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri, valyuta bazarında tarazlığın qorunması, məzənnə sabitliyi, makro-fiskal və monetar siyasətlə bağlı qərarlar inflyasiyaya azaldıcı təsir etmişdir.

Hesabat ilində illik inflyasiya hədəf diapazonu daxilində olmuşdur. Belə ki, 2024-cü ilin dekabr ayında 12 aylıq inflyasiya 4,9%, orta illik inflyasiya isə 2,2% olmuşdur.

2024-cü ildə dövlət büdcəsinin gəlirləri təxminən 37,2 mlrd. manat (102% icra), xərcləri isə 37,7 mlrd. manat (95% icra) təşkil etmişdir.

Beləliklə, dayanıqlı iqtisadi artım üçün makroiqtisadi - maliyyə sabitliyi və inflyasiyanın aşağı birrəqəmli səviyyəsi təmin edilmişdir.

Maliyyə vəziyyətimizin yaxşılaşması nəticəsində qeyri-neft sektorunda iqtisadi fəallığın təmin edilməsi, sahibkarlığın inkişafı və yerli istehsalın stimullaşdırılması, vergi-gömrük güzəştləri, biznes-investisiya mühitinin yaxşılaşdırılması, habelə dövlətlə özəl sektor arasında birgə maliyyələşdirmə istiqamətində kompleks işlər davam etdirilmişdir.

İnvestisiya təşviqi ilə bağlı yeni mexanizmlər əsasən regionların inkişafına və investisiya potensialının artırılmasına yönəldilmişdir.

2024-cü ildə sənaye zonalarında 3,3 mlrd. manat dəyərində məhsul istehsal olunmuş, ondan 1,1 mlrd. manat həcmində məhsul ixrac edilmişdir.

Hesabat ilində institusional sahədə islahatlar davam etmiş, iqtisadiyyatda rəqabət mühitinin yaxşılaşdırılması, korrupsiya ilə mübarizə və kölgə iqtisadiyyatının məhdudlaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Hörmətli deputatlar!

2024-cü ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, xüsusən də aztəminatlı təbəqənin alıcılıq qabiliyyətinin və real gəlirlərinin yüksəldilməsi məqsədilə sosial ödənişlərin artırılması ilə bağlı bir sıra mühüm qərarlar qəbul olunmuşdur.

2024-cü ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət büdcəsi xərclərinin 39%-i və ya 14,6 mlrd. manatı sosialyönlü



xərclərin maliyyələşdirilməsinə yönəldilmişdir.

2024-cü ildə orta pensiya məbləği 12% (494 manat), yaşa görə pensiya 11,3% (528 manata) artmış, yaşayış minimumu ölkə üzrə 270 manat müəyyən edilmişdir (9,8% artım). Bir ailəyə düşən sosial yardımın orta aylıq məbləği 475 manat olmuşdur.

Cənab Prezidentin davamlı islahatları çərçivəsində sosial məsələlərin həllinə daim diqqət göstərilir. Yanvarın 1-dən sosial sahədə növbəti artımlarla bağlı qərarlar qəbul olunmuşdur.

Ümumiyyətlə, son bir neçə il ərzində 4 sosial paket həyata keçirilib və bu məqsədlər üçün 7 milyard manatdan çox vəsait xərclənib.

Bundan sonra da Hökumətin əsas vəzifələrindən biri sosial və iqtisadi inkişafın paralel həyata keçirilməsidir.

Cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanın Əliyevanın daim diqqət və qayğısı ilə ötən il 800 mənzil şəhid ailələri, müharibə əlillərinə və həssas təbəqədən olan digər şəxslərə verilmişdir, habelə 93 avtomobil müharibə əlillərinə təqdim edilmişdir.

Həmçinin hərbi qulluqçuların mənzillə təmin olunması ilə bağlı xərclər üçün 35 mln. manat vəsait ayrılmışdır.

Əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi ilə bağlı 100 mln. manat vəsait ayrılmışdır.

Bununla yanaşı, qəzalı binalarla bağlı problemlərin həlli, o cümlədən inventarizasiya və mənzil köçürülməsi işləri aparılmışdır. Bu istiqamətdə 2025-ci ilin dövlət büdcəsində 50 mln. manat vəsait nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, qeyd edim ki, 2024-cü ildə tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın məbləği ümumi investisiyanın 72,4%-ni təşkil edərək 15,5 mlrd. manat olmuşdur.

Hörmətli deputatlar!

Hesabat ilində səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və əlçatanlığın təmin olunması məqsədilə əhalinin icbari tibbi sığortalanması və bu sahədə bir sıra dövlət proqramlarının icrası üzrə büdcədən 1 milyard 368 milyon manat vəsait ayrılmışdır (artım 8,2%).

Hökumət tərəfindən əhalinin sağlamlığının qorunması məqsədilə qarşıdakı dövrdə tibbi xidmətlər zərfinin genişləndirilməsi nəzərdən keçirilir.

Hesabat ilində təhsilin keyfiyyətinin yüksəldilməsi və əlçatanlığın artırılması, əmək bazarının tələblərinə cavab verən peşə təhsilinin təşkili, beynəlxalq rəqabətliliyin təmin edilməsi, rəqəmsallaşma və innovasiyaların inkişafı istiqamətində tədbirlər həyata keçirilmişdir.

Təhsilin inkişafı ilə bağlı qəbul olunan mühüm strategiya və proqramlar nəticəsində dövlət büdcəsindən təhsil xərclərinə 4 milyard 550 milyon manat vəsait ayrılmışdır (artım 10,3%).

2024-cü ildə investisiya xərcləri hesabına 57 təhsil müəssisəsində tikinti işləri aparılmışdır.

Xüsusi vurğulamaq istərdim ki, ötən il işğaldan azad olunmuş ərazilərdə ilk ali təhsil müəssisəsi - Qarabağ Universiteti fəaliyyətə başladı.

Xankəndi şəhərində yerləşən bu universitetdə hazırda 6 fakültə var, 27 ixtisas üzrə 1154 nəfər tələbə təhsil alır və 160 nəfər çalışır.

Hörmətli deputatlar!

Əsas vəzifələrdən olan ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatı məhsullarının istehsalının artırılması (özünütəminetmə səviyyəsinin yüksəldilməsi) və qiymətlərin stabil saxlanılması məqsədilə müvafiq dəstək tədbirləri həyata keçirilmişdir.

Kənd təsərrüfatı sahəsində dövlət büdcəsinin vəsaiti hesabına məhsul istehsalçılarına subsidiyaların verilməsi və digər güzəştlərin tətbiqi davam etdirilmişdir.

Belə ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 487,4 mln. manat vəsait ayrılmışdır.

Təbii olaraq kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi üçün vacib olan su problemlərinin həlli, torpaq ekosisteminin mühafizəsi Hökumət qarşısında duran mühüm çağırışlardan biridir.

Ölkə ərazisində mövcud olan su ehtiyatlarından səmərəli istifadə edilməsi, fermerlərin suvarma suyu ilə təchizatı, suvarma sahələrinin genişləndirilməsi və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin maliyyə təminatı üçün 540 mln. manat məbləğində vəsait yönəldilmişdir.

Hesabat ilində respublika üzrə kənd təsərrüfatı bitkiləri 1 milyon 453 min hektar sahədə orta hesabla 3,3 dəfə suvarılmışdır.

Cənab Prezident tərəfindən 2024-cü il 10 oktyabr tarixində ölkədə su ehtiyatlarının artırılması, su itkilərinin azaldılması, su sahəsində infrastrukturun və idarəetmənin təkmilləşdirilməsi tədbirlərini nəzərdə tutan "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya" sənədi imzalanmışdır.

Hörmətli deputatlar!

Möhtərəm Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə bütün sahələrdə bərpa-quruculuq işləri uğurla davam edir.

Hesabat ilinin sonunadək işğaldan azad edilmiş ərazilərdə 10,2 mindən çox keçmiş məcburi köçkün (2615 ailə) artıq evlərlə təmin edilmiş və orada yaşayırlar. Ümumilikdə isə 30 min insan bu ərazilərdə yaşamaqla müxtəlif sahələrdə çalışırlar.

Bununla yanaşı, keçmiş qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi məqsədlərinə dövlət büdcəsindən 329 mln. manat vəsait yönəldilmişdir.

İşğaldan azad olunmuş ərazilərin dirçəldilməsi, yaşayış və həyat üçün vacib olan yeni infrastrukturun qurulması prioritet təşkil edir.

Ümumilikdə 2021-2024-cü illərdə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən cəmi 17,6 mlrd. manat vəsait ayrılmışdır, o cümlədən 2024-cü ildə 5 milyard 347 milyon manat.

2025-ci ildə 4 mlrd. manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

Eyni zamanda "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində Naxçıvan ərazisində kənd təsərrüfatı məhsulları istehsalı və emalının inkişafı, elektrik enerjisi istehsalının, ticarətin və sənayenin inkişafı, infrastruktur təminatının yaxşılaşdırılması, nəqliyyat-tranzit potensialının artırılması istiqamətində layihələr həyata keçirilmişdir.

Martın 5-də Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə İğdır-Naxçıvan qaz kəmərinin açılışını xüsusi qeyd etmək istərdim. Mühüm əhəmiyyətə malik bu layihə Naxçıvanın enerji təhlükəsizliyini və təminatını daha da gücləndirəcək.

Hörmətli deputatlar!

Ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, dövlət sərhədlərinin mühafizəsi, ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi, hərbçilərin sosial təminatının və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində kompleks tədbir və layihələrin icrası 2024-cü ildə də prioritet xərclər sırasında birinci olmuşdur.

Bu məqsədə 2024-cü ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə 6 milyard 562 milyon manat vəsait ayrılmışdır (2023-cü illə müqayisədə 707 mln. manat və ya 12% çox).

İşğaldan azad olunmuş ərazilərdə geniş minatəmizləmə işləri aparılmışdır. 2024-cü ildə 62 min hektar, ümumilikdə isə işğaldan azad edilmiş ərazilərdə 180 min hektara yaxın ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənmişdir.

2025-ci ildə 65 min hektardan artıq ərazinin minalardan təmizlənməsi planlaşdırılır.

Hörmətli deputatlar!

Prezident İlham Əliyevin uğurlu enerji siyasətinin nəticəsində son illərdə Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyində rolu daha da güclənmişdir.

Hesabat ilində elektroenergetika sahəsində infrastrukturun modernizasiyası, enerji təhlükəsizliyinin təmin edilməsi, ölkənin enerji sisteminə yeni generasiya güclərinin daxil edilməsi, habelə "yaşıl enerji"nin tətbiqi istiqamətində tədbirlər davam etdirilmişdir.

2024-cü ildə enerji istehsalı 28,4 mlrd. KVts təşkil etmiş, istehlak həcmi isə 24,2 mlrd. KVts-a yüksəlmişdir.

Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə imzalanmış müqavilə çərçivəsində 445 MVt gücündə Biləsuvar, 315 MVt gücündə Neftçala Günəş-Elektrik stansiyalarının və 240 MVt gücündə Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının 2024-cü ildə təməli qoyulmuşdur.

Digər xarici tərəfdaşlarla əməkdaşlıq çərçivəsində hər biri 240 MVt-lıq Şəfəq günəş və Xızı-Abşeron Külək-Elektrik stansiyalarının tikintisi davam etdirilir.

COP29 çərçivəsində Azərbaycanda İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi yaradılmış və enerji sahəsində xarici tərəfdaşlarımızla birgə həyata keçirdiyimiz layihələr üzrə beynəlxalq sazişlər imzalanmışdır.

Cənab Prezidentin tapşırığı ilə Hökumət qarşısında mühüm vəzifələrdən biri də "Cənub qaz dəhlizi" vasitəsilə qaz təchizatının ixrac coğrafiyasının genişləndirilməsidir.

Hazırda bu kəmər vasitəsilə qazımızı alan ölkələrin sayı 12-yə bərabərdir.

Hesabat ili ərzində 29,1 milyon ton neft, 50,6 milyard kubmetr qaz hasil edilmişdir. Neftin 24,4 milyon tonu, qazın isə 25,5 milyard kubmetri ixrac edilmişdir.

2024-cü ildə Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin ötürmə qabiliyyətinin və tranzit potensialının artırılması üçün bir çox layihələr reallaşdırılmışdır.

2024-cü ildə nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 33 mln.ton olmuşdur. Bu yüklərin 57 faizini tranzit yüklər təşkil etmişdir.

Şərq-Qərb istiqamətində Orta dəhlizin əsas komponentlərindən biri olan Bakı-Tbilisi-Qars xətti 2024-cü ilin may ayında tamamlanaraq istismara verilmiş, xəttin illik yükaşırma həcmi 1 mln. tondan 5 mln. tona çatdırılmışdır.

"Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi üzərində yerləşən ölkələr ilə sıx əməkdaşlıq nəticəsində dəhlizin ötürmə qabiliyyətinin artırılması istiqamətində artıq konkret işlərə başlanılmışdır.

Ötən il ölkədə avtomobil və dəmir yollarının, həmçinin yol infrastrukturunun tikintisi, yenidən qurulması və bərpası davam etdirilmişdir.

İl ərzində ölkə üzrə 460 km, o cümlədən regionlarda 376 km respublika və yerli əhəmiyyətli avtomobil yolu tikilmiş və əsaslı təmir olunmuş, 470 km dəmir yolu xətti yenidən qurulmuş, 168 dəmir yolu tuneli və ya körpüsü tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Hörmətli xanım Sədr! Hörmətli deputatlar!

Bu gün cənab Prezidentin rəhbərliyi altında Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Məhz bu prinsiplər (və bu il Konstitusiyanın qəbul olunmasının 30 illiyi) nəzərə alınaraq 28 dekabr 2024-cü il tarixində cənab Prezidentin imzaladığı sərəncamla 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilmişdir.

Dövlətimizin başçısının dediyi kimi, "2024-cü il bütövlükdə qarşıya qoyulmuş bütün məsələlərin öz həllini tapdığı, ölkənin inamla inkişaf etdiyi və beynəlxalq nüfuzunun böyük dərəcədə artdığı, iqtisadiyyatda müsbət inkişafın olduğu və hərbi gücümüzün artdığı, habelə sabitliyin hökm sürdüyü uğurla başa vurulan bir il olmuşdur".

Hörmətli xanım Sədr, hörmətli deputatlar!

Ötən il Hökumətin hesabatı diqqətinizə təqdim edildikdən sonra ümumilikdə deputatlar tərəfindən müxtəlif məsələlər üzrə 151 müraciət daxil olmuşdur, o cümlədən 34-ü humanitar, 31-i iqtisadi, 23-ü sosial, 22-i nəqliyyat və yol infrastrukturu, 15-i tikinti, 14-ü kommunal, 5-i qanunvericilik, 4-ü təhlükəsizlik, 3-ü isə digər sahələrə aid olmuşdur.

Bunlardan 57 müraciət üzrə qaldırılan məsələlər tam, 48 müraciət üzrə isə qismən icra edilmiş və yaxın zamanlarda icranın başa çatdırılması nəzərdə tutulmuşdur. Digər 46 məsələnin icrası istiqamətində işlər hazırda davam etdirilir.

Hörmətli xanım Sədr, hörmətli deputatlar!

Hökumət üzvlərinin adından və öz adımdan Sizləri əmin etmək istərdim ki, bundan sonra da bu müsbət inkişaf dinamikasının saxlanılması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi altında Hökumət böyük əzmlə və şərəflə çalışacaqdır.

2025-ci ildə qanunvericilik sahəsindəki məsuliyyətli fəaliyyətinizdə Sizlərə yeni uğurlar arzu edirəm.

Həmçinin qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə hər birinizi ürəkdən təbrik edir, cansağlığı və xoşbəxtlik arzulayıram.

Fürsətdən istifadə edərək, hörmətli Sahibə xanım, Sizi qarşıdakı əlamətdar yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, qanunvericilik fəaliyyəti sahəsində zəngin təcrübənizlə Siz bundan sonra da Milli Məclisin Sədri vəzifəsini layiqincə yerinə yetirəcəksiniz.

Sizə möhkəm cansağlığı, işlərinizdə daim uğurlar arzulayıram.

Diqqətinizə görə sağ olun!

## Dördüncü Sənaye İnqilabı Azərbaycan Mərkəzinin veb-platforması istifadəyə verilib

**Dünya İqtisadi Forumunun 4Sİ Mərkəzlər Şəbəkəsi ilə birgə əməkdaşlıq çərçivəsində 4SİM-in evsahibliyi etdiyi Dördüncü Sənaye İnqilabı Azərbaycan mərkəzinin yeni veb-saytı (https://www.c4irazerbaijan.org/) istifadəyə verilib.**

AZƏRTAC xəbər verir ki, platformada 4Sİ Azərbaycan mərkəzinin fəaliyyəti, DİF ilə birgə icra etdiyi layihələr və təşəbbüslər barədə məlumat öz əksini tapıb.

Azərbaycanlı istifadəçilər sayt üzərindən 4Sİ Mərkəzlər Şəbəkəsinə üzv olan 1000-ə yaxın tərəfdaşlıq şəbəkəsinə, eyni zamanda 200-dən çox çoxşaxəli təşəbbüsə qoşulmaq imkanı əldə edəcəklər.




Platformaya üzv olmaq istifadəçilərə qlobal ekspert şəbəkəsinə çıxış, icra olunan təşəbbüslərdə iştirak və peşəkarlar və innovatorlarla əlaqə imkanı verəcək.

## İqtisadi Əməkdaşlıq Təşkilatı regionunda gömrük məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb

**İqtisadi Əməkdaşlıq Təşkilatının (İqƏT) Baş katibi Əsəd Məcid Xanın rəhbərlik etdiyi nümayəndə heyəti Dövlət Gömrük Komitəsinin sədri (DGK) Şahin Bağırovla görüşüb.**

DGK-dən AZƏRTAC-a bildirilib ki, görüşdə İqƏT üzv ölkələrin gömrük xidmətləri arasında əlaqələrin daha da gücləndirilməsinin əhəmiyyətindən bəhs edilib, eyni zamanda İqƏT Gömrük Xidmətləri Rəhbərləri Şurasının növbəti iclasında müzakirə olunacaq məsələlər - qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına dair İqƏT məlumat bazasının yaradılması, gömrük işi sahəsində qarşılıqlı inzibati yardım, İqƏT regionunda gömrük məsələlərində potensialın gücləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.



# XII Qlobal Bakı Forumu

*"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"*

## Sülhə gedən yol mövzusu müzakirə olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu martın 14-də işini panel iclaslarla davam etdirib.**



AZƏRTAC xəbər verir ki, Amerikanın Xarici Siyasəti üzrə Milli Komitənin prezidenti və baş icraçı direktoru Syuzan Eliotun moderatorluğu ilə keçirilən "Sülhə gedən yol" adlı panel iclasında əvvəlcə Ukrayna 3000 Fondunun sədri Katerina Yuşşenko Ukrayna-Rusiya müharibəsindən danışıb. Onun sözlərinə görə, bu müharibənin davam etməsi, sadəcə, bölgə üçün deyil, bütün dünya üçün təhlükədir. "Hadisələrə yalnız müəyyən prizmadan baxmaq olmaz. Biz burada, sadəcə, bir şəhərdən və ya dövlətdən danışmırıq, bütövlükdə demokratik dünyadan bəhs edirik", - deyə o vurğulayıb.

Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviç ABŞ Prezidenti Donald Trampın Ukrayna-Rusiya müharibəsinə yanaşma tərzindən danışıb. Onun sözlərinə görə, ABŞ Prezidentinin müharibəyə qarşı çıxması və sülh istəməsi üçün müəyyən səbəblər var. "Donald Trampın insan hüquqlarından narahat olduğunu düşünürəm. O, dünyadakı çoxlu maliyyə tələb edən "bahalı" müharibələri dayandırmaq istəyir və Ukraynaya hərbi dəstəyin artıq xərc olduğunu düşünür. Ancaq sözsüz ki, bu yanaşmanın da müəyyən problemli tərəfləri var. Çünki hazırda yaranan geosiyasi vəziyyət hər kəs üçün ciddi zərbədir. Münaqişələrin həllində diplomatiya tətbiq etməli, beynəlxalq hüquqları qorumalıyıq. Düşünürəm ki, münaqişənin həlli istiqamətində böyük potensial yaratmaq mümkündür. Əsas hədəf isə yeni müharibələrin başlamasına imkan verməməkdir", - deyə sabiq Prezident bildirib.

İsrailin sabiq Baş naziri Ehud Olmert hazırda dünyanın bir çox yerində insan hüquqlarının pozulduğuna diqqət çəkərək deyib: "Bəzi təkliflər və açıqlamaların nəticələrinə baxaraq tərəddüdsüz şəkildə deyə bilərəm ki, mən fələstinlilərin Qəzzadan deportasiyasına qarşıyam. Bu, praktiki baxımdan, eyni zamanda mənəvi cəhətdən doğru deyil. Hesab edirəm ki, İsrail adından danışan bəzi şəxslərin mövqeyi İsrailin əsas mənəvi dəyərlərini əks etdirmir. Biz Qəzzadan insanların deportasiya edilməsinə və Qəzzanın zorla dəyişdirilməsinə qarşıyıq".

İsrailin sabiq xarici işlər naziri, Baş nazirin müavini Tzipi Livni fələstinlilər və israillilər üçün daha yaxşı gələcək yaratmaq yolları axtarmağın vacibliyini vurğulayaraq bildirib: "Hazırkı vəziyyət ürəkaçan olmasa da, müəyyən qədər diplomatik uzlaşma yaratmaq lazımdır. Müzakirələr daha da dərinləşməlidir".

Monteneqronun sabiq Prezidenti Milo Cukanoviç çıxışında qeyd edib ki, Bakı Forumu və burada müzakirə olunan mövzular dünya böhranlarının, geosiyasi dəyişikliklərin mənfi təsirlərinin aradan qaldırılması üçün çıxış yolları tapmaq baxımından əla fürsətdir. "Çünki hazırda geosiyasi vəziyyət, həqiqətən də, şokedicidir. Geosiyasi dəyişikliklər beynəlxalq hüquqları heçə endirir. Bütün müharibələr, ən kiçik qarşıdurmalar belə dünyanın inkişafına təhdiddir. Xaosun davamlı olaraq artması xüsusilə Qərb ölkələrini daha çox narahat edir. Biz dəyərlərin sarsılmasının, siyasətin keyfiyyətinin azalmasının şahidi oluruq. Əgər insan hüquqlarının qorunmasına daha çox diqqət yetirməsək, ciddi fəsadlarla üzləşə bilərik", - deyə o qeyd edib.

Türkiyə Böyük Millət Məclisinin sabiq sədri, Baş nazirin müavini Bülənt Arınç dünyanın bir çox yerində yaranan böhran və müharibələrdən danışıb. Deyib ki, lakin beynəlxalq təşkilatlar bu halların qarşısını almaq istəmirlər. Azərbaycan və Ermənistan arasında yaşanan hadisələr bu məsələyə açıq nümunədir. Fransanın Ermənistana göstərdiyi dəstək davam etdikcə münaqişə də davam edəcək. Çünki Fransa kimi bəzi dünya dövlətləri müharibələrin qarşısını almaq istəmir, əksinə, öz çıxarlarına uyğun addım atmağa çalışırlar. Bu isə dünyanı fəlakətə sürükləyə bilər. BMT Ermənistanın 1990-cı illərdə Azərbaycan torpaqlarını işğal etməsinə, Qarabağda yaşayan mülki insanları öldürməsinə 30 il susdu. Bəzi ölkələr hələ də Xocalı soyqırımını tanımaq istəmir. İşğal dövründə münaqişə ilə bağlı yalnız Minsk qrupu yaradıldı. Ancaq bu işğala səbəb olanlar münaqişəni həll etməkdən qaçdılar. Yalnız 30 ildən sonra Azərbaycan işğal altındakı torpaqlarını öz gücü ilə azad etdi. Hazırda isə Azərbaycan sülh müqaviləsi üçün beynəlxalq təşkilatlara, dünya dövlətlərinə səslənir.

B.Arınç diqqətə çatdırıb ki, bir çox dünya dövləti öz maraqlarına uyğun olmayan halları rədd edir və nəticədə BMT münaqişələrin qarşısını ala bilmir.

BMT Baş Assambleyasının 72-ci Sessiyasının sədri, Slovakiyanın sabiq xarici işlər naziri, Aİ-nin Belqrad-Priştina Dialoqu və digər Qərbi Balkan regional problemləri üzrə keçmiş xüsusi nümayəndəsi Miroslav Layçak yeni dünyada sosial medianın rolundan danışaraq qeyd edib: "Kiberhücumlardan qorunmaq üçün ən son texnologiyalardan istifadə etməliyik. Eyni zamanda informasiyanı daha yaxşı ayırd edə bilmək bacarığımız olmalıdır, çünki sosial media artıq real bir aktora çevrilib. Əgər siz müharibədə qalib gəlmək istəyirsinizsə, sosial mediada məğlub olmamaq barədə düşünməlisiniz".

O bildirib ki, əgər davamlı və ədalətli sülh istəyiriksə, hər şeydən əvvəl bu, beynəlxalq hüquqa əsaslanmalıdır.

ABŞ-nin Birləşmiş Krallıqdakı sabiq səfiri, WPP Plc-nin sabiq sədri Filip Lader geosiyasi vəziyyəti təhlil etməyin, dünyada baş verənləri aydın şəkildə görməyin vacibliyinə diqqət çəkib. O qeyd edib ki, Qlobal Bakı Forumunda müzakirə olunan məsələlər hər kəs üçün birmənalı mühümdür.

Panel mövzu ətrafında müzakirələrlə davam edib.

## "COP29: Belem üçün Sıçrayış - Transformasiyanın sürətləndirilməsi"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu martın 14-də işini panel iclaslarla davam etdirib.**




AZƏRTAC xəbər verir ki, Direktorlar Şurasının üzvü, Fortescue Ltd, EksonMobil Şirkətinin sabiq vitse-prezidenti, İnsan Alverinə Qarşı Qlobal Kampaniyanın rəhbəri Cin Baderşnayderin moderatorluğu ilə keçirilən "COP29: Belem üçün Sıçrayış - Transformasiyanın sürətləndirilməsi" adlı panel iclasına əvvəlcə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının sabiq Baş naziri Boris Conson video formatında qoşularaq çıxış edib. O qeyd edib ki, Qlobal Bakı Forumunda bütün dünyanı narahat edən məsələlər müzakirə olunur. "Hər birimizin öhdəliyi gələcək barədə düşünmək və töhfə verməkdir. Biz daha yaxşı Yer kürəsində yaşamaq istəyiriksə, bunun üçün lazımı işləri də görməliyik",- deyə Boris Conson bildirib.

Kuala-Lumpur şəhərinin meri Maimuna Mohd Şərif sosial həll yollarının gələcəyi dəyişdirə biləcəyinə diqqət çəkib. Onun sözlərinə görə, yanacaq istifadəsinin böyük hissəsi şəhərlərdə müşahidə olunur: "Bu, şəhərləri sosial müzakirələrə daxil etməyin vacibliyini göstərir. Sosial həlləri müzakirə edərkən bunları nəzərə almalıyıq".

BMT Baş Assambleyasının 73-cü Sessiyasının sədri, Ekvadorun sabiq xarici işlər naziri Mariya Fernando Espinoza qeyd edib ki, əsas məqsəd hər bir ölkə üçün detallı yol xəritələri hazırlamaqdır. Onun sözlərinə görə, bu xəritənin düzgün formalaşdırılması 2050-ci ilə qədər həmin ölkəni və onun iqtisadi sektorlarını mövcud vəziyyətdən iqlim neytrallığı və iqlim davamlılığına aparacaq.

Milli Məclisin deputatı, COP29-un İqlim üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai COP29-un uğurlu nəticələri barəsində danışmaqdan qürur duyduğunu vurğulayıb: "Biz COP29-da müxtəlif tərəfləri bir araya gətirdik və razılığa gəlməyin vacibliyini göstərdik.

Azərbaycanın bu sahədə olduqca geniş potensialı var. Külək və günəş enerjilərindən başqa geotermal enerji kimi digər mənbələri də araşdırırıq".

Tonqanın Qanunvericilik Assambleyasının sədri Lord Fakafanua iqlim dəyişikliyinin qarşısının alınması istiqamətində davamlı həll yollarının vacib olduğunu bildirib. İqlim probleminin bütün dünya üçün qlobal olduğuna diqqət çəkən Lord Fakafanua əlavə edib ki, iqlim dəyişikliyinə qarşı mübarizəni gecikdirmək bir növ intihara bənzəyir.

Dünya Ətraf Mühit və Resurs İqtisadçıları Assosiasiyasının prezidenti, BMT SDSN Qlobal İqlim Mərkəzinin sədri, AE4RIA-nın direktoru Foebe Koundouri iqlim dəyişikliyi ilə mübarizənin bütün dünya üçün qlobal məsələ olduğuna diqqət çəkib: "Burada müzakirə edilən mövzular hər kəs üçün çağırışdır. İqlim dəyişikliyi bütün sahələri məhvə doğru aparır. Xüsusilə iqtisadi baxımdan iqlimlə mübarizə üçün ayrılan maliyyə kifayət qədər olmalıdır".

Şanxay Əməkdaşlıq Təşkilatının sabiq Baş katibi, Tacikistanın sabiq xarici işlər naziri Rəşid Əlimov COP29-un uğurlu yekunları ilə bağlı Azərbaycanı təbrik edib. Əlavə edib ki, COP29 bütün dünya üçün iqlimlə mübarizə istiqamətində böyük yeniliklər yaradıb. "İqlim dəyişikliyi ilə mübarizə sahəsində bir çox ölkə öz üzərinə öhdəlik götürsə də, reallıqların çox sürətlə dəyişdiyini bilmək lazımdır. Çünki iqlim dəyişmələrinin tezliyi artıb və bu, fövqəladə hallar yaradır. Hər il Mərkəzi Asiya ölkələri fərqli formada təbii fəlakətlə üzləşirlər. Təəssüf ki, təbii fəlakətlərin sayının artması maliyyələşmədə də boşluqlar yaradır".

"Liberal International" təşkilatının prezidenti, COP21-in vitse-prezidenti, Mərakeş Krallığının iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi, COP29-un İqlim üzrə yüksəksəviyyəli çempionu Hakima El Haite yeni dünyada iqlim dəyişikliyi məsələsinin prioritet olduğunu deyib. Onun sözlərinə görə, dünyanın bir çox yerində hər il 100 minlərlə insan iqlim böhranının qurbanı olur. Əgər qarşısı alınmasa, bu səbəbdən həyatını itirən insanların sayı getdikcə artacaq".

WWF-nin İqlim və Enerji Təcrübəsinin rəhbəri, COP20-nin prezidenti, Perunun sabiq ekologiya naziri Manuel Pulqar Vidal COP tədbirləri çərçivəsində yeni addımlar atmağın vacibliyinə diqqət çəkib. O qeyd edib ki, yeni həll yolları ancaq birgə fəaliyyətlə əldə oluna bilər.

Panel mövzu ətrafında müzakirələrlə davam edib.

## "Sülh-münaqişə sonrası yenidənqurma və regional sabitliyin bərpası"

**Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu ikinci günündə işini panel iclaslarla davam etdirib.**

AZƏRTAC xəbər verir ki, Latviyanın sabiq prezidenti Valdis Zatlersin moderatorluğu ilə keçirilən sessiya "Sülh-münaqişə sonrası yenidənqurma və regional sabitliyin bərpası" mövzusuna həsr edilib. Panel sessiyada Bosniya və Herseqovina prezidentliyinin serb üzvü Zeljka Cvijanovic, Nigeriyanın sabiq prezidenti Olusequn Obasanjo, Moldovanın sabiq baş naziri Nataliya Qavrilita, Qırğızıstanın sabiq baş naziri Comart Otorbayev, Rumıniyanın sabiq xarici işlər naziri Lazar Komanesku, Türkiyənin Avropa İttifaqı işləri üzrə sabiq naziri Volkan Bozkır, Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və Sinqapur Parlamentinin sabiq üzvü Penni Lovun çıxışları dinlənilib.

Bosniya və Herseqovina prezidentliyinin serb üzvü Zeljka Cvijanovic ölkəsindəki vəziyyətdən söz açaraq, Bosniya və Herseqovinanın inkişafı, sabit və firavan ölkə olması üçün atılmalı olan addımlardan bəhs edib.

Nigeriyanın sabiq prezidenti Olusequn Obasanjo çıxışında ölkəsində vətəndaş müharibəsinin getdiyi vaxtları xatırladıb. Bildirib ki, onun töhfəsi ölkəsinin vahidliyini qoruyub saxlamaqdan ibarət olub.

Moldovanın sabiq baş naziri Nataliya Qavrilita Rusiya-Ukrayna müharibəsindən sonra ticarətə dəyən zərərin göz önündə olduğunu vurğulayıb: "Düşünürəm ki, bu münaqişə tezliklə həll olunmalıdır. Əgər müharibənin dayandırılmasını istəyiriksə, prosesdə təhlükəsizlik zəmanəti və beynəlxalq səviyyədə əməl edilən qaydalar əsas şərt olmalıdır. Sözsüz ki, münaqişədən sonra yenidənqurma işləri də böyük rol oynayır. Çünki müharibədən sonra yenidənqurma işlərinə ehtiyac yaranacaq. Bu, özəl sektorların münaqişədən sonra sərmayə yatırması üçün fürsət kimi dəyərləndirilə bilər. Bütün bunların yeganə yolu isə təhlükəsizlik zəmanətidir. Böyük və güclü ölkələr birgə həllərin tapılmasına dəstək olmalıdırlar. Münaqişələr, adətən, böyük güclərin müdaxiləsi səbəbindən yaranır".

Qırğızıstanın sabiq baş naziri Comart Otorbayev Azərbaycanın işğaldan azad etdiyi Qarabağda həyata keçirdiyi yenidənqurma işlərinin çox müfəssəl olduğunu bildirib. Qeyd edib ki, Qarabağda münaqişədən sonrakı inkişafın təmin olunması üçün hazırlanan hərtərəfli plan onu valeh edib: "Mən dünyanın başqa yerlərində belə əhatəli proqram görməmişəm. Azərbaycan məqsədyönlü yanaşma sayəsində öz hədəflərinə çatacaq və bütün dünya üçün həqiqətən də münaqişədən sonrakı bərpa işləri üçün nümunə olacaq".



Rumıniyanın sabiq xarici işlər naziri Lazar Komanesku qeyd edib ki, sülh və bərpa prosesində kifayət qədər zəmanət və əminlik olmalıdır, yoxsa uğur qazana bilməzsən. Onun sözlərinə görə, münaqişənin səbəbləri araşdırılmalıdır. Səbəb aydınlaşmadan onun həll yolları tapıla bilməz: "Burada əsas məsələ planları nəzərdən keçirmək deyil, müzakirələr aparmaq, münaqişənin yaratdığı fəsadları başa düşməkdir. Digər tərəfdən də, bərpa prosesi olmalıdır. Bu öhdəlik isə beynəlxalq və regional təşkilatlara düşür", - deyə Lazar Komanesku bildirib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Qlobal Bakı Forumunun siyasəti formalaşdıranlar üçün mühüm platformaya çevrildiyini bildirib: "Biz hazırda panel sessiyada sülh üçün yenidənqurma proseslərindən danışırıq. Azərbaycan da bir çoxları kimi münaqişənin ağrılarını yaşayır. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa prosesi xalqımızın iradəsini göstərir. Daha dayanıqlı şəhərlər yaratmaq istəyirik ki, sakinlər üçün rahat olsun. Hazırda azad edilmiş ərazilərdə tikinti prosesi gedir. Biz ora həyatları və inamı qaytarırıq. Azərbaycan hökuməti azad edilmiş ərazilərdə dövlət büdcəsindən yenidənqurma işlərinə böyük vəsait ayırıb. Çox geniş yol şəbəkəsi çəkilib, səhiyyə, təhsil müəssisələri yaradılıb. Ötən il Qarabağ Universitetinin açılışı oldu. Növbəti beş il ərzində 7000 tələbənin Qarabağ Universitetində təhsil alması planlaşdırılır. Hazırda 150 kilometrlik dəmir yolu inşa olunur. Biz tikinti prosesində ağıllı texnologiyalardan istifadə edirik. Münaqişədən sonra yenidənqurma yolu çox uzundur. Sülhün qurulması isə regional prosesdir. Çağırışlar imkanlara çevrilməlidir", - deyə komitə sədri diqqətə çatdırıb.

Türkiyənin Avropa İttifaqı işləri üzrə sabiq naziri Volkan Bozkır çıxışında ölkəsinin şəhərlərin yenidən qurulması və bərpası ilə bağlı təcrübəsinin müharibə səbəbindən baş vermədiyini bildirib: "Bizim müxtəlif şəhərlərimizdə 3 zəlzələ baş verib, zəlzələ səbəbindən minlərlə insan həyatını itirib. Ancaq bir çox qonşu ölkələrdə bu problem müharibə səbəbindən yaranır. Yenidənqurma proseslərində ilk olaraq maliyyə nəzərə alınmalıdır. Təəssüf ki, yenidənqurmada ehtiyacı olan dövlətlərə verilən maddi yardımın dörddəbiri vasitəçi təşkilatlara gedir".

O bildirib ki, Türkiyənin yenidənqurma və bərpa təcrübəsi Suriya üçün nümunə olmalıdır. Suriyada qarşıdurmalar səbəbindən infrastruktur olduqca ağır vəziyyətdədir. Ancaq tarixboyu Suriya Yaxın Şərqin əsas dövlətlərindən biri olub. Hazırda Suriya üçün humanitar yardıma ehtiyac var.

"Digər bir nümunə Azərbaycanın Qarabağda apardığı tikinti-quruculuq işləridir. Təəssüf ki, 30 illik işğal dövründə Qarabağ kimi tarixi məkanın mədəni irsinin böyük qismi məhv edilib. Hazırda bərpa prosesi gedir, bununla bağlı Azərbaycanı təbrik etmək istəyirəm. Şəhərlər bərpa olunarkən tarixi abidələr qorunur. Əhalinin Qarabağa qayıtması üçün məktəblər, xəstəxanalar, iş yerləri yaradılır. Azərbaycanın bunun da öhdəsindən gələcəyinə inamım tamdır", - deyə Volkan Bozkır əlavə edib.

Sinqapur Parlamentinin sabiq üzvü Penni Lov isə çıxışında ölkəsinin uğurlu dövlət kimi tanındığını xatırladıb: "Amma biz bu günlərə elə asan gəlməmişik. İkinci Dünya müharibəsindən sonra Sinqapur dağıntılar altında idi. Çətin yollardan keçərək uğurları qazandıq".

Onun sözlərinə görə, sülh olmadığı təqdirdə təkamül mümkün deyil. İnsanlar məmnun olmalıdır, etibar bərpa edilməlidir.

Penni Lov Qarabağda aparılan bərpa işlərindən də danışaraq, bu istiqamətdə atılan addımları çox cəsarətli baxış adlandırıb.

O həmçinin qeyd edib ki, çox xaotik dünyada insanlara şüurlu rəhbərlik lazımdır: "Biz liderlər insanların həyatlarına töhfələr veririk. Hər bir vətəndaşın həyatı bizim verdiyimiz qərarlardan asılıdır", - deyə parlamentin sabiq üzvü diqqətə çatdırıb.

Müzakirələrdən sonra panel sessiya öz işini başa çatdırıb.

# XII Qlobal Bakı Forumu

*"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"*

## Şimali Makedoniya Prezidentinin Azərbaycana səfəri başa çatıb



**Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkovanın Azərbaycana rəsmi səfəri martın 14-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda Şimali Makedoniya Prezidentini Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

## İqtisadi Əməkdaşlıq Təşkilatının Azərbaycanda keçiriləcək Zirvə görüşünə hazırlıq işləri müzakirə edilib

**Martın 14-də xarici işlər naziri Ceyhun Bayramov XII Qlobal Bakı Forumunda iştirak məqsədilə ölkəmizdə səfərdə olan İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Əsəd Məcid Xan ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə İƏT çərçivəsində əməkdaşlıq imkanları, İƏT-in fəaliyyətinin gücləndirilməsi səyləri, təşkilatın ölkəmizdə keçiriləcək Zirvə görüşünə hazırlıq işləri, habelə regional məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov ölkəmizin İqtisadi Əməkdaşlıq Təşkilatının işinə əhəmiyyət verdiyini, onun əhatə etdiyi regionun iqtisadi-ticarət, nəqliyyat-kommunikasiya sahələri üzrə imkanlarla zəngin olduğunu, bu baxımdan bölgənin mövcud potensialından istifadənin vacibliyini qeyd edib.

Görüşdə Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyindən bəhs olunub, İƏT çərçivəsində ətraf mühitlə bağlı təşəbbüslərin irəlilədilməsinin əhəmiyyəti qeyd edilib.

Cari ildə Azərbaycanda keçiriləcək Zirvə görüşünün İqtisadi Əməkdaşlıq Təşkilatının inkişafı, gücləndirilməsi baxımından mühüm rol oynayacağı, bu baxımdan üzv ölkələrin fəal iştirak və töhfələrinin vacibliyi vurğulanıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan-Bolqarıstan strateji tərəfdaşlığının müxtəlif aspektləri müzakirə olunub

**Martın 14-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bolqarıstanın xarici işlər naziri Georq Georqievin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Geniştərkibli görüşdə Azərbaycan-Bolqarıstan strateji tərəfdaşlığının müxtəlif, o cümlədən iqtisadi, ticarət, enerji təhlükəsizliyi, "yaşıl enerji", humanitar, mədəni və digər aspektləri, gələcək planlar, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Görüşdə ölkələrimiz arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin inkişafında mövcud siyasi dialoqun əhəmiyyəti vurğulanıb. İqtisadiyyat, ticarət sahələri üzrə əməkdaşlıq imkanlarının mövcudluğu diqqətə çatdırılıb, Azərbaycan və Bolqarıstan arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın bu xüsusda rolu qeyd edilib.

Enerji sahəsi üzrə həyata keçirilən birgə təşəbbüslərin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib rol oynadığı vurğulanıb, bu istiqamətdə əməkdaşlığın daha da genişləndirilməsinin, xüsusilə "yaşıl enerji" sahəsi üzrə yeni layihələrin icrası üçün geniş perspektivlərin mövcud olduğu bildirilib.

Nazir Ceyhun Bayramov həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə səyləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi barədə məlumatlandırıb.

Sülh müqaviləsinin mətninin razılaşdırılmasına baxmayaraq, Ermənistan tərəfinin Konstitusiyası və digər qanunvericilik aktlarında ölkəmizə qarşı ərazi iddialarına son qoyulmasının, ATƏT-in Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğvinin ən vacib amil olduğu söylənilib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## "Yeni dünya düzənində orta güclər"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu martın 14-də işini panel iclaslarla davam etdirib.**




AZƏRTAC xəbər verir ki, Ekvadorun xarici işlər naziri Mariya Fernando Espinazonun moderatorluğu ilə keçirilən sessiya "Yeni dünya düzənində orta güclər" mövzusuna həsr edilib.

Bolqarıstanın xarici işlər naziri Georq Georqiev bu gün dünyanın geosiyasi təlatümlərlə üzləşdiyini qeyd edərək, İkinci Dünya müharibəsindən sonra dünyada hərbi münaqişələrin indiki qədər çox olmadığını diqqətə çatdırıb. "Bu gün sürətli dəyişikliklər gedir. Sosial bərabərsizlik dərinləşir, siyasi müstəvidə ayrı-seçkilik baş verir", - deyə o əlavə edib.

Xarici işlər naziri baş verən bu hadisələrin qlobal düzənə, sülhə və rifaha təhdid olduğunu bildirərək deyib: "Dünyada qlobal təhlükəsizlik və sabitlik bərqərar olmalıdır. Bolqarıstan həmişə çoxtərəfliliyi dəstəkləyir. Biz addımlarımızı BMT-nin Nizamnaməsi əsasında atırıq. Hazırda bütün dünyada dəyişikliklər gedir. Bolqarıstan hər zaman ümumi dəyərlərə və prinsiplərə dəstək olub. Biz həmçinin Ukraynada dayanıqlı sülhü bərqərar etməliyik".

Onun sözlərinə görə, Avropa İttifaqı enerji şaxələndirilməsində mühüm rol oynayır. "Bolqarıstan öz dayanıqlı səylərini bundan sonra da göstərəcək. Elə etməliyik ki, enerji təchizatımız dayanıqlı olsun, həmçinin iqlimə də zərər vurmasın", - deyə nazir vurğulayıb.

Avstriyanın sabiq xarici işlər naziri Benita Ferrero-Valdner ortamiqyaslı ölkələrin koalisiyasının tez bir zamanda qurulmasının vacibliyini qeyd edib. Onun sözlərinə görə, əgər koalisiya qurulsa, bu, konkret bir dövlətə təsirgöstərmə gücünə malik ola bilər. Həmçinin bunun vasitəsilə regional tərəfdaşlıq da yarana bilər.

"Mən xarici işlər naziri olan dövrdə də bunu demişdim: ortaq sülh, sabitlik kimi əsas təməli təşviq edən siyasəti dəstəkləməliyik və ortamiqyaslı ölkələr bu sahədə böyük dəstək vasitəçisi ola bilər", - deyə Benita Ferrero-Valdner diqqətə çatdırıb.

Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov dəyişən dünyada ənənəvi dəyərlərin elə biz danışdığımız zamanda da pozulduğunu, məhv edildiyini bildirərək, BMT-nin Nizamnaməsinə uyğun gəlməyən halların göründüyünü bildirib. "Azərbaycan uzun illər Ermənistanın hərbi təcavüzündən əziyyət çəkib. Biz Türk Dövlətləri Təşkilatını qurmuşuq və bu təşkilat hər il daha da güclənir. Qoşulmama Hərəkatı aparıcı platforma kimi çıxış edir. Bu hərəkat BMT-dən sonra ikinci böyük təşkilat hesab olunur. Dünyada isə münaqişələr səngimir. Belə bir vaxtda Azərbaycan fəal diplomatik təşəbbüslər nümayiş etdirir", - deyə o diqqətə çatdırıb.

Nazir müavini ölkələrin müstəqil qərar qəbul etmək iqtidarında olmasını vacib amil hesab edib. Bildirib ki, ölkələr milli maraqlarını üstün tutmalıdır. "Həmçinin iqtisadi müstəqillik olmadan özünüzü müdafiə edə bilməzsiniz. Əgər dünyada öz yerinizi müəyyənləşdirmək istəyirsinizsə, birmənalı olaraq güclü iqtisadiyyatınız olmalıdır", - deyə E.Məmmədov qeyd edib.

İslandiyanın sabiq Prezidenti Olafur Raqner Qrimsson dünyanın yüksək templə dəyişdiyini vurğulayaraq, prezidentliyinin sonuncu dövründə Asiyanın böyük bir gücə çevrildiyinin şahidi olduğunu bildirərək deyib: "Biz görürük ki, Çin orta və kiçikmiqyaslı ölkələrlə münasibət qurur. Bu isə düzgün taktikadır".

Bosniya və Herseqovinanın sabiq Prezidenti Mladen İvaniç regional güc haqqında danışaraq bir çox məsələdə əsas rol oynamaq üçün böyük güclərin orta güclərlə ümumi baxışlarının olmasının vacibliyini vurğulayıb. O qeyd edib: "Burada həmçinin etimad da böyük rol oynayır. Biz bir yenilik gətirmək istəyirik və şansımız da var. Lakin bu, istədiyimiz məcrada getməyə də bilər. Təkliflərimiz orta güclər, məsələn, Avropa İttifaqı və Çin tərəfindən dəstəklənə bilər".

Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov İkinci Dünya müharibəsindən sonra Amerikanın yeganə supergüc kimi özünü göstərdiyini qeyd edib. Sabiq Prezident həmçinin Trampın tariflərlə bağlı qərarına orta gücdə olan ölkələrin necə münasibət göstərəcəyinin vacibliyinə də toxunub.

Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətin iqlim dəyişmələrinin, miqrasiya məsələlərinin, kibertəhlükəsizliyin, süni zəkanın bu gün dünyada qarşılaşdığımız əsas problemlərdən biri olduğunu qeyd edib. O diqqətə çatdırıb: "Bizə yenə də sülh lazımdır. Azərbaycanla Ermənistan arasında dayanıqlı sülh hələ də əldə olunmayıb. Kosovo yenə də Serbiya ilə problemli vəziyyətdədir. Orta Şərq problemli vəziyyətdədir. Orta Şərq gələcəyimizi formalaşdıracaq. Bunun üçün kollektiv səy və əməkdaşlıq lazımdır. Hazırda isə bunun əksi baş verir. Trampın siyasəti çoxtərəfliliyə xidmət etmir. Cari problemlərin həllinə gəldikdə onların əllərində böyük imkanlar var. Türkiyə ortaölçülü və regional bir gücdür. Türkiyə qlobal rifahın əldə olunmasında mühüm rol oynayır.

Müasir tarixdə dəyişikliklərin baş verdiyini deyən Maltanın sabiq Baş naziri Cozef Muskat kiçik güclərin azadlığı təşviq etdiyini vurğulayaraq bildirib: "Bu, seysmik bir dəyişiklikdir və ən çox qloballaşma ilə bağlıdır".

Latviyanın sabiq müdafiə naziri Artis Pabriks isə diqqətə çatdırıb ki, kiçik və orta ölkələrin arzusu həmişə ədalətlə bağlı olur. Onlar ədaləti ya beynəlxalq təşkilatlarda, ya da müdaxilə edəcək tərəfdaşlarda axtarırlar və konsepsiya, nəzəriyyədən asılı olmayaraq, istədiklərini edirlər.

Monqolustanın sabiq Prezidenti Nambaryn Enkhbayar öz ölkəsi barədə danışaraq, kiçik dövlətləri açıq və fəal olmağa çağırıb. "Bizə müttəfiqlər lazımdır. Güclü ölkələr tək də hər şeyin öhdəsindən gələ bilərlər. Lakin kiçik ölkələr ləng davrana bilməzlər. Bu, onları ölümə sürükləyə bilər. Kiçik ölkələrin qərar vermək vaxtı gəlib çatıb. Biz islahatların önündə olmalıyıq", - deyə sabiq Prezident əlavə edib.

Panel iclası müzakirələrlə davam edib.

## Beynəlxalq dialoqa töhfə

### Forum Azərbaycanın etibarlı tərəfdaş, sülh naminə təşəbbüslərə evsahibliyi edən ölkə kimi dünyada rolunu gücləndirəcək

**Azərbaycanın evsahibliyi etdiyi növbəti beynəlxalq tədbir bu gün başa çatır. Bakı bu dəfə də dünyanı narahat edən qlobal mövzuların müzakirə edildiyi məkana çevrildi.**

Bakı Dövlət Universitetinin kafedra müdiri Kamilə Əliyeva qəzetimizə açıqlamasında bildriib ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda martın 13-15-də keçirilən XII Qlobal Bakı Forumu beynəlxalq ictimaiyyət tərəfindən olduqca nüfuzlu bir tədbir kimi qəbul edilir. Budəfəki tədbirdə dünyanın bir sıra ölkələrinin prezidentləri, baş nazirləri, parlamentariləri, eləcə də sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların nümayəndələri iştirak edirlər. "Forumun mövzusu son dövrlər dünyada aktual olan bir məsələyə - "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"nə həsr olunub. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dünyada qlobal problemlərin həlli yollarının araşdırılması və bu barədə beynəlxalq ictimaiyyəti məlumatlandıran çox vacib təsisata çevrilib. Məhz bu səbəbdən mərkəzin təşkil etdiyi Qlobal Bakı Forumuna maraq hər il artmaqdadır. Ölkəmizin bu cür nüfuzlu tədbirlərə evsahibliyi etməsi və iştirakçılarının saylarının ildən-ilə artması Azərbaycana olan böyük etimadın, Prezident İlham Əliyevin siyasətinə verilən yüksək qiymət və dəstəyin nümunəsidir. Budəfəki forumda da dünyanın müxtəlif regionlarından 400-ə qədər nüfuzlu siyasi xadim, 50-dən çox fəaliyyətdə olan və sabiq prezident, baş nazir, eləcə də BMT-nin struktur rəhbərləri, nüfuzlu alimlər və



ekspertlər iştirak edirlər", - deyə o əlavə edib.

Ekspert qeyd edib ki, XII Qlobal Bakı Forumunda dünyanı narahat edən problemlər, çoxqütblü dünya nizamı, BMT-nin gələcək paktı, eləcə də postmünaqişə dövründə bərpa-quruculuq işləri kimi vacib mövzular müzakirə olundu. Eyni zamanda "Sülhə gedən yol", "Yeni dünya nizamında orta güclər" mövzularında panellərlə yanaşı, Yaxın Şərq, Ukrayna-Aİ məsələlərinə həsr olunmuş sessiyalar da keçirilir. Ümumilikdə forumda bir çox sahələri əhatə edən qlobal əhəmiyyətli məsələlər də müzakirə edilir.

K.Əliyeva bildirib ki, Prezident İlham Əliyevin uzaqgörən, müdrik siyasəti nəticəsində Azərbaycan bu gün dünyada ən stabil və təhlükəsiz bir dövlətə çevrilib: "Bu gün ölkəmizdəki ictimai-siyasi stabillik, dinamik iqtisadi artım, uğurlu və balanslaşdırılmış xarici siyasət, sosial rifah səviyyəsinin yüksəlməsi beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Azərbaycanın dünyada nüfuzu getdikcə artmaqla yanaşı, ölkəmiz sivilizasiyalararası dialoq və qlobal əməkdaşlığın platformasına çevrilib.

Onun sözlərinə görə, dünyanın bir sıra regionlarından iştirakçıların bu foruma qatılması tədbirin genişmiqyaslı təsirini və beynəlxalq arenada əhəmiyyətini, Azərbaycanın beynəlxalq dialoqa verdiyi töhfələri və multilaterializmə sadiqliyini bir daha nümayiş etdirir. Forum Azərbaycanın qlobal miqyasda etibarlı tərəfdaş, sülh və stabillik naminə təşəbbüslərə evsahibliyi edən bir ölkə kimi rolunu gücləndirəcək. Bu gün Azərbaycan həm də multikultural ölkə kimi tanınır. Bu baxımdan Azərbaycanda olan mövcud vəziyyət dünya dövlətlərinə örnəkdir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, "Multikulturalizm Azərbaycanın dövlət siyasətidir". Forumda multikultural dəyərlərin təbliği də öz əksini tapdı. Bakı bir daha strateji dialoq mərkəzi kimi çıxış etdi, dünyanın diqqəti qlobal problemlərin həll edilməsinə yönəldi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Leyla Əliyeva və Arzu Əliyeva UNEC-də distant Çin dili təhsili alan tələbələrlə görüşüblər

**Martın 14-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) distant Çin dili üzrə tədrisin növbəti mərhələsinin açılışı keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva, Çin Xalq Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili Din Tao, universitetin müəllim və tələbələri iştirak ediblər.

Tədbirin açılışında Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov qonaqları salamlayaraq, tələbələr adından Leyla Əliyeva və Arzu Əliyevaya təşəkkürünü bildirib.

Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Din Tao çıxışında Azərbaycanla Çin arasında münasibətlərin hər sahədə uğurla inkişaf etdiyini vurğulayıb.

"Bu gün Azərbaycan Dövlət İqtisad Universitetində Çin dili distant tədris mərkəzinin açılışında iştirak etməkdən böyük məmnunluq duyuram. Çin Xalq Respublikasının Sədri Si Cinpin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Çin-Azərbaycan əlaqələri sürətlə inkişaf etməkdədir. Heydər Əliyev Fondunun və fondun vitse-prezidenti Leyla Əliyevanın dəstəyi ilə Azərbaycan Dillər Universiteti nəzdində Konfutsi İnstitutu çərçivəsində distant Çin dili kursları 2019-cu ildən etibarən fəaliyyətə başlayıb. Bu günə qədər 500-dən çox tələbə bu kurslarda iştirak edib. Heydər Əliyev Fondu bu 7 il ərzində milli ruhun qorunmasında və iqtisadi-sosial inkişafda əvəzsiz rol oynayıb, Azərbaycanın qürurverici vizit kartına çevrilib. Fond Çinin Azərbaycandakı səfirliyi ilə sıx əməkdaşlıq edir və hər iki xalqın rifahının yaxşılaşdırılmasına yönəlmiş layihələr həyata keçirir. Eyni zamanda iki ölkə arasında strateji əməkdaşlığa mühüm töhfələr verib", - deyə Din Tao əlavə edib.













Sonra o, iştirakçıları Novruz bayramı münasibətilə təbrik edib. Daha sonra tədbirə virtual formatda qoşulan Pekin Xarici Dillər Universitetinin (PXDU) Asiya fakültəsi Azərbaycan dili kafedrasının müdiri, konfransın təşəbbüskarı və sədri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev bildirib ki, Çin dili distant tədris mərkəzi illər əvvəl fəaliyyətə başlayıb. "Leyla Əliyevanın bu gün Çin dili distant kurslarının açılışında şəxsən iştirak etməsi hamı üçün böyük motivasiyadır. Özüm və tələbələrim adından sizə böyük minnətdarlığımı bildirirəm. Əgər 5 il əvvəl kurslara qoşulan tələbələr bu kurslara bir hobbi kimi baxırdısa, bu gün artıq akademik biliklər və karyeralarında inkişaf üçün bu dərsləri hədəf kimi görən tələbələrin sayı artmaqdadır. Azərbaycanda Çin dili, Çində isə Azərbaycan dilinə maraq ildən-ilə artır", - deyə o əlavə edib.

Çıxışlardan sonra Leyla Əliyeva və Arzu Əliyeva UNEC-in kitabxanasında təqdim edilən sərgi ilə tanış olublar. Həmçinin burada təqdim olunan Çin mədəniyyətinin nümunələrinə baxıblar.

Sonda tələbələr Leyla Əliyeva və Arzu Əliyevaya xoş arzularını ifadə edib və təşəkkürlərini çatdırıblar.

Qeyd edək ki, UNEC-də Çin dili üzrə distant tədris Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2019-cu ildən təşkil edilir.

Heydər Əliyev Fondu, UNEC, Azərbaycan Dillər Universitetinin (ADU) nəzdindəki Konfutsi İnstitutu və Pekin Xarici Dillər Universitetinin birgə tərəfdaşlığı ilə keçirilən tədris dil səviyyəsi başlanğıc və orta olmaqla hər mərhələ üzrə 3 ay davam edir.

Tədris zamanı Çində nəşr olunmuş dərsliklərdən istifadə edilir. Hər bir dərsin tərkib hissəsinə tələffüz qaydaları, yeni sözlər, mətn, qrammatika, dialoqlar, oxu təlimləri, tərcümə, heroqliflər üzrə çalışmalar daxildir. Bundan əlavə, mövzuya uyğun olaraq, tələbələrə Çin mədəniyyəti haqqında da geniş məlumatlar verilir.

Hazırda dərs proqramı digər illərlə müqayisədə daha da optimallaşdırılıb. Yeni dərs proqramı tamamilə HSK (Çin dili səviyyə imtahanı) yönümlüdür. Distant dərsləri uğurla bitirən tələbələr beynəlxalq Çin dili səviyyə imtahanında iştirak edə bilərlər.

# Gənc Diplomatlar üçün Xarici Siyasət Proqramının açılış mərasimi baş tutub

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin (XİN) və ADA Universitetinin birgə əməkdaşlığı çərçivəsində mütəmadi olaraq təşkil olunan Xarici Siyasət Proqramının açılış mərasimi baş tutub.**

AZƏRTAC xəbər verir ki, bu barədə XİN-dən məlumat verilib. Bildirilib ki, açılış mərasimdə XİN-də əmək fəaliyyətinə yeni başlamış 58 gənc diplomat iştirak edib. ADA Universitetinin builki Xarici Siyasət Proqramının məqsədi gənc diplomatların nəzəri və praktiki biliklərini təkmilləşdirmək, gənc diplomatları ikitərəfli və çoxtərəfli diplomatiya üçün hazırlamaq, habelə onların müasir beynəlxalq arenada peşəkar fəaliyyətini dəstəkləməkdir. Açılış mərasimində çıxış edən ADA Universitetinin Akademik işlər üzrə prorektoru Elkin Nurməmmədov və onun müşaviri, İxtisasartırma Proqramının rəhbəri Aygün Hacıyeva proqram iştirakçılarını salamlayaraq, onlara diplomatik fəaliyyətlərində uğur arzulayıblar. Çıxışçılar indiyə qədər 2 minədək gənc, orta və yüksəkrütbəli diplomatın, həmçinin otuzadək dövlət qurumunu təmsil edən dövlət qulluqçusunun Xarici Siyasət Proqramından faydalandığını diqqətə çatdırıblar. Eyni zamanda İxtisasartırma



Proqramının bu günədək 108 ölkədən 500-ə yaxın xarici diplomat üçün də xüsusi proqramlar təşkil etdiyi, onların ölkəmizi daha yaxından tanımalarına fayda verdiyi bildirilib. Açılış mərasimində çıxış edən XİN-in Kadrlar idarəsinin rəisi Raman Məmmədov nitqində gənc diplomatları təlimçilər tərəfindən veriləcək bilik və bacarıqlardan səmərəli şəkildə faydalanmağa çağırıb. Bu proqramın onların qarşılıqlı təcrübə mübadiləsi üçün əlverişli imkan olduğu bildirilib. Tədbir zamanı proqramın məzmunu, əsas məqsədləri və proqramdan gözləntilər barədə ətraflı məlumat verilib. Sözügedən kursların ADA Universitetinin professor-müəllim heyəti, XİN, beyin mərkəzləri, beynəlxalq təşkilatların yüksəksəviyyəli nümayəndələri də daxil olmaqla 30-a yaxın təlimçi tərəfindən tədris olunacağı vurğulanıb. Bu intensiv kurs həm nəzəri, həm də praktiki sessiyaları əhatə edəcək. Nəzəri sessiyalarda beynəlxalq siyasət və hüquq, xarici siyasət, təhlükəsizlik, iqtisadiyyat, enerji məsələləri və mədəni-humanitar əlaqələr müzakirə olunacaq. Bacarıqyönümlü sessiyalarda isə netvörkinq, mədəniyyətlərarası kommunikasiya və digər mövzulara toxunulacaq. Proqram cari ilin may ayında yekunlaşacaq. Sonda həyata keçiriləcək qiymətləndirilmə prosesindən uğurla keçən diplomatlara sertifikatlar təqdim ediləcək.

# "Sabahın alimləri" XIV Respublika layihə müsabiqəsinin qalibləri mükafatlandırılıb

**Martın 14-də "Sabahın alimləri" XIV Respublika layihə müsabiqəsinin mükafatlandırma mərasimi keçirilib. Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlanıb. Sonra müsabiqə çərçivəsində hazırlanan videoçarx nümayiş olunub.**



Bu barədə AZƏRTAC-a Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, müasir elmdə uğur qazanmaq üçün təkcə bilik kifayət etmir, eyni zamanda, müxtəlif bacarıqlara və istedada sahib olmaq vacibdir. Şagirdlərin bu istedadlarını vaxtında aşkar edib dəyərləndirmək və inkişaf etdirmək də olduqca önəmlidir. Məhz bu məqsədlə Elm və Təhsil Nazirliyi tərəfindən intellektual oyunlar, fənn olimpiadaları, "Sabahın alimləri" müsabiqəsi və STEAM layihəsi təşkil edilir.

Nazir müavini şagirdlərin müsabiqə çərçivəsində hazırladıqları innovativ layihələrdən söz açaraq qeyd edib ki, bu layihələr bugünkü şagirdlərin gələcəkdə müxtəlif tədqiqat sahələrində fəaliyyət göstərəcək alimlər olacaqlarını deməyə əsas verir. Bu gün dinamizm, sosial və elmi-texniki inkişafın uğuru yalnız yaradıcı şəxslərin yaradıcılıq fəaliyyətinin səmərəliliyindən asılıdır.

Firudin Qurbanov çıxışının sonunda qaliblərin hər birini təbrik edib.

Çıxış edən Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru akademik Rasim Əliquliyev son illər ölkəmizdə gənclərin hərtərəfli biliklərə yiyələnməsi, onların elmi potensialının üzə çıxarılması istiqamətində həyata keçirilmiş layihələrdən danışıb.

Tədbirdə 1, 2 və 3-cü yerlərin qaliblərinə diplom və medallar, fərqlənən şagirdlərə xüsusi mükafatlar, iştirakçıların hər birinə isə sertifikatlar təqdim olunub. Qalib layihələrin elmi rəhbərlərinə isə təşəkkürnamələr veriləcək.

Qeyd edək ki, müsabiqə Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı və tərəfdaşlığı ilə keçirilib.

Müsabiqənin keçirilməsində məqsəd elmi-tədqiqat və yaradıcılıq potensialı olan istedadlı şagirdləri aşkara çıxarmaq, onlarda tənqidi düşünmə, problem həlletmə, vaxtın idarə olunması, natiqlik və ünsiyyət kimi bacarıqları inkişaf etdirmək, ali təhsil müəssisələri və elmi təşkilatlarla ümumi təhsil müəssisələri arasında əlaqələri genişləndirmək, həmçinin şagirdlərin oxşar maraqları olan həmyaşıdları ilə şəbəkələşməsini təmin etməkdir.

# *Arayik HARUTYUNYAN:* "Qondarma rejimdə "bank sistemi" Ermənistan Mərkəzi Bankı tərəfindən idarə olunurdu"

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası martın 14-də davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmənin baxış iclasında təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə prosesində təqsirləndirilən şəxslərə cinayətkar birliyin tərkibində funksiya və vəzifələr, vaxtilə Ermənistan tərəfindən işğal edilmiş Qarabağda hakimiyyətin zorla ələ keçirilməsi, o cümlədən Ermənistanın rəhbərliyi və nəzarəti altında fəaliyyət göstərmiş qondarma rejimdə "inzibati ərazi bölgüsü", müxtəlif vəzifələrə təyinatların aparılması və vəzifədən çıxarma, dövriyyədə olan pul vahidi, xarici və daxili bank əməliyyatlarının həyata keçirilməsi, müxtəlif malların idxal və ixracı, qondarma rejimin qanunsuz iqtisadi fəaliyyəti nəticəsində istehsal olunan məhsulların üzərində istehsal yeri kimi hansı ölkənin adının qeyd edilməsi, gömrük məsələləri, qondarma rejimin fəaliyyət göstərdiyi ərazilərə səfərə gedən şəxslərə icazə və ya vizaların verilməsi, erməni sakinlərin hansı ölkənin vətəndaşları olmaları, onlara şəxsiyyəti təsdiqləyən sənədin hansı qurum tərəfindən verilməsi, "büdcəyə" vəsaitlərin toplanma qaydası, həmin proseslərdə Ermənistan dövlətinin, onun dövlət qurumlarının, silahlı qüvvələrinin, yüksəkvəzifəli şəxslərinin rolu və iştirakına dair suallar ünvanlanıb.

Əvvəlcə təqsirləndirilən şəxs Bako Sahakyana dövlət ittihamını müdafiə edən prokurorlar tərəfindən suallar verilib.

Bako Sahakyan dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavab verərkən qondarma rejimin "büdcəsi"nin Ermənistandan daxil olan vəsaitlər hesabına formalaşdırıldığını etiraf edib. O, bu vəsaitlərin hər il verildiyini bildirərək deyib: "Büdcə" Ermənistan tərəfindən verilən "kreditlər" hesabına, həmçinin fərdi gəlirlərdən formalaşırdı. Bundan başqa, hər il müəyyən pul toplanılması həyata keçirilirdi, dünyanın bir çox ölkəsindən kim istəyərdisə, xeyriyyə fondları vasitəsilə kömək edə bilərdi".

Təqsirləndirilən şəxs Ermənistanın ayırdığı vəsaitlərin "faizsiz kreditlər" adlandırılmasına baxmayaraq, həmin pulların geriyə qaytarılmadığını da etiraf edərək bildirib: "Biz 1991-ci ildən 2023-cü ilədək Ermənistandan göndərilmiş heç bir məbləği qaytarmamışıq, çünki bu, məntiqsiz bir şey idi. Ona görə ki, bizim şəxsi resurslarımız ehtiyaclarımızı qarşılamağa qadir deyildi".

O etiraf edib ki, Azərbaycanın vaxtilə işğal altında olmuş suveren ərazilərində istehsal edilən məhsullar xarici ölkələrə "Ermənistan məhsulları" adı altında satılıb.

B.Sahakyan işğal dövründə Ermənistan vətəndaşlarının Qarabağda, Qarabağda yaşayan erməni sakinlərin isə Ermənistanda həmin ölkənin vətəndaşlarının statusu ilə daşınmaz əmlak ala bildiklərini, digər hüquqlardan da istifadə etdiklərini bildirib və deyib: "Ermənistan bizim üçün xarici ölkə hesab edilmirdi".

O, sualları cavablandırarkən bildirib ki, Ermənistan silahlı qüvvələrinə tabe olan qondarma rejimin "ordusu" onun ən böyük silahlı birləşməsi idi.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran B.Sahakyan qeyd edib ki, qondarma rejimin "müdafiə naziri", "Silahlı qüvvələrin baş qərargah rəisi" və bu kimi digər yüksək vəzifələrə təyinat Ermənistan Müdafiə Nazirliyinin təqdimatı əsasında həmin ölkənin prezidenti tərəfindən həyata keçirilib. O, bu işlərə qarışmadığını deyib və bildirib: "Biz bunu gizlətmirdik".

Təqsirləndirilən şəxs etiraf edib ki, qondarma rejimin "hərbi qurum"ları ilə bağlı bütün bölgü və idarəetmə məsələləri Ermənistan Respublikası tərəfindən aparılıb.

B.Sahakyan deyib ki, işğal edilmiş ərazilərə silah-sursat Ermənistan Respublikasından gətirilirdi.

O, işğal altında olan ərazilərdə hərbçilərin maaşının necə verilməsi barədə sualın cavabında deyib: "Büdcə" və "ordu" ilə bağlı bizim belə bir xərclərimiz yox idi. Bütün hərbi xərclər, verilən əməkhaqları, əsgərlərin təminatı birbaşa Ermənistan büdcəsindən ayrılırdı. Bunun bizə ayrılan "kreditlərə" aidiyyəti yox idi".

Bako Sahakyan dövlət ittihamçısı Fuad Musayevin suallarına cavab verərkən bildirib ki, qondarma rejimin "müdafiə naziri" ona deyil, Ermənistanın hərbi-siyasi rəhbərliyinə məruzə etdiyi üçün Qarabağdakı hərbçilərin sayını dəqiq bilmir. O, buna baxmayaraq, qondarma rejimin "müdafiə naziri" ilə münasibətləri yaxşı olduğuna görə hərbçilərin qeyri-rəsmi sayını öyrəndiyini bildirib: "Müdafiə naziri" Qarabağın "prezident"inə rəsmi şəkildə məruzə etmirdi. Amma bizim özümüzün münasibətlərimiz var idi, bu da təbiidir. Çünki "müdafiə ordusu" Qarabağın təhlükəsizliyini təmin edirdi. Mən bilməli idim ki, bizim sayımız nə qədərdir".

Təqsirləndirilən şəxs Azərbaycanın işğal altında olan ərazilərində keçirilən hərbi təlimlərin planının Ermənistan silahlı qüvvələrinin rəhbərliyi tərəfindən təsdiqləndiyini bildirib.

Bako Sahakyan işğal olunmuş ərazilərdə "İskəndər M", "Toçka U" və digər dağıdıcı silahlar barədə də baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandırıb.

O, sadalanan silahların işğal edilmiş ərazilərdə olmadığını bildirərək deyib: "Bu silahlar Qarabağ ərazisində mövcud olmayıb. "Prezident" olduğum müddətdə (2007-2020-ci illərdə) bu silahların Qarabağa gətirilmədiyini dəqiq deyə bilərəm".

Təqsirləndirilən şəxs həmçinin qeyd edib: "Müdafiə qurumları"nın "rəhbəri" qondarma rejimin "prezident"inə məruzə etməyə borclu olmasa da, bu silahların əhəmiyyətini nəzərə alaraq, onlar bizə verilsəydi, "ordu komandiri" bu barədə mənə məlumat verməli idi".

B.Sahakyan qeyd olunan silahlardan istifadə edilməklə Azərbaycanın mülki obyektlərinin atəşə tutulması, bunun kimin göstərişi ilə həyata keçirilməsi barədə isə bunları bildirib: "Deyə bilərəm ki, həmin artilleriya atəşləri Qarabağ ərazisindən olmayıb".

Təqsirləndirilən şəxs Arayik Harutyunyan dövlət ittihamını müdafiə edən baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandırarkən deyib ki, Azərbaycanın işğal altında olan ərazilərində istehsal edilmiş məhsullar Ermənistan vasitəsilə xaricə satılarkən üzərində "Made in Armenia" sözləri yazılıb. O əlavə edib: "Çünki Qarabağın "ixrac" etməyə hüququ, imkanları yox idi. "İxrac olunan" növlər çox deyildi. Yalnız bir neçə şirkət idi ki, "ixrac"la məşğul olurdu. Bu şirkətlər Ermənistanda qeydiyyatdan keçirdi, filiallar, qardaş şirkətlər kimi. Çünki sertifikatlaşdırma və digər sənədləşdirmə işləri üçün yeganə yol bu idi. Son mərhələdə bu məhsul Ermənistandan ixrac olunurdu. Yaxud Ermənistanda qeydiyyatdan keçmiş hansısa şirkətə köçürülürdü, həmin şirkət vasitəsilə emal edilirdi".

Təqsirləndirilən şəxs deyib ki, qondarma rejimdə "bank sistemi" Ermənistan Mərkəzi Bankı tərəfindən idarə olunurdu. Qarabağın pul vahidi və bank sistemi yox idi.

A.Harutyunyan söyləyib ki, işğal dövründə Ermənistan vətəndaşları qondarma rejimdə nazir təyin edilə bilərdilər. O, qondarma rejimin "ordu"sunun maliyyələşdirilməsindən də danışaraq bildirib: "Ordu"nun maliyyələşdirilməsi birmənalı olaraq Ermənistandan idi. "Ordu" Ermənistan Müdafiə Nazirliyinin büdcəsindən maliyyələşirdi. Bundan başqa, bütün vəzifələrin təyinatı Ermənistan Müdafiə Nazirliyinin yüksək vəzifədə oturan şəxsləri tərəfindən həyata keçirilirdi. "Müdafiə ordusu"nun "komandiri", eyni zamanda "müdafiə naziri" adlandırılırdı. Biz təyinatla bağlı məxfi qərar aldığımız zaman yayımlayırdıq ki, guya bu əmr bizim tərəfimizdən verilib. Əmrin yerinə yetirilməsi qaydasını isə daha yaxşı Levon Mnatsakanyan deyə bilər. Biz yalnız deyirdik ki, "müdafiə naziri" təyin etmişik.

"Qarabağ ordusu" Ermənistan silahlı qüvvələrinin bir bölməsi hesab olunurdu. Təsəvvürümə görə, yuxarıdan-aşağı - baş qərargah rəisindən aşağıya doğru qərarlar verilirdi. Bunlar hamısı məxfi prosedurlarla aparılırdı. Onlarla tanış deyiləm. Düşünürəm ki, bunlara daha dəqiq cavabı Mnatsakanyan verəcək. Əsas hərbi xadim Ermənistanın baş qərargah rəisi idi, həm müharibə, həm də sülh şəraitində. Müdafiə nazirinin də Ermənistanda bir neçə funksiyaları var. Bilmirəm kimin hansı səlahiyyətləri var, amma əsas cavabdeh baş qərargah rəisi idi. Nəinki silah-sursat, bütün təchizat Ermənistan Müdafiə Nazirliyi tərəfindən həyata keçirilirdi, yəni hər şey".

O, Azərbaycanın işğal altında olan ərazilərindəki ermənıəsilli hərbçilərin sayını dəqiq bilmədiyini, lakin onların çoxunun Ermənistan hərbçiləri olduğunu bildirib.

A.Harutyunyan qondarma rejimin "prezidenti" seçilməsindən də danışıb: "Bu "vəzifə"ni 2020-ci il mayın sonunda təhvil almışam. Koronavirus pandemiyasının ən aktiv mərhələsi idi. İyun ayında Ermənistanda Təhlükəsizlik Şurasının birgə iclası idi. Orada Ermənistan Respublikasının prezidenti, baş naziri ilə görüşmüşəm, siyasi vəziyyətdən, yəni danışıqlar prosesindən söhbət gedib. Danışıqlardan başa düşdüm ki, Ermənistan ordusu uzunmüddətli döyüş əməliyyatlarına hazır deyil. Avqustun sonunda Ermənistan Respublikasının baş naziri Qarabağa gələndə onu qəbul etdim".

O, dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandırarkən Gəncə şəhərində mülki infrastrukturun və dinc əhalinin raket atəşinə tutulmasından da danışıb. A.Harutyunyan bu barədə Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Onik Qasparyandan məlumat aldığını bildirərək deyib: "Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Onik Qasparyan idi. Mənim baş qərargah rəisi ilə söhbətim olub. Birinci mərhələdə mənə Gəncədə yerləşən hava limanının vurulması barədə məlumat verib. Daha sonra isə mənim onunla heç bir təmasım olmayıb".

A.Harutyunyan hazırda Azərbaycanda mühakimə olunan Ermənistan Respublikasının vətəndaşı Ruben Vardanyanla bağlı da danışıb, onu çox yaxşı tanıdığını bildirib: "Ruben Vardanyanı 2005-ci ildən tanıyıram. Onunla dəfələrlə görüşmüşəm. Sonuncu görüş 2023-cü ilin avqust, sentyabr, oktyabr aylarında olmalı idi. İki ay yarım - üç ay müddətində "dövlət naziri" olub.

Məhkəmənin növbəti iclası martın 17-nə təyin olunub. Növbəti proses təqsirləndirilən şəxslərə sualların verilməsi ilə davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırım), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Baş Prokurorluqda aktual hüquqi problemlərin həlli üçün yeni təkliflər müzakirə edilib




**Martın 13-də hüquq üzrə tanınmış simalarla təmsil olunan Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib.**

İclası açıq elan edən baş prokuror Kamran Əliyev vurğulayıb ki, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrin təkmilləşdirilməsinə istiqamətləndirilmiş genişmiqyaslı islahatedici tədbirlər ölkə qanunvericiliyinin müasir tələblərə cavab verməsini mütləq edir.

Çıxışda qeyd edilib ki, ilk növbədə hüquq-mühafizə sahəsində fəaliyyət göstərən dövlət məmurları təcrübədə rastlaşdıqları hüquqi problemləri dərindən təhlil etməli, onların optimal həlli yollarını müəyyən etməli və hüquq ictimaiyyətinin müzakirəsinə çıxarmalıdırlar.

İclasda peşə səhlənkarlığına görə cinayət məsuliyyətinin müəyyən edilməsi, vergi və "qara mühasibatlıq" sənədlərinin ekspertizası zamanı yaranan fikir ayrılıqları və ziddiyyətlər, habelə milli və xarici valyutadan istifadə etməklə törədilən müxtəlif kateqoriya cinayətlər üzrə pul vəsaitlərinin cinayətin alət və vasitəsi kimi qiymətləndirilməsində olan problemlər müzakirəyə çıxarılıb.

İclas çərçivəsində Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən hazırlanmış "Milli və beynəlxalq qanunvericiliyin kontekstində: etik davranış qaydaları və şəxsi həyat anlayışı" adlı məcmuənin, eləcə də Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi ilə birgə hazırlanmış "Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə əməlinin cinayət-hüquqi xarakteristikası və istintaq təcrübəsi" adlı metodiki vəsaitin təqdimatları keçirilib.

Baş prokuror yanında Elmi-Məsləhət Şurasının iclasında qaldırılan məsələlərə dair ətraflı müzakirələr aparılıb, Şura üzvlərinin rəy və təklifləri dinlənilib, təqdimatları keçirilmiş vəsaitlər maraqla qarşılanıb.

# Konstitusiya Məhkəməsi ilə Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb



**Martın 14-də Konstitusiya Məhkəməsində Prezident yanında Dövlət İdarəçilik Akademiyası və Konstitusiya Məhkəməsinin birgə təşkil etdiyi "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin innovativ dövlət idarəçiliyi siyasəti: suverenliyə aparan yol" mövzusunda seminar keçirilib.**

Bu barədə Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək bildirib ki, Konstitusiya Məhkəməsi ilə ali təhsil və elm müəssisələri arasında daim sıx əməkdaşlıq əlaqələri olub. Ona görə də gənclər arasında hüquqi biliklərin artırılması və onların dövlətin Əsas Qanununda təsbit edilmiş dəyər və prinsiplər haqqında məlumatlandırılmasına böyük diqqət yetirilir.

Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov çıxışında qeyd edib ki, Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan dinamik və sürətlə inkişaf edərək müasir iqtisadi və sosial cəhətdən dünyanın qabaqcıl ölkələri sırasında yer tutur. Gənclər bu siyasətin önündə getməli və ölkəmizdə həyata keçirilən quruculuq işlərində aparıcı qüvvə olmalıdırlar.

Tədbirdə Konstitusiya Məhkəməsi və Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb.

İmzalanma mərasimindən sonra çıxış edən Fərhad Abdullayev və Urxan Ələkbərov Memorandumun iki qurum arasında hüquqi əməkdaşlıq əlaqələrinin genişləndiriləcəyini bildiriblər.

# "Biznesə daxilolma" işçi qrupunun iclası keçirilib

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) rəhbərlik etdiyi "Biznesə daxilolma" işçi qrupunun iclası keçirilib.**

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tədbirdə işçi qrup üzvləri və onun fəaliyyətinə bilavasitə cəlb olunmuş məsul şəxslər, hüquq və konsaltinq şirkətlərinin nümayəndələri iştirak ediblər.

İşçi qrupun rəhbəri, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva gündəlikdə olan məsələləri diqqətə çatdırıb.

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri, Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev komissiya tərəfindən "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2025-ci il üzrə Yol Xəritəsi"nin təsdiq edildiyini diqqətə çatdırıb. Bildirib ki, Dünya Bankı Qrupunun sentyabr ayında nəşr olunacaq hesabatına Azərbaycanın da daxil ediləcəyi gözlənilir.

Sonra DVX-nin rəis müavini Samirə Musayeva Dünya Bankı Qrupu tərəfindən adıçəkilən indikatorla bağlı ünvanlanmış sorğu anketi ilə əlaqədar təqdimatla çıxış edib. Ölkəmizdə biznesin təsis edilməsi ilə bağlı bir çox müsbət nəticələr əldə olunduğu tədbir iştirakçılarının nəzərinə çatdırılıb.

İclasda 2025-ci il üzrə müvafiq Yol Xəritəsi ilə bağlı qarşıda duran vəzifələr barədə müzakirələr, biznesin təsis edilməsi proseslərinin daha da yaxşılaşdırılması ətrafında fikir mübadiləsi aparılıb. Yerli və xarici investisiyalı MMC-lərin elektron dövlət qeydiyyatı ilə bağlı yeniliklər və biznesə daxilolma sahəsində həyata keçirilmiş islahatlara dair təkliflər səsləndirilib. Qərara alınıb ki, yaranmış suallarla əlaqədar hüquq-konsaltinq şirkətləri, özəl sektor və müvafiq dövlət qurumları cəlb edilməklə ayrıca tematik görüşlər təşkil edilsin.

# "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik və bəzi qərarlarının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 71** **Bakı şəhəri, 12 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2008-ci il 4 iyul tarixli 792 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanunun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2300 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 197 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 328, № 9, maddə 1090; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 fevral tarixli 19 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə"nin 1.3-cü bəndində aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci abzasın dördüncü cümləsi aşağıdakı redaksiyada verilsin və həmin abzasa aşağıdakı məzmunda beşinci və altıncı cümlələr əlavə edilsin:

"Xüsusi hazırlığın təşkili və keçirilməsi Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə həmin Nazirliyin yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təmin edilir. Xüsusi hazırlığın nəticələrinə dair daşıyıcılarla və ya sürücülərlə bağlanılmış müqavilə əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmış qiymətləndirməyə əsasən 7 (yeddi) il müddətində etibarlı olan, forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş sənəd verilir. Qiymətləndirmənin aparılmasına görə haqqın məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.";

1.2. ikinci abzasın ikinci cümləsi aşağıdakı redaksiyada verilsin və həmin abzasa aşağıdakı məzmunda üçüncü və dördüncü cümlələr əlavə edilsin:

"Hazırlıq Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təşkil edilir və həyata keçirilir. Tədrisin nəticələrinə dair operatorla və ya sürücülərlə (məsul şəxslərlə) bağlanılmış müqavilə əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmış qiymətləndirməyə əsasən operatorun məsul şəxsinə və ya sürücüyə 7 (yeddi) il müddətində etibarlı olan, forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş sənəd verilir. Hazırlığın keçirilməsi və qiymətləndirmənin aparılması qaydası, habelə qiymətləndirmənin aparılmasına görə haqqın məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 fevral tarixli

22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 145 (Cild I); 2024, № 1, maddə 111, 5 (II kitab), maddə 612; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 30 yanvar tarixli 16 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Avtovağzal və avtostansiya haqqında Əsasnamə"nin 2.1-ci bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Əhalisinin sayı üç yüz min nəfərədək olan yaşayış məntəqələrində bir, əhalisinin sayı üç yüz min nəfərdən çox olan yaşayış məntəqələrində iki və ya daha çox avtovağzal (avtostansiya) təşkil oluna bilər.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 aprel tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 270 (Cild I); 2024, № 1, maddə 111) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Bu Qaydanın 1.2-2-ci bəndində qeyd edilən hal istisna olmaqla Azərbaycan Respublikasının ərazisində şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə müntəzəm sərnişin daşımalarının (bundan sonra - müntəzəm sərnişin daşımaları) dövlət sifarişçisi qismində müsabiqə təşkilatçısı Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyidir.";

3.2. 1.2-1-ci bənddə "sürücüsü (sürücüləri)" sözləri "operatorun sürücüləri" sözləri ilə əvəz edilsin;

3.3. aşağıdakı məzmunda 1.2-2-ci bənd əlavə edilsin:

"1.2-2. Şuşa şəhərinin inzibati ərazisində şəhərdaxili müntəzəm sərnişin daşımalarının dövlət sifarişçisi qismində müsabiqə təşkilatçısı Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsidir.";

3.4. 1.8-ci bənddə "müvafiq müqavilə yalnız onun müsabiqə tələblərinə uyğun olduğu təqdirdə" sözləri "müqavilə "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin;

3.5. aşağıdakı məzmunda 1.10-cu və 1.11-ci bəndlər əlavə edilsin:

"1.10. Müsabiqədə iştiraka görə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdə ödəniş edilir.

1.11. Müsabiqədə iştirak etmək istəyən şəxslər Qanunun 15.5-ci maddəsində və bu Qaydada qeyd olunan tələblərə cavab verməlidirlər.";

3.6. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.2. Müsabiqədə iştirak etmək üçün mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, istənilən hüquqi şəxs və fərdi sahibkar müraciət edə bilər.";

3.7. 2.3-cü bəndə "ərizə ilə" sözlərindən sonra "(Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 14.3-cü maddəsi ilə müəyyən edilmiş sənədləri əlavə etməklə)" sözləri əlavə edilsin;

3.8. aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. Qanunun 14.5-ci maddəsinə uyğun olaraq Qanunun 14.3-cü maddəsində qeyd olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar müraciət edən şəxsdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edən şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən şəxs tərəfindən təmin edilir.";

3.9. 2.4.5-ci yarımbənddən "üzrə" sözündən sonra "sərnişindaşıma xidmətlərinin göstərilməsinə dair" sözləri çıxarılsın;

3.10. 4.6-cı bəndin dördüncü cümləsində "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin" sözləri "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin, Şuşa şəhəri ərazisində isə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin" sözləri ilə əvəz edilsin;

3.11. həmin Qaydaya 1 nömrəli əlavədə "Sifarişçi" sözündən sonra "(Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti)" sözləri "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Şuşa şəhəri ərazisində isə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" sözləri ilə əvəz edilsin;

3.12. həmin Qaydaya 2 nömrəli əlavəyə "ərizə" sözündən sonra "(Qanunun 14.3-cü maddəsi ilə müəyyən edilmiş sənədləri əlavə etməklə)" sözləri əlavə edilsin;

3.13. həmin Qaydaya 7 nömrəli əlavə üzrə:

3.13.1. adında "Avtomobil nəqliyyatı ilə marşrut üzrə sərnişindaşıma xidmətlərinin göstərilməsi haqqında müqavilə" sözləri "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrut üzrə sərnişin daşınması (sərnişin daşınmasının təşkili) haqqında müqavilə" sözləri ilə əvəz edilsin;

3.13.2. "adlandırılacaq" sözündən sonra "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə müvafiq olaraq Bakı Nəqliyyat Agentliyi, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi və Gəncə Şəhər İcra Hakimiyyəti yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi, Azərbaycan Respublikasının digər ərazilərində isə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin səlahiyyətli qurumu" sözləri "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Şuşa şəhəri ərazisində isə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" sözləri ilə əvəz edilsin;

3.13.3. 2.5-1-ci bənddən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 745 (Cild I); 2024, № 1, maddə 111, № 5 (II kitab), maddə 574) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bəndə "Qanununa" sözündən sonra "(bundan sonra - Qanun)" sözləri əlavə edilsin;

4.2. 1.2.7-1-ci yarımbənddə "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən uçota alınan" sözləri "müvafiq icazəsi olan" sözləri ilə əvəz edilsin;

4.3. 1.2.11-ci, 3.5.5-ci, 3.5.6-cı yarımbəndlər və 2.4-cü, 2.7-ci, 2.14-cü və 2.15-ci bəndlər ləğv edilsin;

4.4. 1.2.22-ci və 1.2.26-cı yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"1.2.22. taksometr - taksi minik avtomobilinin qət etdiyi məsafənin və boşdayanmanın müddətinin uçotunun aparılmasını, gediş haqqının məbləğinin hesablanmasını və bu barədə sərnişinin məlumatlandırılmasını təmin edən, taksi minik avtomobili üçün nəzərdə tutulmuş fiskal yaddaşlı xüsusi ölçü cihazı və ya proqram təminatı;";

"1.2.26. analoq taxoqraf - Qanunun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla avtonəqliyyat vasitəsinin hərəkətinə, o cümlədən qət edilmiş məsafəyə, hərəkətin sürətinə, habelə sürücülərin iş və istirahət dövrlərinə dair bütün məlumatları fasiləsiz olaraq qeydə almaq məqsədilə həmin avtonəqliyyat vasitəsində quraşdırılan elektromexaniki nəzarət cihazı;";

4.5. aşağıdakı məzmunda 1.2.27-1.2.31-ci yarımbəndlər əlavə edilsin:

"1.2.27. rəqəmsal taxoqraf - Qanunun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla avtomatik rejimdə avtonəqliyyat vasitəsinin hərəkətinə, o cümlədən qət edilmiş məsafəyə, hərəkətin sürətinə, habelə sürücülərin iş və istirahət dövrlərinə dair bütün məlumatları fasiləsiz olaraq qeydə almaq məqsədilə həmin avtonəqliyyat vasitəsində quraşdırılan elektron nəzarət cihazı;

1.2.28. formulyar - qeyri-müntəzəm sərnişin daşımalarında sərnişinlər barədə məlumatı əks etdirən Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (bundan sonra - Agentlik) informasiya sistemində elektron qaydada doldurulan sənəd;

1.2.29. bilet-uçot vərəqi - şəhərlərarası (rayonlararası) müntəzəm sərnişin daşımalarında satılmış biletlərin uçotunun aparıldığı Agentliyin informasiya sistemində elektron qaydada doldurulan sənəd;

1.2.30. buraxılış vəsiqəsi - Qanunun 13-cü maddəsinə uyğun olaraq hüquqi şəxslərin və ya fərdi sahibkarların sərnişin daşımaları sahəsində fəaliyyət göstərməsi üçün verilən icazə;

1.2.31. buraxılış kartı - buraxılış vəsiqəsi olan hüquqi şəxslər və ya fərdi sahibkarların mülkiyyət, icarə və ya istifadə hüququ ilə malik olduğu nəqliyyat vasitələrinə verilən, icazənin əlavəsi olan kart.";

4.6. 1.3.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.3.6-cı yarımbənd əlavə edilsin:

"1.3.6. ölkədaxili sifarişli daşımalar - taksi minik avtomobili ilə sərnişin daşımaları istisna olmaqla qeyri-müntəzəm sərnişin daşımaları.";

4.7. 2.2-ci, 2.3-1-ci, 3.3-1-ci, 8.4-cü, 9.1-ci və 14.8-1-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.2. Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatı Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi tələblərə uyğun olmalıdır. Həmin tələblərə cavab verməyən avtonəqliyyat vasitəsinə buraxılış kartının verilməsindən imtina olunur, verilmiş buraxılış kartının isə hüquqi qüvvəsi dayandırılır və ya ləğv edilir.";

"2.3-1. Operatorlar beynəlxalq daşımaları həyata keçirən avtonəqliyyat vasitələrini taxoqrafla təchiz etməlidirlər.";

"3.3-1. Operatorun məsul şəxsləri, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülər Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən peşəkarlıq səriştəsinə dair təsdiq olunmuş proqram üzrə hazırlıq və yenidən hazırlıq keçməlidirlər. Hazırlıq Agentlik, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təşkil edilir və həyata keçirilir. Tədrisin nəticələrinə dair operatorla və ya sürücülərlə (məsul şəxslərlə) bağlanılmış müqavilə əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmış qiymətləndirməyə əsasən operatorun məsul şəxsinə və ya sürücüyə 7 (yeddi) il müddətində etibarlı olan, forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş sənəd verilir. Hazırlığın keçirilməsi və qiymətləndirmənin aparılması qaydası, habelə qiymətləndirmənin aparılmasına görə haqqın məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.";

"8.4. Qeyri-müntəzəm sərnişin daşınması (taksi minik avtomobilləri ilə sərnişin daşınması istisna olmaqla) formulyar vasitəsilə rəsmiləşdirilir. Formulyarın formasını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir. Formulyarı doldurmadan qeyri-müntəzəm sərnişin daşınmasının həyata keçirilməsinə yol verilmir.";

"9.1. Taksi minik avtomobilləri ilə sərnişin daşımaları taksometrin göstəriciləri və ya taksi sifarişi xidmətinə qoşulduqda, taksometr funksiyalarını yerinə yetirən proqram təminatı vasitəsilə müəyyən olunan qiymət üzrə ödəniş əsasında, müvafiq buraxılış vəsiqəsi və buraxılış kartı olan daşıyıcılar tərəfindən yerinə yetirilir. Taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsi olmadan və ya digər şəxslərə məxsus buraxılış vəsiqəsi əsasında taksi minik avtomobilləri ilə sərnişin daşımalarının yerinə yetirilməsi, habelə buraxılış kartı olmayan nəqliyyat vasitələrinin sərnişindaşımada istismar edilməsi, həmçinin taksometrin göstəriciləri və ya taksometr funksiyalarını yerinə yetirən proqram təminatı vasitəsilə müəyyən olunan qiymətdən əlavə ödənişin tələb edilməsi qadağandır.";

"14.8-1. Operatorlar və beynəlxalq sərnişin daşımaları yerinə yetirən sürücülər tərəfindən müvafiq daşımaların taxoqraf olmadan, habelə taxoqrafın yoxlanması haqqında şəhadətnamə və ya müvafiq möhür olmadan, yaxud yoxlanma müddəti bitmiş və ya plomblanması pozulmuş, tamamilə və ya hər hansı funksiyası işləməyən taxoqrafla, taxoqrafın qeydiyyata aldığı məlumatlar saxtalaşdırılmaqla yerinə yetirilməsinə yol verilmir.";

4.8. 3.3-cü bəndin dördüncü cümləsi aşağıdakı redaksiyada verilsin və aşağıdakı məzmunda beşinci və altıncı cümlələr əlavə edilsin:

"Xüsusi hazırlığın təşkili və keçirilməsi Agentlik, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə həmin Nazirliyin yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təmin edilir. Xüsusi hazırlığın nəticələrinə dair daşıyıcılarla və ya sürücülərlə bağlanılmış müqavilə əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmış qiymətləndirməyə əsasən 7 (yeddi) il müddətində etibarlı olan, forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş sənəd verilir. Qiymətləndirmənin aparılmasına görə haqqın məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.";

4.9. 3.4-cü bəndə "yol vərəqəsində" sözlərindən əvvəl "elektron" sözü əlavə edilsin;

4.10. 3.5.2-1-ci yarımbənddən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

4.11. 3.6.4-cü yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 3.6.5-ci yarımbənd ləğv edilsin;

4.12. 4.1-ci, 4.19-cu, 4.21-ci və 6.7-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"4.1. Avtomobil nəqliyyatı ilə sərnişin daşımaları Qanunun 13-cü maddəsinə uyğun olaraq müvafiq icazəyə malik hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən yerinə yetirilə bilər.";

"4.19. Taksi minik avtomobilləri ilə sərnişin daşımaları buraxılış kartında müəyyən edilmiş ərazi hüdudları daxilində hər hansı şəxsin sifarişi əsasında qeyri-müntəzəm marşrut üzrə yerinə yetirilir.";

"4.21. Beynəlxalq müntəzəm marşrutların Azərbaycan Respublikasının ərazisində yerləşən, şəhərlərarası (rayonlararası) müntəzəm marşrutların isə şəhərlərin (rayon mərkəzlərinin) və ya qəsəbələrin ərazisində yerləşən başlanğıc, aralıq və son təyinat məntəqəsi yalnız avtovağzal (avtostansiya) olmalıdır.";

"6.7. Şəhərlərarası (rayonlararası) müntəzəm sərnişin daşımalarında bilet-uçot vərəqi Agentliyin informasiya sistemi üzərindən elektron qaydada doldurulur.";

4.13. 4.2-ci, 4.22-ci, 6.14-cü, 7.2-ci, 8.5-ci, 8.13-cü və 8.14-cü bəndlər ləğv edilsin;

4.14. 4.6-cı bəndin ikinci cümləsində "daşıyıcı ilə müvafiq müqavilə bağlayır" sözləri "daşıyıcıya müvafiq icazəni verir," sözləri ilə əvəz edilsin, "və" sözü çıxarılsın, "pasportunu" sözündən sonra "və müntəzəm sərnişin daşımalarında istifadə olunması nəzərdə tutulan avtonəqliyyat vasitələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli 183 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər"ə cavab verdikdə buraxılış kartını" sözləri əlavə edilsin;

4.15. 7.6-cı bəndin ikinci cümləsi çıxarılsın;

4.16. 9.1-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli 183 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər"ə cavab verməlidir.";

4.17. 9.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"9.4. Taksi minik avtomobilləri gediş haqqının qiymətini müəyyən etməyə imkan verən taksometr və ya taksometr funksiyalarını yerinə yetirən proqram təminatı olan mobil cihaz ilə təchiz edilməlidir. Taksi minik avtomobilinin sifarişçiyə təqdim edilməsinə görə gediş haqqının qiyməti sərnişin daşınmasını yerinə yetirən daşıyıcı və ya taksi sifarişi operatoru tərəfindən elan edilir.";

4.18. 9.10.13-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 9.10.14-cü, 9.10.15-ci yarımbəndlər əlavə edilsin:

"9.10.14. Qanunun 13-cü maddəsinə uyğun olaraq taksi minik avtomobilləri ilə sərnişin daşımalarına icazə verən buraxılış vəsiqəsinə malik olmaq;

9.10.15. buraxılış vəsiqəsinə malik olduqdan sonra mülkiyyət, icarə və ya istifadə hüququ ilə malik olduğu nəqliyyat vasitələrinə verilən, icazənin əlavəsi olan buraxılış kartını əldə etmək.";

4.19. 11.3.2-ci yarımbənddən "yol vərəqəsi," sözləri çıxarılsın;

4.20. 13.2-ci bənd ləğv edilsin;

4.21. 16.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"16.9. İcazə olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşınmasına, eləcə də icazə şərtlərinin pozulmasına görə daşıyıcılar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 746 (Cild I); 2024, № 1, maddələr 81, 111, 112) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.1-ci bəndə "Qanununa" sözündən sonra "(bundan sonra - Qanun)" sözləri əlavə edilsin;

5.2. 1.8-ci bənddə "Azərbaycan Respublikasının "Avtomobil nəqliyyatı haqqında" Qanununun" sözləri "Qanunun" sözü ilə əvəz edilsin;

5.3. 2.1.3-1-ci yarımbənddə "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən uçota alınan" sözləri "müvafiq icazəsi olan" sözləri ilə əvəz edilsin;

5.4. 2.1.4-cü, 42.1.14-cü yarımbəndlər və 47.17-1-ci bənd ləğv edilsin;

5.5. 2.1.19-cu yarımbənd və 35.2-ci, 35.3-cü, 35.5-ci, 48.3-1-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1.19. analoq taxoqraf - Qanunun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla avtonəqliyyat vasitəsinin hərəkətinə, o cümlədən qət edilmiş məsafəyə, hərəkətin sürətinə, habelə sürücülərin iş və istirahət dövrlərinə dair bütün məlumatları fasiləsiz olaraq qeydə almaq məqsədilə həmin avtonəqliyyat vasitəsində quraşdırılan elektromexaniki nəzarət cihazı;";

"35.2. İcazə sistemi tətbiq edən xarici dövlətlərə yerinə yetirilən beynəlxalq yük daşımaları Qanunun 50-ci maddəsinə uyğun olaraq verilən "İcazə" blankları (jurnalları) əsasında yerinə yetirilir.

35.3. Xarici dövlət qeydiyyat nişanlı avtomobil nəqliyyatı vasitəsi ilə ölkədaxili yük daşımalarının həyata keçirilməsi qadağandır.";

"35.5. Operatorun məsul şəxsləri, habelə beynəlxalq yük daşımalarını həyata keçirən sürücülər Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən peşəkarlıq səriştəsinə dair təsdiq olunmuş proqram üzrə hazırlıq və yenidən hazırlıq keçməlidirlər. Hazırlıq Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təşkil edilir və həyata keçirilir. Tədrisin nəticələrinə dair operatorla və ya sürücülərlə (məsul şəxslərlə) bağlanılmış müqavilə əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmış qiymətləndirməyə əsasən operatorun məsul şəxsinə və ya sürücüyə 7 (yeddi) il müddətində etibarlı olan, forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş sənəd verilir. Hazırlığın keçirilməsi və qiymətləndirmənin aparılması qaydası, habelə qiymətləndirmənin aparılmasına görə haqqın məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.";

"48.3-1. Operatorlar və beynəlxalq yük daşımaları yerinə yetirən sürücülər tərəfindən müvafiq daşımaların taxoqraf olmadan, habelə taxoqrafın yoxlanması haqqında şəhadətnamə və ya müvafiq möhür olmadan, yaxud yoxlanma müddəti bitmiş və ya plomblanması pozulmuş, tamamilə və ya hər hansı funksiyası işləməyən taxoqrafla, taxoqrafın qeydiyyata aldığı məlumatlar saxtalaşdırılmaqla yerinə yetirilməsinə yol verilmir.";

5.6. aşağıdakı məzmunda 2.1.20-ci yarımbənd əlavə edilsin:

"2.1.20. rəqəmsal taxoqraf - Qanunun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla avtomatik rejimdə avtonəqliyyat vasitəsinin hərəkətinə, o cümlədən qət edilmiş məsafəyə, hərəkətin sürətinə, habelə sürücülərin iş və istirahət dövrlərinə dair bütün məlumatları fasiləsiz olaraq qeydə almaq məqsədilə həmin avtonəqliyyat vasitəsində quraşdırılan elektron nəzarət cihazı.";

5.7. 48.3-cü bənddə "həmin icazədən düzgün istifadəyə, onun lazımi vəziyyətdə saxlanılmasına və vaxtında təhvil verilməsinə görə məsuliyyət daşıyırlar" sözləri "həmin "İcazə blankını (jurnalını) düzgün istifadə etməli, lazımi vəziyyətdə saxlamalı və vaxtında təhvil verməlidirlər" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 157 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 751 (Cild I); 2024, № 1, maddələr 80, 111) ilə təsdiq edilmiş "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"da aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3-cü, 11-ci və 12-ci hissələr aşağıdakı redaksiyada verilsin:

"3. Hazırlığın təşkili və keçirilməsi bu Proqramın 3 və 4 nömrəli əlavələri olan tədris proqramları əsasında Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin müəyyən etdiyi peşə təhsili müəssisələrində, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təmin edilir.";

"11. Proqrama əsasən hazırlıq üzrə məşğələlərdə iştirak etmiş sürücülərin hazırlıq səviyyəsi hazırlığın yekununda daşıyıcılarla və ya sürücülərlə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra - Mərkəz) arasında bağlanılmış müqavilə əsasında test üsulu ilə qiymətləndirilir.

12. Hazırlıq keçmiş şəxslər barədə aşağıdakı məlumatlar Proqramın 3-cü hissəsində qeyd olunan qurumlar tərəfindən hazırlığın başa çatmasından sonra 2 (iki) iş günü müddətində Mərkəzə təqdim edilir:

12.1. soyadı, adı, atasının adı və şəxsiyyət vəsiqəsinin FİN kodu;

12.2. hazırlıq keçdiyi proqram və hazırlıq materialları;

12.3. sürücülük vəsiqəsinin nömrəsi, etibarlılıq müddəti və kateqoriyası.";

6.2. aşağıdakı məzmunda 12-1-12-14-cü hissələr əlavə edilsin:

"12-1. Proqramın 12-ci hissəsində nəzərdə tutulmuş məlumatlar təqdim edildikdən sonra Mərkəz tərəfindən Proqramın 12-3.4-cü bəndinə uyğun olaraq sənəd qəbuluna dair elan verilir. Qiymətləndirmə təqvim ili ərzində 4 (dörd) dəfədən çox olmamaqla keçirilir.

12-2. Qiymətləndirmədə iştirak etmək üçün hazırlıq keçmiş şəxs sənəd qəbulunun həyata keçirildiyi müddət ərzində Mərkəzin rəsmi internet saytı (bundan sonra - sayt) vasitəsilə onlayn qeydiyyatdan keçir, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdə ödəniş edir və ona qeydiyyatdan keçdiyini təsdiq edən elektron bildiriş və qiymətləndirmə qaydaları barədə məlumatların əks olunduğu yaddaş kitabçası göndərilir.

12-3. Qiymətləndirmənin təşkili ilə əlaqədar Mərkəz:

12-3.1. qiymətləndirmənin keçiriləcəyi tarixi, yeri və aparılma texnologiyasını müəyyən edir;

12-3.2. test tapşırıqlarına dair düzgün cavabların siyahısını tərtib edir və konfidensiallığın gözlənilməsi şərtilə həmin siyahının xüsusi ayrılmış məlumat bazasında saxlanılmasını təmin edir;

12-3.3. qiymətləndirmədə iştirak edəcək nəzarətçiləri müəyyən edir;

12-3.4. qiymətləndirmənin keçirilmə tarixindən ən azı 1 (bir) ay əvvəl sənəd qəbuluna dair elan verir;

12-3.5. qiymətləndirmənin qrafikini saytı vasitəsilə yayır;

12-3.6. qiymətləndirmənin keçirilməsinə 7 (yeddi) iş günü qalmış hazırlıq keçmiş şəxslərin qiymətləndirməyə buraxılış vərəqəsini sayta yerləşdirir;

12-3.7. qiymətləndirmədə iştirak edəcək hər bir hazırlıq keçmiş şəxsə eyniləşdirmə kodu verir;

12-3.8. qiymətləndirmənin təşkili, keçirilməsi və nəticələri ilə əlaqədar ərizə, şikayətlərə, təkliflərə baxır və həll edir;

12-3.9. qiymətləndirmənin nəticəsi haqqında məlumatları sayta yerləşdirir;

12-3.10. qiymətləndirmənin nəticəsinin elan edildiyi gündən 15 (on beş) iş günü müddətində Proqramın 12-14-cü hissəsi ilə müəyyən edilmiş sənədi (şəhadətnaməni) verir.

12-4. Qiymətləndirmə qanunçuluq, obyektivlik, bərabərlik, şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirilir.

12-5. Hazırlıq keçmiş şəxslər şəxsiyyətini təsdiq edən sənədi və buraxılış vərəqəsini təqdim etməklə qiymətləndirmədə iştirak edirlər.

12-6. Qiymətləndirmə zamanı hazırlıq keçmiş şəxslərin aşağıdakı hərəkətlərə yol verməsi qadağandır:

12-6.1. saxta və ya başqasına aid sənəd təqdim etmək, qiymətləndirməyə öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;

Ardı 10-cu səh.

# "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik və bəzi qərarlarının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 71** **Bakı şəhəri, 12 mart 2025-ci il**

*Əvvəli 9-cu səh.*

12-6.2. qiymətləndirməyə mobil telefon və digər rabitə vasitələri, kalkulyator, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;

12-6.3. qiymətləndirmənin keçirildiyi binaya yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu qəbildən olan əşyalarla daxil olmaq, özü ilə tütün məmulatı gətirmək;

12-6.4. səbəbindən asılı olmayaraq qiymətləndirmə başlandığı andan yerini dəyişmək, gəzişmək, yerindən durmaq və qiymətləndirmənin gedişinə mane olmaq;

12-6.5. başqasının qiymətləndirmə nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına (vərəqinə), sual kitabçasına baxmaq və ya öz cavab kartına (vərəqinə), sual kitabçasına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;

12-6.6. nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;

12-6.7. cavab kartını (vərəqini) və sual kitabçasını nəzarətçiyə təhvil vermədən qiymətləndirmənin keçirildiyi zalı tərk etmək.

12-7. Mərkəz tərəfindən hazırlıq keçmiş şəxs Proqramın 12-6-cı hissəsində qeyd olunan hərəkətlərə yol verməsi halları aşkar edildikdə onun qiymətləndirmə nəticələri ləğv edilir.

12-8. Texniki səbəblərdən qiymətləndirmənin aparılması mümkün olmadıqda Mərkəzin qərarı əsasında qiymətləndirmə davam etdirilir və ya yenidən aparılır.

12-9. Qiymətləndirmə zamanı hazırlığı bitirmiş şəxslərə proqram üzrə 20 (iyirmi) test tapşırığı təqdim edilir. Qiymətləndirmə müddəti 60 (altmış) dəqiqədir.

12-10. Qiymətləndirmədə təqdim edilən test tapşırıqlarının 50 faizini və daha çox hissəsini doğru cavablandıran şəxslər hazırlığı müvəffəqiyyətlə bitirmiş hesab edilirlər.

12-11. Qiymətləndirmənin nəticələri qiymətləndirmə başa çatdıqdan sonra ən geci 5 (beş) iş günü müddətində elan edilir. İmtahanın nəticələri haqqında məlumat saytda yerləşdirilir.

12-12. Qiymətləndirmənin nəticəsindən narazı qalan hazırlıq keçmiş şəxs bu barədə nəticənin ona elan olunduğu tarixdən 3 (üç) iş günü müddətində Mərkəz tərəfindən yaradılmış apellyasiya komissiyasına müraciət edə bilər.

12-13. Müraciətə 14 (on dörd) iş günü müddətində aidiyyəti mütəxəssislər tərəfindən baxılır və hazırlıq keçmiş şəxsə Mərkəz tərəfindən əsaslandırılmış cavab verilir. Hazırlıq keçmiş şəxslərin qiymətləndirmə nəticələrinin düzgün hesablanmadığı aşkar edildikdə, yenidən hesablama aparılır və onların nəticələri yenilənir.

12-14. Hazırlığı müvəffəqiyyətlə bitirmiş şəxslərə Mərkəz tərəfindən etibarlılıq müddəti 7 (yeddi) il olan və forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş sənəd (şəhadətnamə) təqdim edilir.";

6.3. 15-ci hissə ləğv edilsin;

6.4. 16-cı hissədə "Şəhadətnamə" sözü "Sənəd (şəhadətnamə)" sözləri ilə əvəz edilsin və həmin hissəyə "hallarda" sözündən sonra "şəxsin müraciəti əsasında 5 (beş) iş günü müddətində Mərkəz tərəfindən eyni hüquqi qüvvəyə malik sənəd (şəhadətnamə) verilməklə," sözləri əlavə edilsin;

6.5. 16.2-ci bənddə "şəhadətnamədə" sözü "sənəddə (şəhadətnamədə)" sözləri ilə əvəz edilsin;

6.6. 16.3-cü bənddə "şəhadətnamə" sözü "sənəd (şəhadətnamə)" sözləri ilə əvəz edilsin;

6.7. 17-ci hissə aşağıdakı redaksiyada verilsin:

"17. Verilmiş sənəd (şəhadətnamə) itirildikdə Mərkəz tərəfindən müraciətin daxil olduğu tarixdən 5 (beş) iş günü müddətində onun etibarlılıq müddəti göstərilməklə dublikatı verilir.";

6.8. 19-cu hissənin birinci və ikinci cümlələrində ismin müvafiq hallarında "şəhadətnamələr" sözü ismin müvafiq hallarında "sənədlər (şəhadətnamələr)" sözləri ilə əvəz edilsin;

6.9. Xüsusi Proqrama 3 nömrəli əlavə - "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Tədris Proqramı"nın 8-ci hissəsindən "taxoqraflar vasitəsilə ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə nəzarət" sözləri çıxarılsın;

6.10. Xüsusi Proqrama 4 nömrəli əlavə - "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Tədris Proqramı" üzrə:

6.10.1. 6-cı hissədən "yük daşımalarını həyata keçirən sürücülərə taxoqraf vasitəsilə nəzarət" sözləri çıxarılsın;

6.10.2. 10-cu hissədən "taxoqraflar vasitəsilə ölkədaxili (şəhərlərarası və rayonlararası) daşımaları yerinə yetirən sürücülərin iş və istirahət rejiminə nəzarət" sözləri çıxarılsın.

7. "Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli 73 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 507 (Cild I); 2024, № 11, maddə 1246) aşağıdakı dəyişikliklər edilsin:

7.1. adında və ikinci abzasda "avtobuslara və taksi minik avtomobillərinə, onların" sözləri "avtobusların və taksi minik avtomobillərinin" sözləri ilə əvəz edilsin;

7.2. həmin Qərarla təsdiq edilmiş "Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər" üzrə:

7.2.1. adında, 1.1-ci və 1.2-ci bəndlərdə "avtobuslara və taksi minik avtomobillərinə, onların" sözləri "avtobusların və taksi minik avtomobillərinin" sözləri ilə əvəz edilsin;

7.2.2. 2-ci, 3-cü, 8-ci hissələr və 6.12-ci bənd ləğv edilsin;

7.2.3. 6.1-ci və 6.14-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"6.1. Avtomobil nəqliyyatı ilə sərnişin daşımaları "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə uyğun olaraq müvafiq icazəyə malik hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən yerinə yetirilə bilərlər.";

"6.14. Daşıyıcı sürücü qismində işə qəbul etdiyi hər bir şəxsin Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə isə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin müəyyən etdiyi peşə təhsili müəssisələri, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla xüsusi hazırlıq keçməsini təmin etməli və belə xüsusi hazırlığın nəticələrinə dair daşıyıcılarla və ya sürücülərlə bağlanılmış müqavilə əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmış qiymətləndirməyə əsasən 7 (yeddi) il müddətində etibarlı olan, forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş sənədi əldə etməyən sürücünü avtobusun və taksinin idarə olunmasına buraxmamalıdır.";

7.2.4. 6.8-ci bənddən "rübdə bir dəfə texniki, istismar, təhlükəsizlik və ekoloji tələblərə uyğunluğunun yoxlanılmasını (taksi minik avtomobilləri istisna olmaqla)," sözləri çıxarılsın;

7.2.5. 6.10-cu bənddən "(müvafiq proqram təminatı ilə)" sözləri çıxarılsın;

7.2.6. 7.3-cü bənddə "Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə isə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin müəyyən etdiyi peşə təhsili müəssisələri tərəfindən" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə isə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin müəyyən etdiyi peşə təhsili müəssisələri, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla" sözləri ilə əvəz edilsin;

7.2.7. Tələblərə 1-8 nömrəli əlavələr ləğv edilsin;

7.2.8. Tələblərə 9-20 nömrəli əlavələrin yuxarı sağ küncündə "avtobuslara və taksi minik avtomobillərinə, onların" sözləri "avtobusların və taksi minik avtomobillərinin" sözləri ilə əvəz edilsin.

8. "Beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər üçün iş və istirahət rejimi, nəqliyyat vasitələrinin taxoqraflarla təchiz edilməsi, onlardan istifadə, onlara xidmət və fəaliyyətinə nəzarət Qaydası"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarının həyata keçirilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2010-cu il 24 dekabr tarixli 244 nömrəli və "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə, iş şəraitinin xüsusiyyətlərinə dair Qaydalar"ın təsdiq edilməsi barədə" 2016-cı il 10 mart tarixli 118 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 29 may tarixli 249 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 982 (Cild I); 2024, № 1, maddə 111, № 5 (II kitab), maddə 611) aşağıdakı dəyişikliklər edilsin:

8.1. adından və birinci hissədən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2. həmin Qərarla təsdiq edilmiş "Beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər üçün iş və istirahət rejimi, nəqliyyat vasitələrinin taxoqraflarla təchiz edilməsi, onlardan istifadə, onlara xidmət və fəaliyyətinə nəzarət Qaydası" üzrə:

8.2.1. 1.2-ci bənddə "sərnişin və yük daşımalarını təşkil edən hüquqi və fiziki şəxslərin (bundan sonra - daşıyıcı), yerinə yetirən" sözləri "beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun (bundan sonra - operator)," sözləri ilə, "daşıyıcılara" sözü "operatorlara" sözü ilə əvəz edilsin və həmin bənddən (hər iki halda) "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.2. 1.3-cü bəndə "Nəqliyyat" sözündən sonra "Nazirliyi" sözü əlavə edilsin;

8.2.3. 1.5-ci və 1.6-cı bəndlər, 1.10.22-ci yarımbənd və 3-cü hissə ləğv edilsin;

8.2.4. 1.7-ci və 1.8-ci bəndlər, 1.10.21-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.7. Operatorlar beynəlxalq daşımaları həyata keçirən avtonəqliyyat vasitələrini taxoqrafla təchiz etməlidirlər.

1.8. Sürücü, operator, emalatxana və ya nəzarətçi taxoqraf kartlarının verilməsi və ya yenilənməsi müvafiq olaraq sürücünün, operatorun, emalatxananın və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (bundan sonra - DİN) vəsaiti hesabına Nazirliyin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (bundan sonra - Agentlik), habelə bu sahədə fəaliyyət göstərən digər fiziki və ya hüquqi şəxslərlə bağlanılmış müqavilə əsasında həyata keçirilir.";

"1.10.21. operator - avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən, işgüzar nüfuz, maliyyə vəziyyəti və peşəkarlıq səriştəsi ilə bağlı meyarlara, habelə sürücüsü (sürücüləri) hazırlıq səviyyəsinə dair tələblərə cavab verən, müvafiq icazəsi olan hüquqi və ya fiziki şəxs;";

8.2.5. aşağıdakı məzmunda 1.8-1-ci bənd əlavə edilsin:

"1.8-1. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 57-1-ci maddəsinə uyğun olaraq operatorlar, emalatxanaların texniki heyət üzvləri, operatorların məsul şəxsləri və sürücüləri, o cümlədən DİN əməkdaşı taxoqrafdan istifadə, ona xidmət və ya rəqəmsal taxoqraf kartından istifadə ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi xüsusi proqram üzrə hazırlıq (bundan sonra - hazırlıq) keçməlidirlər. Hazırlıq Agentlik, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq təhsil müəssisələri tərəfindən müqavilə əsasında həyata keçirilir.";

8.2.6. 1.9-cu bənddə "daşıyıcılar" sözü "operatorlar" sözü ilə, "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (bundan sonra - DİN)" sözləri "DİN" akronimi ilə əvəz edilsin;

8.2.7. 1.10.5-ci, 6.17.13-cü, 6.18.4-cü yarımbəndlərdə, 4-cü hissənin adında, 5.5-ci, 6.12-ci, 6.19-cu, 9.10-cu, 9.16-cı bəndlərdə ismin müvafiq hallarında "daşıyıcı" sözü ismin müvafiq hallarında "operator" sözü ilə əvəz edilsin;

8.2.8. 1.10.23-cü yarımbənddən "(elektromexaniki)" sözü, "ölçmək və ya" sözləri çıxarılsın və həmin yarımbəndə "avtonəqliyyat vasitəsinin" sözlərindən əvvəl "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin;

8.2.9. 1.10.24-cü, 5.7.1-ci, 6.18.2-ci, 6.18.4-cü, 6.18.5-ci, 6.19.2-ci yarımbəndlərdən və 5.12-ci, 6.10-cu, 6.11-ci (hər üç halda) bəndlərdən "(elektromexaniki)" sözü çıxarılsın;

8.2.10. 1.10.25-ci yarımbəndə "avtomatik rejimdə" sözlərindən əvvəl "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin və həmin yarımbənddən "ölçmək və ya" sözləri çıxarılsın;

8.2.11. 1.10.27-ci yarımbənddə "sürücü kartı" sözləri "sürücünün taxoqraf kartı (bundan sonra - sürücü kartı)" sözləri ilə əvəz edilsin və həmin yarımbəndə "istifadə edilən" sözlərindən sonra "rəqəmsal" sözü əlavə edilsin;

8.2.12. 1.10.28-ci yarımbənddə "daşıyıcı kartı" sözləri "operatorun taxoqraf kartı (bundan sonra - operator kartı)" sözləri ilə, "daşıyıcıya məxsus" sözləri "operatora məxsus rəqəmsal" sözləri ilə əvəz edilsin;

8.2.13. 1.10.29-cu yarımbənddə "emalatxana kartı" sözləri "emalatxana taxoqraf kartı (bundan sonra - emalatxana kartı)" sözləri ilə əvəz edilsin və həmin yarımbəndə "istifadə edilən" sözlərindən sonra "rəqəmsal" sözü əlavə edilsin;

8.2.14. 1.10.30-cu yarımbənddə "nəzarətçi kartı" sözləri "nəzarətçi taxoqraf kartı (bundan sonra - nəzarətçi kartı)" sözləri ilə, "nəzarət edən dövlət orqanlarının səlahiyyətli işçilərinə" sözləri "DİN-in əməkdaşlarına" sözləri ilə əvəz edilsin və həmin yarımbəndə "məxsus" sözündən sonra "rəqəmsal" sözü əlavə edilsin;

8.2.15. 4.1-ci və 4.2-ci bəndlərdə "Daşıyıcı" sözü "Operator" sözü ilə əvəz edilsin;

8.2.16. 4.4-cü, 5.1-ci və 5.5-ci bəndlərdə "daşıyıcılar" sözü "operatorlar" sözü ilə əvəz edilsin;

8.2.17. 5-ci hissənin adından, 5.1-ci, 5.13-cü, 5.14-cü, 8.4-cü, 9.14-cü bəndlərdən, 8.1.1-ci və 9.3.3-cü yarımbəndlərdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.18. 5.10-cu bənddə "Daşıyıcının" sözü "Operatorun" sözü ilə, "daşıyıcının kartı" sözləri "operatorun kartı" sözləri ilə əvəz edilsin;

8.2.19. 6.2-ci bənddə "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyində (bundan sonra - Agentlik)" sözləri "Agentlikdə" sözü ilə əvəz edilsin;

8.2.20. 6.8-ci bənddən "(elektromexaniki)" sözü çıxarılsın;

8.2.21. 8.2-ci bənddə "Rəqəmsal taxoqrafın daşıyıcı kartı mülkiyyət növündən asılı olmayaraq, avtonəqliyyat vasitələri ilə beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin və yük daşımalarını yerinə yetirən, Azərbaycan Respublikasının ərazisində vergi uçotuna alınmış fiziki şəxslərə (fərdi sahibkarlara) və ya hüquqi şəxslərə (onların sərəncamında xüsusi təlim keçmiş mütəxəssislər olduğu halda)" sözləri "Operator kartı" sözləri ilə əvəz edilsin;

8.2.22. 8.3-cü və 9.13-cü bəndlərdə "Rəqəmsal taxoqrafın servis emalatxanasının" sözləri "Emalatxana" sözü ilə əvəz edilsin;

8.2.23. 8.4-cü bənddə "Rəqəmsal taxoqrafın nəzarətçi" sözləri "Nəzarətçi" sözü ilə, "xüsusi təlim" sözləri "hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.24. 9-cu hissənin adında "ilk dəfə verilməsi və təzələnməsi" sözləri "verilməsi və yenilənməsi" sözləri ilə əvəz edilsin;

8.2.25. 9.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.1. Rəqəmsal taxoqraf kartını almaq üçün ərizəçi Agentliyə "AYNA" informasiya sistemi (bundan sonra - informasiya sistemi) vasitəsilə elektron qaydada müraciət edir.";

8.2.26. 9.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.2. Ərizəçi rəqəmsal taxoqraf kartlarını almaq üçün informasiya sistemi vasitəsilə elektron qaydada ərizənin və həmin ərizədə göstərilən digər aidiyyəti sənədlərin skan olunmuş nüsxələrini əlavə edərək Agentliyə göndərir.";

8.2.27. 9.4-cü bənd ləğv edilsin;

8.2.28. 9.5-ci bənddə "təqdim etdiyi ərizə xüsusi kitabda qeydiyyata alınır və ərizədəki" sözləri "informasiya sistemi üzərindən elektron qaydada müraciətinə əlavə edilən" sözləri ilə, "Agentlikdə" sözü "Agentlik tərəfindən" sözləri ilə əvəz edilsin;

8.2.29. 9.7-ci bəndin birinci cümləsinə "ərizəçiyə" sözündən sonra "Agentliklə bağlanılmış müqavilə əsasında" sözləri əlavə edilsin;

8.2.30. 9.8-ci bənddə "ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə ona" sözləri "ərizəçinin informasiya sistemində yaradılmış elektron kabinetinə" sözləri ilə əvəz edilsin;

8.2.31. 9.9-cu bəndin üçüncü cümləsinə "qəbul edir və" sözlərindən sonra "ərizəçiyə bu barədə məlumat" sözləri əlavə edilsin və "ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə ona göndərir" sözləri "bu Qaydanın 9.8-ci bəndində qeyd edilən qaydada verilir" sözləri ilə əvəz edilsin;

8.2.32. 9.11-ci bəndin birinci cümləsində "Rəqəmsal taxoqrafın daşıyıcı" sözləri "Operator" sözü ilə, həmin bəndin ikinci cümləsində "Daşıyıcı" sözü "Operator" sözü ilə və "xüsusi təlim" sözləri "hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.33. 9.14-cü bəndin birinci cümləsində "dövlət orqanlarının səlahiyyətli işçilərinə" sözləri "DİN-in əməkdaşlarına" sözləri ilə, ikinci cümləsində "Rəqəmsal taxoqrafın" sözləri "Nəzarətçi" sözü ilə əvəz edilsin;

8.2.34. 9.15-ci bəndə "ərizə ilə" sözlərindən sonra "bu Qaydanın 9.1-ci və 9.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada" sözləri əlavə edilsin və həmin bənddə "təzələnməsi" sözü "yenilənməsi" sözü ilə əvəz edilsin;

8.2.35. 9.16-cı bənddə (hər üç halda) "təzələnməsi" sözü "yenilənməsi" sözü ilə, həmin bəndin ikinci cümləsində "nəzarət və servis emalatxanasının" sözləri "nəzarətçi və emalatxana" sözləri ilə əvəz edilsin;

8.2.36. 9.17-ci bənddə "Sürücü kartının, daşıyıcı kartının, emalatxana kartının və nəzarətçi kartının ilk dəfə verilməsi və təzələnməsi" sözləri "Sürücü, operator, emalatxana və ya nəzarətçi kartlarının verilməsi və yenilənməsi" sözləri ilə əvəz edilsin və həmin bəndə "üçün" sözündən sonra "elektron qaydada" sözləri əlavə edilsin;

8.2.37. 10.3-cü bənddən "ərizə" sözü çıxarılsın və həmin bənddə "təqdim edilir" sözləri "informasiya sistemi üzərindən müraciət edilir" sözləri ilə əvəz edilsin;

8.2.38. 10.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"10.5. Bu Qaydanın 10.1.5-ci yarımbəndində nəzərdə tutulmuş hallarda taxoqraf kartının əvəz olunması barədə ərizə ilə kartın sahibi tərəfindən müvafiq fəaliyyətin (daşınmanın, nəzarət tədbirlərinin və s.) başlanılmasına ən azı 15 gün qalmış informasiya sistemi vasitəsilə Agentliyə müraciət edir.";

8.2.39. 10.6-cı və 10.12-ci bəndlərə "Agentliyə" sözündən sonra "informasiya sistemi üzərindən" sözləri əlavə edilsin;

8.2.40. 11.3-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Rəqəmsal taxoqraf kartının ləğv edilməsi barədə məlumat kartın sahibinin informasiya sistemində yaradılmış elektron kabinetinə göndərilir.";

8.2.41. 12.4-cü bəndin ikinci cümləsi çıxarılsın;

8.2.42. həmin Qaydaya - 1 nömrəli Əlavə üzrə:

8.2.42.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.42.2. "Sürücü kartının ilk dəfə" sözləri "Sürücünün taxoqraf kartının" sözləri ilə əvəz edilsin;

8.2.42.3. 1-ci hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin, ikinci və üçüncü abzaslar çıxarılsın:

"1. Xahiş edirəm mənə beynəlxalq avtomobil daşımalarının həyata keçirilməsi zamanı istifadə ediləcək sürücünün taxoqraf kartını verəsiniz.";

8.2.42.4. 2-ci və 6-cı hissələrdə "Sürücü kartının" sözləri "Sürücünün taxoqraf kartının" sözləri ilə əvəz edilsin;

8.2.42.5. 2.9-cu və 7.3-cü bəndlərdə "xüsusi təlim" sözləri "hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.42.6. 3-cü və 4-cü hissələrdə ismin müvafiq hallarında "sürücü kartı" sözləri ismin müvafiq hallarında "sürücünün taxoqraf kartı" sözləri ilə əvəz edilsin;

8.2.42.7. 5-ci hissə və Qeydlər hissəsi ləğv edilsin;

8.2.42.8. 7.4-cü bənddən "(tarix)", "(ərizəçinin imzası)", "(soyadı, adı, atasının adı)" və "M.Y." sözləri çıxarılsın;

8.2.43. həmin Qaydaya - 2 nömrəli Əlavə üzrə:

8.2.43.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.43.2. adında "Sürücü kartının təzələnməsi üçün" sözləri "Sürücünün taxoqraf kartının yenilənməsi üçün" sözləri ilə əvəz edilsin;

8.2.43.3. 1-ci hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin, ikinci və üçüncü abzaslar çıxarılsın:

"1. Xahiş edirəm mənə istifadə müddətinin bitməsi ilə əlaqədar beynəlxalq avtomobil daşımalarının həyata keçirilməsi zamanı istifadə ediləcək sürücünün taxoqraf kartını verəsiniz.";

8.2.43.4. 4-cü və 5-ci hissələrdə ismin müvafiq hallarında "sürücü kartı" sözləri ismin müvafiq hallarında "sürücünün taxoqraf kartı" sözləri ilə əvəz edilsin;

8.2.43.5. 6-cı hissə və Qeydlər hissəsi ləğv edilsin;

8.2.43.6. 7-ci hissədə "Sürücü kartının təzələnməsi" sözləri "Sürücünün taxoqraf kartının yenilənməsi" sözləri ilə əvəz edilsin;

8.2.43.7. 8.2-ci bənddən "(tarix)", "(ərizəçinin imzası)", "(soyadı, adı, atasının adı)" və "M.Y." sözləri çıxarılsın;

8.2.44. həmin Qaydaya - 3 nömrəli Əlavə üzrə:

8.2.44.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.44.2. "Daşıyıcı kartının ilk dəfə verilməsi və təzələnməsi" sözləri "Operatorun taxoqraf kartının verilməsi və yenilənməsi" sözləri ilə əvəz edilsin;

8.2.44.3. 1-ci hissədə "daşıyıcı kartının" sözləri "operatorun taxoqraf kartının" sözləri ilə əvəz edilsin, "avtomobil" sözündən əvvəl "beynəlxalq" sözü əlavə edilsin və həmin hissədən ikinci və üçüncü abzaslar çıxarılsın;

8.2.44.4. 2.1-ci, 2.2-ci, 9.3-cü bəndlərdə və 3-cü, 4-cü, 9-cu hissələrdə ismin müvafiq hallarında "daşıyıcı kartı" sözləri ismin müvafiq hallarında "operatorun taxoqraf kartı" sözləri ilə əvəz edilsin;

8.2.44.5. 5-ci hissə və Qeydlər hissəsi ləğv edilsin;

8.2.44.6. 6-cı, 7-ci və 8-ci hissələrdə ismin müvafiq hallarında "Daşıyıcı kartı" sözləri ismin müvafiq hallarında "Operatorun taxoqraf kartı" sözləri ilə əvəz edilsin;

8.2.44.7. 8.4-cü və 10.4-cü bəndlərdə "xüsusi təlim" sözləri "hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.44.8. 10.5-ci bənddə "təzələnməsi" sözü "yenilənməsi" sözü ilə əvəz edilsin və həmin bənddən "(tarix)", "(ərizəçinin imzası)", "(soyadı, adı, atasının adı)" və "M.Y." sözləri çıxarılsın;

8.2.45. həmin Qaydaya - 4 nömrəli Əlavə üzrə:

8.2.45.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.45.2. "Emalatxana kartının ilk dəfə verilməsi və təzələnməsi" sözləri "Emalatxana taxoqraf kartının verilməsi və yenilənməsi" sözləri ilə əvəz edilsin;

8.2.45.3. 1-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı, 7-ci (birinci halda), 9-cu hissələrə, 2.1-ci və 2.2-ci bəndlərə ismin müvafiq hallarında "kartı" sözündən əvvəl "taxoqraf" sözü əlavə edilsin;

8.2.45.4. 4.4-cü və 10.5-ci bəndlərdə "xüsusi təlim" sözləri "hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.45.5. 8-ci hissə və Qeydlər hissəsi ləğv edilsin;

8.2.45.6. 10.6-cı bənddə "təzələnməsi" sözü "yenilənməsi" sözü ilə əvəz edilsin və həmin bənddən "(tarix)", "(ərizəçinin imzası)", "(soyadı, adı, atasının adı)" və "M.Y." sözləri çıxarılsın;

8.2.46. həmin Qaydaya - 5 nömrəli Əlavə üzrə:

8.2.46.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.46.2. "Nəzarətçi kartının ilk dəfə verilməsi və təzələnməsi" sözləri "Nəzarətçi taxoqraf kartının verilməsi və yenilənməsi" sözləri ilə əvəz edilsin;

8.2.46.3. 1-ci hissədən "Ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın və "nəzarətçi" sözündən sonra "taxoqraf" sözü əlavə edilsin;

8.2.46.4. 2-ci, 3-cü, 4-cü, 5-ci (birinci halda), 7-ci hissələrə və 8.1-ci bəndə ismin müvafiq hallarında "kartı" sözündən əvvəl "taxoqraf" sözü əlavə edilsin;

8.2.46.5. 3.4-cü və 8.3-cü bəndlərdə "xüsusi təlim" sözləri "hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.46.6. 6-cı hissə və Qeydlər hissəsi ləğv edilsin;

8.2.46.7. 8-ci hissədən "(tarix)", "(ərizəçinin imzası)", "(soyadı, adı, atasının adı)" və "M.Y" sözləri çıxarılsın;

8.2.47. həmin Qaydaya - 6 nömrəli Əlavə üzrə:

8.2.47.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.47.2. 3-cü hissədən "(tarix)", "(ərizəçinin imzası)", "(soyadı, adı, atasının adı)" və "M.Y." sözləri çıxarılsın;

8.2.48. həmin Qaydaya - 7 nömrəli Əlavə üzrə:

8.2.48.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.48.2. "Rəhbər", "Baş mühasib", "(imza)" (hər iki halda), "(soyadı, adı, atasının adı)" (hər iki halda) və "M.Y." sözləri çıxarılsın;

8.2.49. həmin Qaydaya - 8 nömrəli Əlavə üzrə:

8.2.49.1. yuxarı sağ küncdən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

8.2.49.2. 2-ci hissədə "Xüsusi təlim" sözləri "Hazırlıq" sözü ilə əvəz edilsin;

8.2.50. həmin Qaydaya - 9 nömrəli Əlavənin yuxarı sağ küncündən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 8 aprel tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 397 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 351) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarına buraxılış Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.1-ci bənddə "50.6-cı" sözləri "50.3-cü" sözləri ilə əvəz edilsin;

9.2. 1.3.1-ci yarımbənddən məsul şəxsi (şəxsləri) və" sözləri çıxarılsın və həmin yarımbənddə "Agentlik tərəfindən uçota alınan hüquqi şəxs (o cümlədən xarici hüquqi şəxsin filial və ya nümayəndəliyi) və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs" sözləri "müvafiq icazəsi olan hüquqi və ya fiziki şəxs" sözləri ilə əvəz edilsin;

9.3. 2.1-ci bənd və 4-7-ci hissələr ləğv edilsin;

9.4. 2.2.1-ci yarımbəndin 2-ci abzasında "fərdi sahibkarın və ya hüquqi şəxsin idarəetmə orqanının rəhbərinin (rəhbərlərinin)" sözləri "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 13.1.1-ci maddəsində nəzərdə tutulan icazəni almaq istəyən hüquqi şəxsin, o cümlədən xarici hüquqi şəxsin filialı və ya nümayəndəliyinin (bundan sonra - hüquqi şəxs) idarəetmə orqanının rəhbərinin (rəhbərlərinin) və ya fiziki şəxsin (bundan sonra - fərdi sahibkar)" sözləri ilə əvəz edilsin;

9.5. 2.2.1-ci yarımbəndin 3-cü abzasında "operator kimi uçota alınmaq" sözləri "müvafiq icazənin alınması" sözləri ilə əvəz edilsin;

9.6. 2.2.3-cü yarımbəndin 3-cü abzası aşağıdakı redaksiyada verilsin:

"3. operatorun məsul şəxsinin (şəxslərinin), habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirəcək sürücünün (sürücülərin) peşəkarlıq səriştəsi ilə bağlı hazırlıq və ya yenidən hazırlıq keçməsi və hazırlıq və ya yenidən hazırlığın yekununda aparılmış qiymətləndirmənin nəticələrinə dair sənədə malik olması.";

9.7. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Operatorların uçotunun aparılması

Operatorların uçotu "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, Azərbaycan Respublikası ilə xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək üçün onlara verilən beynəlxalq yük və qeyri-müntəzəm sərnişin daşımalarına buraxılış vəsiqəsi əsasında Agentlik tərəfindən "AYNA" informasiya sistemi vasitəsilə həyata keçirilir.";

9.8. 1 və 2 nömrəli Əlavələr ləğv edilsin.

10. "Sərnişin və yük daşımaları üçün avtonəqliyyat vasitəsinə lisenziya kartı verilərkən, habelə lisenziya kartı verildikdən sonra rübdə bir dəfə həmin avtonəqliyyat vasitəsinin texniki, istismar, təhlükəsizlik və ekoloji tələblərə uyğunluğunun yoxlanılması və həmin yoxlamanın aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 20 may tarixli 82 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 390 (Cild I) ləğv edilsin.

11. "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin (şəxslərinin), habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair hazırlığının və yenidən hazırlığının keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 247 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 977 (Cild I); 2024, № 1, maddələr 111, 113, № 5 (II kitab), maddə 611) ləğv edilsin.

12. "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin, həmçinin beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair hazırlıq və yenidən hazırlıq keçməsi barədə sənədlərin formasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 248 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 978 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***



# Sülh olacaq?!

## İlham Əliyevin şərtlərini İrəvan sözdə yox, əməldə təsdiqləsə, bununla bağlı saziş imzalana bilər

**İkinci Qarabağ müharibəsindən ötən 5 ilə yaxın müddətdə qalib Azərbaycanın məğlub Ermənistana təklif etdiyi sülh sazişi hələ də yalnız müzakirə mövzusu olaraq qalır. Martın 13-də sülh danışıqlarının yekunlaşması ilə bağlı yayılan xoş xəbər sevindirici olsa da, yenə də Ermənistana inam məsələsi tərəddüdlər yaradır.**

Çünki 30 il özünü məzlum xalq kimi göstərib, dünyanı uydurmaları, yalanları ilə aldadan, Azərbaycana ancaq şərböhtan atmaqla məşğul olan, müharibəyə təhrik edən Hayastanın sülh prosesində müsbət addım atması inandırıcı görünmür. Bu, artıq dəfələrlə sübuta yetirilmiş reallıqdır. Hər dəfə sülh müqaviləsinin imzalanması ilə bağlı gündəm yarananda Ermənistan maskalanaraq buna hazır olduğunu bəyan edir. Ancaq iş əmələ çatanda bəlli olur ki, bütün bunlar vaxt qazanmaq üçün edilən imitasiyadır.

İndi keçək martın 13-də yayılan xəbərlərin əsas məzmununa.

Öncə XII Qlobal Bakı Forumu çərçivəsində jurnalistlərə müsahibəsində xarici işlər naziri Ceyhun Bayramov bəyan etdi ki, Ermənistanla Azərbaycan arasında sülh sazişi layihəsi ilə bağlı danışıqlar prosesi yekunlaşıb: "Biz bir neçə dəfə açıqlama vermişdik ki, son iki açıq maddə qalıb. Bu yaxınlarda Ermənistan tərəfi həmin açıq maddələr üzrə Azərbaycan tərəfinin təkliflərini qəbul edib, əlaqə kanalları vasitəsilə bizə çatdırıb. Ona görə mətn üzrə işlərin yekunlaşdırıldığını qeyd edə bilərik".

Nazir həmçinin söyləyir ki, növbəti addım olaraq Azərbaycan tərəfinin gözləntisi Ermənistanın konstitusiyasında və digər normativ-hüquqi aktlarında ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə olan iddiaların konstitusiyada dəyişiklik yolu ilə baş tutmasıdır. Təbii ki, bu, sazişin imzalanması üçün labüd şərtdir. Bundan əlavə, keçmiş münaqişənin qalıqları olan Minsk qrupu və onun digər təsisatlarının ləğv edilməsi vacib amildir.

Bunun ardınca Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşmasına dair bəyanat yaydı.

Bəyanatda deyilir: "Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığını məmnunluqla qeyd edirik. Bununla yanaşı, danışıq aparılmış mətnin imzalanması üçün əsas şərtin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması məqsədilə Ermənistanın konstitusiyasına dəyişiklik edilməsi olduğu barədə Azərbaycanın uzunmüddətli və prinsipial mövqeyini bir daha diqqətə çatdırırıq. Eyni zamanda ATƏT-in köhnəlmiş və qeyri-funksional Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv olunmasının zəruriliyini vurğulayırıq. İki ölkə arasında normallaşma prosesi ilə bağlı bu və digər məsələlər üzrə ikitərəfli dialoqu davam etdirməyə hazırıq".

Həmin gün Ermənistan Xarici İşlər Nazirliyi də məlumat yaydı. Məlumatda Ermənistan XİN-i Azərbaycanın sülh müqaviləsinin mətninin son iki bəndinin razılaşdırılması ilə bağlı bəyanatını təsdiqləyir. Bundan əlavə, İrəvan Bakı ilə sülh müqaviləsinin imzalanma vaxtı və yerini müzakirə etməyə hazır olduğunu bildirir.

Ermənistanın baş naziri Nikol Paşinyan da həmin gün məlumatı təsdiqlədi. Parlament binası yaxınlığında jurnalistlərə açıqlama verən baş nazir dedi ki, Ermənistanla Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin mətni üzrə danışıqlar, mətn üzrə razılaşma ilə başa çatıb və bu, mühüm hadisədir. "Biz artıq qeyd etmişik ki, mətn imzalanmağa hazırdır, imzalanma tarixləri və yeri ilə bağlı müzakirələrə başlamağa hazırıq. Azərbaycan Xarici İşlər Nazirliyi ikitərəfli formatda müzakirələrə başlamağa hazır olduqları barədə bəyanat yayıb. Onların öz ideyaları var, bizim öz ideyamız var və güman edirəm ki, bu müzakirələr zamanı biz bu ideyaları bir-birinə yaxınlaşdırmağa çalışacağıq",- deyə Paşinyan söyləyib.

Qeyd edək ki, Azərbaycan və Ermənistan arasında müzakirə olunan sülh sazişi layihəsi preambula və 17 maddədən ibarətdir. Preambula və 15 maddə razılaşdırılmışdı. Razılaşdırılmayan iki maddə beynəlxalq məhkəmələrdə iddialardan qarşılıqlı imtina və üçüncü dövlətlərin qoşunlarının sərhəddən çıxarılması ilə bağlı idi.

Azərbaycan dəfələrlə erməni tərəfinin daha iki şərti də həyata keçirməli olduğunu xatırladıb. Birincisi, Ermənistan konstitusiyasını dəyişdirməlidir. Çünki konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ muxtar vilayəti Ermənistanın bir hissəsi elan olunub.

İkinci şərt ATƏT-in Minsk qrupunun ləğvidir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq bunu Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Rəsmi Bakı bəyan edib ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda onun qalmağına daha ehtiyac yoxdur.

Baş verən proseslər və Ermənistan tərəfindən verilən açıqlamalara etibar etsək, iki ölkənin sülh sazişini imzalamağa yaxın olduğunu söyləyə bilərik. Lakin Azərbaycan xalqında yenə də nəyəsə əsaslanaraq Ermənistanın düzgünlüyünə əmin olmaq hissi yoxdur. Sanki Hayastan tərəfinin səsləndirdiyi fikirlər həmişəki kimi tülkü maskasının arxasından deyilir.

Hər zaman həqiqətləri söyləyən Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin də bu məsələyə münasibəti birmənalıdır. Cənab İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda keçirilən XII Qlobal Bakı Forumunun açılış mərasimində dövlət başçısı bir daha prosesi dəyərləndirdi: "Biz Cənubi Qafqazda sülhə nail olmalıyıq. Bu baxımdan, Azərbaycan sülh prosesinin təşəbbüskarı olub. Əslində, Azərbaycan hətta bu gün Ermənistanla müzakirə olunan və əsasən razılaşdırılmış sülh sazişi layihəsinin, həmin sülh müqaviləsinin müəllifidir. Bəndlərin əksər hissəsi razılaşdırılıbdır".

Dövlət başçısı bəzi Avropa bürokratlarının Ermənistanı "sülh göyərçini" kimi təqdim etməyə çalışdıqlarını da xatırlatdı və dedi ki, həmin dairələr yəqin Hayastanın keçmiş hökumətinin, hərbi xuntanın hansı vəhşiliklər törətdiklərini yaddan çıxarıblar: "Onlar yaddan çıxarırlar ki, İkinci Qarabağ müharibəsində ermənilər bizim şəhərlərimizi, kəndlərimizi atəşə tuturdu. Yüzdən artıq vətəndaşımızı həmin raketlərə, ixracı qadağan olunmuş "İsgəndər M" raketinə görə itirdik. Biz hələ də suala cavab almamışıq: Ermənistan ordusu "İsgəndər M" raketini necə əldə edib? Çünki Rusiyada bu raketin ixracı yasaqdır. İnanmayanlar isə, - buradan cəmi 5-10 dəqiqəlik yoldur, - getsinlər Hərbi Qənimətlər Parkına və Şuşada tapdığımız "İsgəndər M" raketini görsünlər. Biz onu artıq 2021-ci ilin yazında tapdıq, çünki o, qarın altında qalmışdı. Biz Şuşanı azad etdiyimiz zaman o, şəhərə atılmışdı".

Prezident forum iştirakçılarının diqqətinə çatdırdı ki, məhz bu, Ermənistanın baş nazirinin əmri ilə edilmişdi. Gəncə, Tərtər, Bərdə, Mingəçevir, Ağcabədi və bir çox digər şəhərlər dövri olaraq Ermənistanın atəşinə tutulurdu. Azərbaycan isə bunu etmədi. Yalnız işğalçı Ermənistan ordusuna qarşı mübarizə apardı: "Onlar isə mülki şəxslərlə mübarizə aparırdı. Fərq bundadır. Bu, Birinci Qarabağ müharibəsində də eyni idi. Onlar bir növ bufer zonası yaratmışdılar. Belə adlandırırdılar. Əslində isə bu, işğal olunmuş ərazilər idi. Onlar yüz minlərlə azərbaycanlını qovdular və etnik təmizləmə apardılar. Biz bunu heç vaxt yaddan çıxarmayacağıq. Sizə bir məsələni də deyə bilərəm ki, Ermənistana etimad səviyyəsi sıfıra bərabərdir. Beləliklə, biz onların hər hansı bir sözünə inanmırıq".

Əgər rəsmi İrəvan İlham Əliyevin sülh gündəliyindəki şərtlərə əməl edərək Azərbaycanla barış əldə etmək istəyirsə, reallıqlarla barışmalı, kimlərinsə diktəsi ilə hərəkət etməməli, konstitusiyasında dəyişiklik tələbini yerinə yetirməlidir. Əks təqdirdə, sülh olmayacaq!

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2025-ci ilin aprel ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 3 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 4, 11, 25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 8, 22 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 18 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 21 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 23 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 25 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 25 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 28 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 29 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 30 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

# Ermənistanın 90 faizi Paşinyana inanmır

Ermənistanda postmüharibə dövründə yaranan sosial-iqtisadi durum bu ölkədə əhalinin yaşayış səviyyəsinin daha böyük sürətlə pisləşməkdə olduğunu göstərir. Bu fonda "4rd.am" nəşri qeyd edir ki, istənilən ölkədə sənayenin bərpası, ilk olaraq, ölkəyə qoyulan investisiya və ayrılan kreditlər hesabına təşəkkül tapır: "İndi isə gəlin baxaq - müharibədən sonra Ermənistana sərmayə qoyan hər hansı bir investorla rastlaşan olubmu? Əksinə, müharibəyə qədər ölkədə mövcud olan azsaylı investorlar da Paşinyan hakimiyyətinə olan inamsızlıq üzündən Ermənistanı tərk ediblər. Deməli, Ermənistanın "yüksəlişdə" olan sənaye istehsalı investorlar tərəfindən aşağı səviyyədə qiymətləndirilib".

Qeyd olunur ki, bu halda ümid ancaq bank kreditlərinə qalır ki, burada da bank rəhbərləri inamsızlıq ucbatından "Ermənistan iqtisadiyyatı"nın real sektoruna daxil olmaqdan çəkinirlər. Təsadüfi deyil ki, Ermənistanda son iki ildə ölkə sənayesinə kredit qoyuluşları 35 milyon dollar azalıb. Belə vəziyyətdə artıq iflic olan Ermənistan iqtisadiyyatının rəqabətə davamlılıq reytinqi aşağı düşməkdədir. Ölkə iqtisadiyyatının rəqabət imkanları nəzərəçarpacaq dərəcədə zəifləyib. Buna səbəb dövlət rəsmilərinin korrupsiyaya qurşanması, qanunun aliliyi ilə bağlı problemlərin həllini tapmaması və biznes üçün bərabər şəraitin yaradılmamasıdır. Məhkəmə sisteminin müstəqilliyi yarıtmaz vəziyyətdədir, vergilərin toplanmasında korrupsiya halları geniş vüsət alıb, hökumət iqtisadi inhisarçılığa qarşı mübarizə aparmaqda acizdir.



Bütün bunlar əhalinin ciddi narazılığına səbəb olmaqdadır. Bunu keçirilən sosioloji sorğular da təsdiq edir. Belə ki, "Gallup"un vətəndaşlar arasında keçirdiyi sorğusunun son nəticələrinə əsasən, bu bazar seçkilər keçirilsə, "Mülki Müqavilə" Partiyası 11,8, Ermənistan bloku 4,7, MLC partiyası isə 3,5 faiz səs toplayacaq.

İravunk nəşri yazıb ki, hakimiyyət bu müddət ərzində öz sorğusunu keçirib və real reytinq mənzərəsinə aydınlıq gətirib ki, bu da nikbinlik yaratmır: "Əldə etdiyimiz məlumata görə, "Mülki Müqavilə"nin reytinqi respublika üzrə cəmi 10 faizdir. Bu kontekstdə Nikol Paşinyana başa salıblar ki, hətta total inzibati resurslardan istifadə etməklə belə, ən yaxşı halda Gümrü Ağsaqqallar Şurasına keçiriləcək seçkilərdə 14-15 faiz səs qazanacaq. Artıq sirr deyil ki, hökumətin reytinqi sürətlə aşağı düşməkdə davam edir. Məhz buna görə hakimiyyət mövcud reytinq mənzərəsini dəyişmək ümidi ilə əsas müxalifət qüvvələrinə qarşı yeni repressiyalar həyata keçirməyə başlayıb".

Erməni politoloq Manvel Qasparyan isə deyib ki, Paşinyanın sayəsində Ermənistan region dövlətlərinə qarşı alətə çevrilib və bu, daha pis proqnozlar üçün əsas verir. Çünki Ermənistan həm siyasi, həm də ola bilsin, ərazi baxımından qonşu dövlətlər arasında bölünəcək. Bu da onların milli təhlükəsizliyinin maraqları ilə müəyyən ediləcək. O qeyd edib ki, Qərb təxribat törədəcək və təbii ki, uğursuzluğa düçar olub, kənara çəkiləcək. Bundan sonra erməni siyasiləri ənənəyə uyğun olaraq, düşüncə orqanının beyin olduğunu unudub taleyi söyməyə başlayacaq. Onlar yenə də anlamayacaqlar ki, beyindən maksimalizm çərçivəsində deyil, realizm çərçivəsində istifadə etmək lazımdır: "Güman edirəm ki, Ermənistanın bəzi rayonları hansısa ölkə ilə birgə idarəyə keçəcək. Bundan əlavə, Ermənistanda ən azı daha bir xarici silahlı kontingent yerləşdiriləcək. Paşinyan ruslarla qarşıdurmanı davam etdirmək üçün Qərbi ölkəmizə dəvət edəndə Ermənistandan heç nə qalmayacağı aydın idi. Hazırkı rəhbərlik Rusiya ilə qarşıdurma ilə yanaşı, Ermənistanı İrana qarşı əməliyyat meydanına da çevirir".

Qeyd edilənlər Ermənistanın üzləşdiyi ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir və məğlub ölkənin indi daha böyük sürətlə öz məhvinə doğru sürükləndiyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## Demokratiyanın iki üzü - ədalətin ikili standartı

# Ermənistanın beynəlxalq hüquq müstəvisində növbəti məğlubiyyəti

### BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupu Ruben Vardanyanın işi ilə bağlı bu ölkənin iddialarını rədd edən rəy bildirib

**Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi davam etdirilir.**



Ermənistan tərəfi R.Vardanyanın məhkəməsi üzərindən beynəlxalq ictimaiyyəti çaşdırmağa yönəlik manipulyasiyalar həyata keçirir, guya onun əsassız həbs olunması ilə bağlı qarayaxma kampaniyası aparır. Bu ölkənin Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupuna Ruben Vardanyan işi ilə bağlı müraciəti də elə bu qəbildən idi. Lakin sözügedən İşçi Qrupu Ruben Vardanyan işi ilə bağlı martın 13-də Ermənistan tərəfinin iddialarını rədd edən yekun rəy dərc edib.

### "Vardanyan şou" bitdi

44 günlük müharibədən sonra Rusiya vətəndaşlığından çıxaraq Qarabağa gələn R.Vardanyan burada Azərbaycan qanunlarına zidd fəaliyyətlə məşğul olmağa başlayıb. Hətta onun çox qısa müddətdə buradakı quldur rejimin "dövlət naziri" seçilməsinin özü böyük şübhə doğururdu. Həmin zaman fəaliyyətini separatizmi gücləndirməyə, vəziyyəti gərginləşdirməyə həsr edən R.Vardanyan dialoq prosesinə mane olmağa, təhlükəsizliyə təhdidlər yaratmağa başlamış, pul vəsaitlərini Qarabağdakı qanunsuz silahlı birləşmələrin terrorçuluq fəaliyyətinin təşkilinə yönəltmişdi. Azərbaycanın suveren ərazilərində sərvətlərimizin talançılığı ilə məşğul olan Vardanyan həm də ardarda verdiyi cəfəng açıqlama və bəyanatları ilə həddini aşırdı. O, tarixi təhrif edən tamamilə yalan və böhtan xarakterli məlumatlarla əsl həqiqətləri pərdələmək istəyirdi.

2023-cü ildə həyata keçirilən antiterror tədbirləri sayəsində Qarabağda quldur yuvasını dağıdan "dəmir yumruq" Vardanyanın bu özbaşınalıqlarına və cinayət əməllərinə də birdəfəlik son qoydu. Sonra isə növbə Vardanyanın törətdiyi qeyri-qanuni əməllərə görə hüquq müstəvisində cavab verməsinə çatdı.

Törətdiyi qeyri-qanuni əməllərə görə Ermənistan vətəndaşı Ruben Vardanyan 2023-cü il sentyabrın 27-də saxlanılaraq, ittiham elan edilməklə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunub. Barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilən R.Vardanyanın məhkəmə prosesi hazırda davam edir.

Onun barəsində cinayət işi üzrə məhkəmə prosesinin martın 11-də keçirilən baxış iclasında şahid qismində ifadə verən, Qarabağda yaşayan erməniəsilli şəxs Hayrapetyan Kamo Eduardoviç R.Vardanyanın sponsorluq edərək Azərbaycana qarşı vuruşmaq üçün yaşı 45-50-dək olan insanlardan ibarət dəstələr yaratdığını, onları maliyyələşdirdiyini bildirib. Şahid deyib ki, R.Vardanyan Xankəndiyə gəldikdən sonra 44 günlük müharibədə Azərbaycanın qaytardığı ərazilərin sərhədlərində onun maliyyəsi ilə minalanma işləri aparılıb. O qeyd edib ki, həmin minalar Laçın yolu ilə Ermənistandan Qarabağa gətirilib. Həmçinin o deyib ki, Ruben Vardanyanın maliyyələşdirməsi nəticəsində Xankəndi ətrafında 2, Əsgəranda isə 1 ədəd olmaqla, ümumilikdə 3 hərbi anbar yaradılıb. Həmin anbarlarda Ermənistan ordusu, Qarabağdan seçilmiş hərbçilər fəaliyyət göstəriblər. Ruben Vardanyan tərəfindən bütün erməni sakinlərin silahlanaraq azərbaycanlılara qarşı vuruşması təbliğ edilib. 2022-2023-cü illərdə Ruben Vardanyanın Xankəndi şəhərinə gələrək burada Azərbaycana qarşı təbliğata başladığını söyləyən şahid deyib: "Ruben Vardanyanın gəlişindən sonra erməni sakinlərdə Azərbaycana qarşı düşmənçilik meyilləri gücləndi. Ruben Vardanyan erməni sakinlərin azərbaycanlılara nifrət etməsinə çalışırdı".

Onu da deyək ki, Vardanyan məsuliyyətdən yaxa qurtarmaq üçün Bakıda şoular göstərir. Məhkəmə prosesləri zamanı suallara cavab verməyərək susan hoqqabazın "aclıq aksiyası" isə bu günlərdə başa çatıb... Lakin bütün bu oyunlarla diqqətləri özünə çəkmək istəyən Vardanyanın mənfur niyyətləri gözündə qalır.

### "Onun həbsi əsaslı şübhələr əsasında həyata keçirilib"

Ermənistan tərəfinin Vardanyanın məhkəməsinə qarşı Azərbaycan əleyhinə apardığı qarayaxma kampaniyası da fiaskoya uğradı. BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupunun R.Vardanyan işi ilə bağlı martın 13-də rəsmi olaraq dərc etdiyi yekun rəyi buna ən bariz nümunədir.

Yekun rəydə göstərilir ki, Azərbaycanın Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Cinayət Məcəlləsinin terrorçuluğu maliyyələşdirmə, qanunsuz silahlı birləşmələrin yaradılmasında iştirak və dövlət sərhədini qanunsuz keçmə maddələri üzrə təqsirləndirilən R.Vardanyana qarşı irəli sürülən ittihamlar konkret dəlillərlə əsaslandırılıb, barəsində bu əsasların tədqiq edildiyi məhkəmə qərarı ilə həbs seçilib, istintaq zamanı bildiyi dil üzrə tərcüməçi təyin edilib, öz vəkili tərəfindən müdafiə olunmaq və digər prosessual hüquqları təmin olunub.

BMT-nin İnsan Hüquqları Şurasının Vardanyan işi ilə bağlı rəyini alqışlayan Azərbaycan Xarici İşlər Nazirliyinin bununla bağlı bəyanatında bildirilir ki, İşçi Qrup öz rəyində Ermənistan tərəfinin Ruben Vardanyanın ifadə azadlığı və siyasi fəaliyyətinə görə həbs olunduğu barədə iddialarını açıq şəkildə rədd edib. Sözügedən rəydə xüsusilə vurğulanır ki, Ruben Vardanyan Azərbaycan Respublikası tərəfindən bir sıra şəxslərin ölümündə və genişmiqyaslı dağıntılar törədilməsində, terrorçuluğun maliyyələşdirilməsində, qeyri-qanuni silahlı birləşmələr yaradılmasında və digər cinayətlərdə ittiham olunur və məhz bu ittihamlar əsasında həbs olunub.

Vurğulanıb ki, bununla yanaşı, onun öz haqlarını müdafiə etməsi və bu çərçivədə bəyanatlar verməsi səbəbindən həbs olunduğu barədə Ermənistan tərəfinin iddiaları əsassız sayılıb: "İşçi Qrupun rəyində qeyd olunub ki, ifadə və birləşmək azadlıqları mütləq hüquqlar deyil və onlar xüsusilə milli təhlükəsizlik və ictimai asayişlə bağlı səbəblərə görə məhdudiyyətlərə məruz qala bilər. Rəyə əsasən, R.Vardanyana qarşı ittihamların onun hərəkətlərinin milli təhlükəsizliyə təhdid törətdiyi qənaətinə gəlməyə imkan verir".

Qeyd olunur ki, ittiham irəli sürülən zaman və məhkəmə prosesində guya R.Vardanyanın "təqsirsizlik prezumpsiyasını" qüvvədən salan hərəkətlərə yol verildiyi barədə Ermənistan tərəfinin iddialarına rəy verilərkən bildirilir ki, onun həbsi əsaslı şübhələr əsasında həyata keçirilib: "Belə ki, guya Ruben Vardanyanın müdafiəsinə hazırlaşmaq üçün adekvat vaxt və şərait verilmədiyi, onun bu və digər ədalətli məhkəmə hüquqlarından məhrum edildiyi barədə Ermənistan tərəfinin iddialarına baxmayaraq, İşçi Qrup bu iddiaların əsassız olduğu qənaətinə gəlib və Azərbaycan tərəfindən hüquqi prosedurların beynəlxalq standartlara uyğun təmin olunması təsdiqlənib".

Göründüyü kimi, hər nə qədər Ermənistan tərəfi R.Vardanyanın həbsi ilə bağlı və məhkəmə prosesinə qarşı Azərbaycan əleyhinə kampaniyaya başlasa da, faktlara, hüquqa dayanan reallıqlar qarşısında yenidən məğlubiyyət acısı dadmalı oldu.

BMT-nin İşçi Qrupunun Ermənistanın əsassız iddialarını rədd etməsi təcavüzkar ölkənin beynəlxalq hüququn normalarını pozmaq cəhdlərini növbəti dəfə alt-üst etdi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İtkin talelilərin faciəsi

### Bu günədək 4 minə yaxın azərbaycanlı barədə məlumat verməyən Ermənistan törətdiyi hərbi cinayət əməllərinin məsuliyyətindən yayınmağa çalışır

**30 ildən çoxdur ki, yaxınları, doğmaları əzabqarışıq səbrlə, tükənməz ümidlə onların yolunu gözləyirlər...**

Hər açılan qapıya sarı həsrətlə boylanırlar, bəlkə gələn odur - anamdır, atamdır, bacımdır, qardaşımdır, həyat yoldaşımdır, oğlumdur, qızımdır deyə...

Elə hey qulaqları səsdədir, bəlkə bir xəbər eşidərlər deyə... Fərqi yoxdur, lap qara xəbərə də hazırlıqlıdırlar, təki onlardan bir xəbər-ətər eşitsinlər...

Çünki bu illər ərzində nə əzizlərini ölü kimi ağlaya biliblər, nə də onların sağ olduqlarını bilib təsəlli tapıblar...

Onilliklərdir ki, taleləri zülmət pərdəsinə bürünmüş minlərlə insanımızın yaxınları, doğmaları bu məchulluq, naməlumluq boşluğunda ümidlə nagümanlığın arasında var-gəl edirlər...

İtkin insan olmaq kimi dəhşətli alın yazısına sahib olmaq bir faciə, həmin insanların yaxını olmaq isə bir ayrı təsviredilməz dərddir...

Bu, ölümdən də betərdir...

Təsəvvür edin ki, biz işğaldan azad edilmiş torpaqlarımızda aşkarlanan kütləvi məzarlıqlar sayəsində itkinlərinin taleyinə aydınlıq gələn insanlarımızın doğmalarının ölümünə necə yanmaları, onlardan heç olmazsa kiçik bir nişanə belə tapılmasına görə necə sevinc göz yaşları tökmələri kimi eyni anda yaşadıqları təzadlı tükürpədici hisslərə dəhşətlə şahid olmuşuq...

Erməni şovinistlərinin xalqımızın başına gətirdikləri bütün bu müsibətlər qan yaddaşımızdır və əsrlər keçsə də, bunu unutmayacağıq!

### Qanlı əməllərin statistikası

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 3983 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 3977 nəfəri Birinci Qarabağ müharibəsində, 6 nəfəri isə 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində itkin düşüb. İtkin düşmüş 3983 nəfərdən 3209-u hərbçi, 774-ü mülki şəxslərdir.

Bu statistikanın özü də ermənilərin milli nifrət zəminində xalqımıza qarşı törətdiyi hərbi cinayət əməlləri barədə faktlardan biridir. Hələ ötən əsrlərdən etibarən "dənizdən-dənizə böyük Ermənistan" yaratmaq kimi cəfəng ideyanı ortaya ataraq azərbaycanlıları etnik təmizləməyə məruz qoyan hay şovinistləri bu murdar ideyanın növbəti mərhələsi olaraq, azərbaycanlıları tarixən yaşadıqları ərazilərdən deportasiya etmək, Qarabağı Ermənistana birləşdirmək üçün 1980-ci illərin sonlarından etibarən açıq şəkildə separatçı əməllər və milli zəmində təxribatlar törətməyə başlayıblar. Qondarma dövlət olan Ermənistan tərəfindən Azərbaycana qarşı təşkil olunan və həyata keçirilən bu cinayət əməlləri Birinci Qarabağ müharibəsi boyu da davam etdirilib, saysız faciələr törədilib. Mülki əhalimiz, hərbçilərimiz əsir və girov götürülüb, soydaşlarımıza olmazın işgəncələr verilib, onlar xüsusi amansızlıqla öldürülüb.

Martın 10-da Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (International Commission on Missing Persons - ICMP) "Azərbaycan Respublikasında itkin düşmüş şəxslərin axtarışı üzrə qiymətləndirmə hesabatı"nın təqdimat mərasimində Dövlət Komissiyasının katibi Qəzənfər Əhmədov bildirib ki, itkinlərdən 3698-i kişi, 285-i qadındır. Bu müddət ərzində 1702 nəfər əsir və girovluqdan azad olunmuş şəxs kimi Dövlət Komissiyasında qeydiyyata alınıb ki, onlardan 419-u hərbçidir.

Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini, general-leytenant Şərafət Həsənov söyləyib ki, münaqişə davam etdiyi müddətdə Ermənistan silahlı birləşmələri tərəfindən etnik təmizləmə və soyqırımı cinayətləri törədilib, mülki azərbaycanlı əhali kütləvi şəkildə qətlə yetirilib, əsir-girov götürüldükdən sonra qeyri-insani şəkildə saxlanılaraq dəhşətli işgəncələrə və məhrumiyyətlərə, humanizm prinsiplərindən kənar rəftara məruz qoyulub. Bütün bu hallar vətəndaşlarımızın itkin düşməsinə və taleyinin bu günə kimi qeyri-müəyyən qalmasına səbəb olub: "İtkin düşmüş mülki şəxslərdən 75 nəfər yetkinlik yaşına çatmamış, 116-sı qadın, 315-i isə yaşlı insanlardır. "İstintaqla sübut edilib ki, 170 azərbaycanlı əsir Ermənistan silahlı birləşmələri tərəfindən işgəncələrlə öldürülüb. İtkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi yaxın illərdə bizim ən vacib vəzifələrimizdən biridir".



### İtkin düşmüş 165 nəfərin meyit qalıqları müəyyən edilərək ailələrinə təhvil verilib

İndiyə qədər Ermənistan tərəfi taleyi naməlum olan vətəndaşlarımızla bağlı heç bir məlumat verməyib. Vətən müharibəsindən sonra da Azərbaycanın Ermənistana qarşı əsas tələblərindən biri Birinci Qarabağ müharibəsində itkin düşmüş 4 minədək azərbaycanlı haqqında məlumatı, eləcə də kütləvi məzarlıqların koordinatlarını verməsi barədədir. Ermənistan isə hələ də bu tələbləri yerinə yetirməyərək xalqımıza qarşı törətdiyi cinayətləri gizlətməyə çalışır. Ancaq işğaldan azad edilmiş ərazilərimiz vaxtilə Ermənistanın basdırdığı minalardan təmizləndikcə ardarda aşkarlanan kütləvi məzarlıqlar təcavüzkar ölkənin qanlı əməllərini də təkzibolunmaz faktlarla ortaya çıxarır. Məlum olur ki, erməni caniləri Birinci Qarabağ müharibəsi dövründə əsir və girov götürdükləri Azərbaycan vətəndaşlarını beynəlxalq hüququn tələblərinə uyğun olaraq, Azərbaycana qaytarmaq əvəzinə onlara insanın ağlına gəlməyən tükürpədici işgəncələr verərək qətlə yetiriblər və kütləvi şəkildə basdırıblar.

Qarabağ və Şərqi Zəngəzurun hər yerində aşkarlanan kütləvi məzarlıqlar 4 minə yaxın itkin vətəndaşımızın - körpələrimizin, uşaqlarımızın, yeniyetmələrimizin, gənclərimizin, ahıllarımızın taleyinin faciəvi sonunu, onların da erməni canilərinin qurbanı olduğunu və erməni faşizminin miqyasını gözlər önünə sərir.

Yuxarıda sözügedən tədbirdə Dövlət Komissiyasının katibi Q.Əhmədov məlumat verib ki, 2021-ci ilin fevral ayından etibarən işğaldan azad edilmiş ərazilərdə itkin düşmüş şəxslərə aid edilən məzar yerlərinin axtarışı, qazıntısı, ekshumasiya və aşkarlanmış meyit qalıqlarının eyniləşdirilməsi prosesinə intensiv şəkildə başlanılıb. Son məlumata əsasən, 688 itkin düşmüş şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları aşkarlanıb. Meyit qalıqları 3 istiqamət üzrə müəyyən olunub. İşğaldan azad olunmuş ərazilərdə aparılmış qazıntılar zamanı aşkarlanmış 23 kütləvi məzarlıqdan 187 şəxsə, həmin ərazilərdə aparılan genişmiqyaslı tikinti-quruculuq işləri və həyata keçirilmiş digər təxirəsalınmaz tədbirlər nəticəsində 309 şəxsə, Birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş və respublikanın 15 şəhər və rayonunun ərazisində yerləşən 23 qəbiristanlıqda tanınmadan dəfn edilmiş naməlum şəhid məzarlarından 192 nəfərə aid meyit qalıqları ekshumasiya olunub.

Qeyd olunub ki, həmin vaxtadək aşkarlanmış meyit qalıqlarının məhkəmə molekulyar-genetik ekspertizasının nəticəsi olaraq, Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 165 nəfərin şəxsiyyəti eyniləşdirilərək ictimaiyyətə açıqlanıb, ailələrinə təhvil verilib, onlar qanunvericiliyin tələblərinə və milli-dini ənənələrə uyğun dəfn ediliblər.

### Haqq öz yerini tapdı

Dəhşətli reallıqlardan biri də budur ki, beynəlxalq ictimaiyyət hələ də itkin vətəndaşlarımızın taleyinin müəyyən olunması istiqamətində Ermənistana heç bir təzyiq göstərmir. Ancaq Azərbaycan özü ilahi ədaləti təmin edib, erməni faşizminin qurbanına çevrilən vətəndaşlarımızın qisaslarını alıb. Torpaqlarımız azadlığına qovuşdurulub, Qarabağdakı quldur yuvası dağıdılaraq suverenliyimiz tam təmin edilib. Həmçinin əsir və girov götürdükləri minlərlə vətəndaşımızı dəhşətli işgəncələrlə qətl edən erməni caniləri Bakıda mühakimə edilirlər. Digər erməniəsilli təqsirləndirilən şəxslər də törətdikləri hərbi cinayətlərə görə yarğılanacaqlar. Gec-tez Robert Koçaryan, Serj Sarkisyan kimi uşaq qatilləri də bu ittiham kürsüsünə əyləşdiriləcəklər...

Eyni zamanda Ermənistan törətdiyi hərbi cinayət əməllərinin məsuliyyətindən yayınmağa çalışsa da, buna nail olmayacaq. İşğalçı və təcavüzkar ölkə beynəlxalq hüquq qarşısında mütləq cavab verəcək.

*Yasəmən QƏNAƏTQIZI,*
*"Azərbaycan"*




# Xocalının Ballıca kəndinə köçən daha 24 ailəyə evlərinin açarları təqdim olunub













**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir. Martın 14-də respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdamdan Xocalının Ballıca kəndinə yola salınıb.**



AZƏRTAC xəbər verir ki, bu mərhələdə Ballıca kəndinə 24 ailə - 98 nəfər köçürülür. Doğma yurda qayıdan keçmiş məcburi köçkünlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 40 minə yaxın insan yaşayır.

Martın 14-də respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Xocalı rayonunun Ballıca kəndinə çatıb.

AZƏRTAC xəbər verir ki, dünən Ballıca kəndində 24 ailə olmaqla, 98 nəfər keçmiş məcburi köçkün doğma yurda qovuşub. Köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

İşğaldan azad edilmiş ərazilərdə ötən ilin sonunadək 10,2 mindən çox keçmiş məcburi köçkün (2615 ailə) artıq evlərlə təmin olunub və orada məskunlaşıb.

Xocalının Ballıca kəndinə köçürülən 98 nəfərdən ibarət 24 ailə evlərinə yerləşiblər.

Ölkənin müxtəlif şəhər və rayonlarından yola salınan keçmiş məcburi köçkünləri doğma ata-baba yurdlarında Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qarşılayıblar.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin iştirakı ilə onlara evlərinin açarları təqdim edilib və ailələr yeni evlərində yerləşiblər. Bu günədək Xocalı rayonunun Ballıca kəndinə, ümumilikdə, 136 ailə, 660 nəfər köçürülüb.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhramanov bildirib ki, köçürülən ailələrin işlə təmin edilməsi xüsusi diqqətdə saxlanılır. Kəndə köç edən sakinlər müvafiq qurumlar tərəfindən peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediləcək, müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində, tikiş fabrikində və digər yerlərdə çalışacaqlar. Köçürülmüş əhali üçün bütün infrastruktur, şərait - dövlət xidmətləri mərkəzi, məktəb, bağça, ictimai iaşə obyektləri və sair imkanlar mövcuddur.

Ballıca kəndinə köç bundan sonra da mərhələli şəkildə davam edəcək. Bunun üçün kənddə təmir və bərpa tikinti işləri davam etdirilir.

*Keçmiş məcburi köçkün:*

## "33 ildən sonra bahar bayramını doğma yurdumuzda qeyd edəcəyik"



**"Hər Novruz bayramında Allahdan arzu edirdik ki, növbəti bayramı Qarabağda keçirək. İndi arzularımız gerçəkləşir. 33 ildən sonra bahar bayramını doğma yurdumuzda qeyd edəcəyik".**

Bu sözləri Ağdamda AZƏRTAC-a açıqlamasında Xocalının Ballıca kəndinə köç edən keçmiş məcburi köçkün Zenfira Hümbətova deyib.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun tarixi qələbə qazandığını bildirən Zenfira Hümbətova qəhrəman Vətən övladlarının sayəsində öz doğma yurdlarına qayıtdıqlarını vurğulayıb.

*Xocalı sakini:* "Hər bir insan üçün doğma Vətəni, doğulduğu yer daha əzizdir"

**"Hər bir insan üçün doğma Vətəni, doğulduğu yer daha əzizdir, şirindir. Odur ki, köçkünlük illərində daim uşaqlığımın keçdiyi yerləri xatırlayır, doğma yurdumu yenidən görməyi, havasını udub, suyunu içməyi arzu edirdim. Şükürlər olsun ki, Prezidentimizin, ordumuzun sayəsində bu arzum gerçəkləşdi".**



Bu sözləri Ağdamda AZƏRTAC-a açıqlamasında Xocalının Ballıca kəndinə köç edən keçmiş məcburi köçkün Coşğun Əhmədov deyib.

"Atalarımız "Qürbət görməyən adam Vətən qədri bilməz" - demişlər. Biz qarabağlılar Vətənimizdən didərgin düşüb atalarımızın bu sözünü yaşamış, anlamışıq. Allah bizi bir daha Vətənimizdən ayrı salmasın", - deyə Xocalı sakini bildirib.

# Həqiqətlər, etiraflar və Ermənistanın yalanları...

**Günlərdir ki, Bakı Məhkəmə Kompleksində Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesi davam etdirilir.**



Xatırladaq ki, 1987-ci ilin oktyabr ayından 2024-cü il 22 aprel tarixinədək törədilmiş cinayətlərin bir qismi ilə bağlı Baş Prokurorluq və respublikanın ayrı-ayrı istintaq qurumlarında istintaq edilən 1389 cinayət işi bir icraatda birləşdirilib. İstintaqa Baş Prokurorluğun, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsinin müstəntiqləri cəlb edilib.

Qeyd edildiyi kimi, hazırkı məhkəmə prosesi ədalətin bərqərar olması naminə keçirilir. Cinayət işində olan sübutlar faktlara əsaslanmaqla göstərir ki, törədilmiş cinayətlər ayrı-ayrı təsadüfi hadisələr olmayıb, onlar ən yüksək səviyyədə mütəşəkkil qaydada planlaşdırılaraq xüsusi qəddarlıqla və amansızlıqla törədilib. Məhkəmədə son 30 ildə ermənilər tərəfindən törədilən bütün vəhşiliklərin mahiyyəti açılır. Prosesin gedişindən, təqsirləndirilən şəxslərin verdiyi ifadələrdən, etdikləri etiraflardan aydın olur ki, tədqiq və təqdim edilən cinayətlər Ermənistan dövlətinin siyasi, hərbi, maddi və digər dəstəyi, bu ölkənin siyasi-hərbi rəhbərliyinin verdiyi göstəriş və təlimatları nəticəsində törədilib. Azərbaycanın 20 faiz ərazisinin işğalı Ermənistanın rəhbərliyi tərəfindən planlı şəkildə həyata keçirilib. Ermənistanın keçmiş rəhbərləri terror ideologiyasının banilərindən olub. Aparılan məhkəmə prosesinin belə dəhşətli cinayətlərin təkrarlanmasının qarşısını almaq üçün mühüm tarixi əhəmiyyəti var. Tarix sübut edir ki, müharibə cinayətkarları üçün dünyanın heç bir yerində təhlükəsiz sığınacaq, məkan yoxdur və beynəlxalq münasibətlər güc və zorakılıqla deyil, hüquq və qanunla nizamlanmalıdır.

Ermənistanın dövlət rəhbərləri törədilən cinayətlərdə iştiraklarının məhkəmədə təsdiq olacaqlarını bildikləri üçün məhkəmə başlamamışdan yalan məlumatlar yayıb, hay-həşir salmaqla dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların diqqətini əsl mətləbdən yayındırmağa əsassız cəhdlər edirlər. Demək olar ki, Ermənistan mətbuatı və hökuməti bu işə səfərbər olublar. Məhkəmənin ilk iclasında təqsirləndirilən şəxslərin verdiyi ifadələr soyuq su effekti yaratdı. Ermənistan mətbuatının və baş nazir Nikol Paşinyanın yaydığı yalan məlumatlar, ölkəmiz əleyhinə yönəlik saxta ittihamlar bumeranq kimi öz başlarına düşdü.

Məhkəmədə Arayik Harutyunyan söz alaraq deyib: "Təcridxanada bizim məlumat almaq, etiraz etmək imkanlarımız olub. Həmçinin Ermənistan mediasında və digər kütləvi informasiya vasitələrində bizim saxlanma şəraitimiz daim müzakirə olunur. Başa düşdüyüm qədərilə Ermənistan Respublikasının baş naziri bəyan edib ki, bizə qarşı psixoloji təzyiq və həmçinin psixotrop dərmanlardan istifadə edilməsi barədə fikirləri var. Mən ən çox bizim doğmalarımız, yaxınlarımız barədə narahatlıq keçirirəm. Bəyan etmək istəyirəm ki, mən saxlanma şəraitinə dair qanunla tanışam. Təcridxanada bütün qanunlara əməl olunur, Beynəlxalq Qırmızı Xaç Komitəsi vaxtaşırı olaraq bizi ziyarət edir. Bizim ailə üzvlərimizlə telefon zəngi imkanlarımız olur. İstintaq dövründə də müstəntiqlər tərəfindən hüquqlarımız təmin olunub. Vəkillər həmişə istintaqda iştirak ediblər. Xüsusilə qeyd etmək istəyirəm ki, bizə qarşı hər hansı bir təzyiq olmayıb. İstintaq zamanı bizimlə hər zaman qanun çərçivəsində davranıblar".

Təqsirləndirilən şəxs Davit Babayan da saxlanma şəraitindən razı olduğunu, ona və digər təqsirləndirilən şəxslərə təzyiq göstərilmədiyini deyib.

### Etiraflar...

Məhkəmədə sərbəst ifadə verən təqsirləndirilən şəxs Lyova Mnaksakanyan Ermənistan nizami ordusunun tərkibində Azərbaycana qarşı müharibədə iştirakını təsdiq edib: "Ermənistan nizami ordusunun tərkibində Azərbaycana qarşı müharibədə iştirak etmişəm. Bundan başqa, demək istəmirəm əmr nə haqqındadır, bunu hamınız bilirsiniz".

Lyova Mnaksakanyan həmçinin 2016-cı ilin Aprel döyüşləri barədə də danışıb və Ermənistanın qondarma rejimi silahla təmin etdiyini bildirib: "Mənim 2016-cı il əməliyyatlarına cəlb olunmağıma zərurət olmayıb. Əgər olsaydı, təbii ki, cəlb olunacaqdım. Bir çox taktiki, kəşfiyyat silahları və radio elektron qurğularımız var idi ki, onlardan Ermənistanda da olub və biz o silahları Ermənistandan almışıq".

Arayik Harutyunyan "Qarabağ ordusu"nun təlimlərini müşahidə etdiyini bildirərək təlimlərə Ermənistan ordusunun qərargah rəisi Onik Qasparyanın rəhbərlik etdiyini, habelə Azərbaycanın dərinliklərinə zərbələr endirilməsi barədə qərarların Ermənistandan verildiyini etiraf edib: "Təlimlərə rəhbərliyi Ermənistan ordusunun qərargah rəisi Onik Qasparyan edirdi. Bu da gizlin proses deyil, hamının gözünün qarşısında olan bir şey idi. Yayın sonunda Qarabağa Nikol Paşinyan gəldi. Mən onu "ordu bölmələri"nə qədər müşayiət etmişəm. O, vəziyyətlə tanış oldu. Eşidirdim, görürdüm ki, "silahlı qüvvələr"də nə baş verir... Ermənistan mətbuatında da bu barədə dəfələrlə qeyd olunub, deyilib ki, Qarabağda olan ermənilərin təhlükəsizliyinə görə Ermənistan məsuliyyət daşıyır. Ermənistan silahlı qüvvələri, "Qarabağ müdafiə ordusu" da ora daxil idi. Deməli, Ermənistan təhlükəsizliklə bağlı məsələlərə görə məsuliyyət daşıyır. Sentyabrın 27-də sizə məlumdur ki, genişmiqyaslı müharibə başladı. "Qarabağın qanunları"na uyğun olaraq, biz hərbi vəziyyət elan etməli idik və onu da etdik. "Parlament"də məlumat verildi ki, müharibə başlayıb. "Qarabağ ordusu"nun rəhbərliyi tərəfindən elan olunmuş hərbi qulluğa çağırış başladı. Mənə aydın idi ki, bunun nəticəsi necə olacaq... Azərbaycanın dərinliklərində hərbi obyektlərə zərbələr endirmək barədə qərar qəbul olunmuşdu. Raket və yaxud da artilleriya qurğularından. Əsasən, siyasi hərbi vertikal "Qarabağ müdafiə ordusu"nun "qərargah rəisi"ndən başlayırdı, yuxarıdan aşağı. Levon Mnatsakanyanın bir qədər əvvəl verdiyi ifadələrdən artıq mənə aydın oldu ki, istintaqın xəbəri var ki, o, hansı səlahiyyətlərə malik idi və nə edə bilərdi. Mən bilmirdim ki, kimin hansı səlahiyyətləri var, hansı silahlardan istifadə olunmalıdır, olunacaq və sair. Mən Onik Qasparyandan soruşanda ki, bu qərarlar əsaslandırılmışdırmı, o mənə dedi ki, bəli, Azərbaycanın hava limanları bizim əsas hədəfimizdir və biz o hədəfləri məhv etməliyik. Deyilmişdi ki, elə təəssürat yaranmalıdır, elə etməliyik ki, guya bu zərbələr Qarabağ tərəfindən endirililr".

Təqsirləndirilən şəxs Arkadi Qukasyan qondarma rejimin "büdcə"sinin Ermənistanın tərəfindən formalaşdırıldığını etiraf edib. O, ifadəsində Ermənistan tərəfindən ayrılan vəsaitin "kredit" adlandırıldığını, lakin həmin "kredit"in faizsiz və müddətsiz olduğunu bildirib.

Görünür ki, Bakıda keçirilən məhkəmə Ermənistan hökumətini çətin duruma qoyub. Artıq etiraflar və həqiqətləri öz yalanları ilə ört-basdır edə bilmirlər. Çünki təqsirləndirilən şəxslər hərbi cinayətləri etiraf edir, hətta Azərbaycan tərəfinə məlum olmayanları da səsləndirirlər.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan öz enerji sərvətlərinə məsuliyyətlə yanaşır

### Ölkəmizin enerji siyasəti XII Qlobal Bakı Forumunda da təqdir edilir

**"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumunun gedişində toxunulan məsələlərdən biri də enerji sahəsinə aid idi. Belə ki, ölkəmizin neft-qaz istehsalı və ixracında, "yaşıl enerji"yə keçiddə qazandığı nailiyyətlər, bu istiqamətdə müəyyən etdiyi hədəflər bir daha vurğulandı.**




Məlum olduğu kimi, bu forum Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilir. Dövlətimizin başçısı forumdakı çıxışında həmin mərkəzin üzvlərinin keçən il Azərbaycanda keçirilən COP29-da fəal iştirakından məmnun qaldığını və bunun sözügedən qlobal tədbirə böyük töhfə olduğunu diqqətə çatdırdı. Təxminən 200 ölkənin yekdil qərarı ilə ev sahibi seçildiyimizdən fərəhləndiyimizi bildirdi. Belə ki, bu bizə olan hörmətin, etimadın təzahürü, eləcə də "yaşıl keçid" üzrə fəaliyyətimizə verilən qiymət idi.

Azərbaycan faydalı qazıntılarla zəngin ölkə olsa da, gündəliyində bərpaolunan enerji də diqqət mərkəzindədir: "Bu gün artıq qərara alınıb ki, gələn illərdə Azərbaycanın bərpaolunan enerji imkanları faydalı qazıntıdan olan enerji istehsalına demək olar ki, bərabər olacaq. Bu gün Azərbaycanda yaradılmış enerji istehsalı imkanları 8 qiqavatdır. 2030-cu ilə qədər bizim bərpaolunan enerjidən, əsasən günəş və küləkdən, o cümlədən Azərbaycanın azad edilmiş ərazilərdəki hidroresurslardan əlavə 6,5 qiqavatlıq enerji güclərimiz olacaq. Beləliklə, biz bu günə olan potensialımızı demək olar ki, iki dəfə artıracağıq. Bunun sayəsində biz nəinki neft və qazı, o cümlədən "yaşıl enerji"ni də ixrac edə biləcəyik. Bu rəqəmlər tamamilə realdır. Onlar artıq imzalanmış müqavilələrə və anlaşma memorandumlarına əsaslanır".

Hazırda həmin layihələr öz icrasının müxtəlif mərhələlərindədir. 2023-cü ilin oktyabrında "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verildi. "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası, Cəbrayıl rayonunda "Şəfəq" Günəş-Elektrik Stansiyası tikilməkdədir. Prezident İlham Əliyevin "yaşıl enerji" zonası elan etdiyi işğaldan azad olunmuş ərazilərimizdə qısa zamanda onlarla su-elektrik stansiyası və yarımstansiyası inşa edilib, "yaşıl enerji" layihələri digər bölgələrimizə də addımlamaqdadır.

Azərbaycan öz enerji sərvətlərinə məsuliyyətlə yanaşan ölkədir. Odur ki, enerji təchizatı baxımından qıtlıqla üzləşmirik. Əksinə, bu gün Azərbaycan neçə-neçə ölkənin enerji təhlükəsizliyinə töhfə verir. 12 ölkə - Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiya Azərbaycandan təbii qaz alır. Göründüyü kimi, onlardan 10-u Avropa ölkəsidir.

Təsadüfi deyil ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı adlandırıb. "Bir sözlə, bu gün Azərbaycandan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və əslində, onun möhkəmləndirilməsində həqiqətən böyük dəyişiklik yaradır. Buna "yaşıl enerji" mənbələrimizi, o cümlədən Azərbaycandan Avropaya gedən, qismən Qara dənizin dibi ilə çəkilən yeni enerji kabelini əlavə etsək, bu, məsuliyyətimizin digər təzahürü və bir çox ölkələrlə sıx tərəfdaşlıq münasibətlərimizin nümayişidir", - deyə Prezidentimiz öz çıxışında bildirib.

Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol da çıxışında enerji təhlükəsizliyi və iqlim dəyişmələri məsələlərinə diqqət çəkib və Azərbaycanı Avropanın, eləcə də digər ölkələrin enerji böhranının həllində etibarlı tərəfdaş adlandıraraq deyib: "Bir çox ölkələr enerji böhranı zamanı bir daha anladılar ki, Azərbaycan etibarlı və etimadı doğuran tərəfdaşdır. Bu, bir daha sübuta yetirildi. Mən ümid edirəm ki, Azərbaycandan Avropaya qaz ixracı gələcəkdə artacaq. Mən, həmçinin ümid edirəm ki, Azərbaycanın "yaşıl dəhliz" gündəliyi - Qara dənizin dibi ilə Avropaya gedən elektrik enerji kabeli layihəsi uğurlu olacaqdır".

Beləliklə, "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"lə bağlı məsələlər daim diqqət mərkəzindədir. Xatırladaq ki, imzalandığı tarixdən - 2022-ci il dekabrın 17-dən bəri sazişin icrası məqsədilə Nazirlər/Rəhbər Komitənin 10 iclası keçirilib.

Prezident İlham Əliyevin XII Qlobal Bakı Forumunda enerji məsələləri barədə dediklərində bir mühüm məqam da diqqəti çəkir. "Təkcə enerji sərvətlərinin olması kifayət deyil. Siz gərək qonşularınızla, onların qonşuları ilə yaxşı münasibətdə olasınız ki, enerji, təhlükəsizlik və bağlantı layihələrini icra edə biləsiniz", - deyə Prezidentimiz qlobal forumda, əslində, daha bir qlobal məsələyə toxunub.

Azərbaycan həmişə yaxşı qonşu olub. Bundan isə həm özümüz bəhrələnmişik, həm də yaxşı qonşuluq etməyi bacaranlar.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## DOST Agentliyinin fəaliyyətinə dair infosessiya keçirilib

**Prezident İlham Əliyevin yeni fərmanı DOST Agentliyinin fəaliyyətinin, DOST xidmətlərinin təkmilləşməsinə, optimallaşdırılmasına xidmət edir.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində DOST Agentliyinin fəaliyyətinə dair keçirilən infosessiyada bildirilib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyasının dövlət sosial xidmətlərinin əhaliyə "bir pəncərə"dən, şəffaf, operativ və vətəndaş məmnunluğuna uyğun göstərilməsində mühüm əhəmiyyətini vurğulayıb.

DOST xidmətlərinin təkmilləşdirilməsi işlərinin daim davam etdirildiyi, yeni fərmanla DOST xidmətləri siyahısının yeni redaksiyada verilməsinin də bunun təzahürü olduğu, son illər aparılan sosial islahatlarla əlaqədar bu xidmətlərin sayının da davamlı olaraq artdığı qeyd olunub.

DOST Agentliyinin fəaliyyəti ilə bağlı təqdimat edilib, ötən dövrdə DOST mərkəzlərində 3,3 milyondan çox, o cümlədən bu ilin iki ayında 159 min vətəndaşa xidmət göstərildiyi, cari ildə orta günlük müraciət sayının 4,2 min olduğu diqqətə çatdırılıb.

Bu xidmətlərdən vətəndaş məmnunluğunun 98,5 faiz, bu il DOST mərkəzlərinə müraciət edən vətəndaşların mərkəzlərdə orta gözləmə müddətinin 2 dəqiqə 41 saniyə, orta xidmət müddətinin isə 7 dəqiqə 28 saniyə təşkil etdiyi qeyd olunub.

"Könüllü DOST" proqramına 140 minədək müraciət qeydə alındığı, 6,1 min nəfərin proqrama cəlb edildiyi bildirilib.

Həmçinin DOST mərkəzləri şəbəkəsinin genişləndirilməsi, yeni innovativ həllərin tətbiqi, insan resurslarının idarə olunması, DOST mərkəzlərində mediasiya xidmətinin təkmilləşdirilməsi və s. sahələrdə aparılan işlərdən, agentliyin beynəlxalq uğurlarından bəhs olunub.

İnfosessiyada qurumun fəaliyyət sahələrində aparılan işlər və qarşısında duran vəzifələr müzakirə olunub.

## Elektrik enerjisinin istehsalı 4 faizədək artıb

**Cari ilin yanvar-fevral ayları ərzində respublikada elektrik enerjisinin istehsalı 3,8 faiz artaraq 4 milyard 864,8 milyon kilovat-saat olub.**



Energetika Nazirliyindən bildirilib ki, bu müddət ərzində İES-lərdə 4 milyard 354,3 milyon kilovat-saat, SES-lərdə 411,7 milyon kilovat-saat, digər mənbələr üzrə isə 98,8 milyon kilovat-saat, o cümlədən külək-elektrik stansiyalarında 5,8 milyon kilovat-saat, günəş-elektrik stansiyalarında 54,9 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 38,1 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə su və günəş-elektrik stansiyalarının enerji istehsalında 140,6 milyon kilovat-saat artım qeydə alınıb.

Hesabat dövründə elektrik enerjisinin istehsalı "Azərenerji" ASC üzrə 4 milyard 353,6 milyon kilovat-saat (İES-lərdə 3 milyard 955,7 milyon kilovat-saat, SES-lərdə 397,9 milyon kilovat-saat), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 61,3 milyon kilovat-saat (İES-lərdə 41,4 milyon kilovat-saat, SES-lərdə 12,3 milyon kilovat-saat, GES-də 7,6 milyon kilovat-saat), "Azərişıq" ASC üzrə külək-elektrik stansiyalarında 4,1 milyon kilovat-saat, müstəqil elektrik stansiyaları üzrə isə 445,8 milyon kilovat-saat təşkil edib.

Bu dövrdə elektrik enerjisinin ixracı 36 faiz artaraq 301,5 milyon kilovat-saat, idxalı isə 40 faiz azalaraq 19,5 milyon kilovat-saat olub.

Qeyd edək ki, 2025-ci ilin fevral ayında respublika üzrə elektrik enerjisinin istehsalı 2 milyard 374 milyon kilovat-saat olub. Bu dövrdə elektrik enerjisinin ixracı 146,1 milyon kilovat-saat, idxalı isə 8,4 milyon kilovat-saat təşkil edib.

## Yanvar-fevral aylarında pensiya ödənişlərinə 1,1 milyard manatdan çox vəsait yönəldilib

**Cari ilin yanvar-fevral aylarında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz (103 milyon manat) çox olmaqla 1 milyard 178 milyon manat vəsait yönəldilib.**

Qeyd edək ki, 2025-ci ilin əvvəlindən bütün növ pensiyalar 8,1 faiz indeksləşdirilərək artırılıb, həmçinin fevralın 1-dən minimum pensiya 14,3 faiz artımla 280 manatdan 320 manata çatdırılıb.

Bu ilin iki ayında 9 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən 147 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## Ötən il Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizləri ilə daşınmış yüklərin həcmi açıqlanıb

**"2024-cü ildə 29 milyon ton neft, 50,6 milyard kubmetr qaz hasil edilib. Neftin 24,4 milyon tonu, qazın isə 25,5 milyard kubmetri ixrac olunub".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Baş nazir Əli Əsədov Milli Məclisin martın 14-də keçirilən iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatının təqdimatı zamanı söyləyib. Ə.Əsədov qeyd edib ki, 2024-cü ildə Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin ötürmə qabiliyyətinin və tranzit potensialının artırılması üçün bir çox layihələr reallaşdırılıb. 2024-cü ildə nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 33 milyon ton olub. Bu yüklərin 57 faizini tranzit yüklər təşkil edib.

## Əmək sahəsi üzrə 57 milli standart hazırlanaraq təsdiqlənib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin sədrliyi ilə fəaliyyət göstərən "Əmək sahəsində" standartlaşdırma (AZSTAND/TK21) üzrə Texniki Komitənin fəaliyyət planına əsasən əmək sahəsi üzrə 57 milli standart hazırlanaraq Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən dövlət standartı kimi təsdiq olunub.**

Beynəlxalq Əmək Təşkilatının "Əməyin Təhlükəsizliyi və Gigiyenası haqqında" 155 nömrəli Konvensiyasının tələblərinə uyğun hazırlanan standartlardan:

- 10-u fərdi mühafizə vasitələrinə,
- 28-i əməyin mühafizəsi üzrə təlimatlara,
- 11-i əməyin mühafizəsi üzrə tələblərə,
- 8-i istehsalat mühitinin amilləri və fərdi mühafizə vasitələri üzə sınaq prosedurlarına dair tələbləri əhatə edir.

Yeni standartların iş yerlərində tətbiqinin əmək şəraitinin müasir tələblərə uyğun təşkil olunması, əməyin təhlükəsizliyi qaydalarının təkmilləşdirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması istiqamətində mühüm əhəmiyyəti var.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti ilə yanaşı, Fövqəladə Hallar Nazirliyi, Dövlət Neft Şirkəti (SOCAR), Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Həmkarlar İttifaqları Konfederasiyasının təmsil olunduğu Texniki Komitə tərəfindən əmək sahəsi üzrə standartların hazırlanması istiqamətində işlər davam edir.

## Azərbaycan-İspaniya iqtisadi əməkdaşlığının perspektivləri genişdir

**Xəbər verildiyi kimi, Bakıda Azərbaycan İqtisadiyyat Nazirliyinin, İspaniyanın İqtisadiyyat, Ticarət və Biznes nazirliklərinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), İspaniya İşəgötürənlər Təşkilatları Konfederasiyası, İspaniya İxrac və İnvestisiyalar İnstitutu və İspaniya Ticarət Palatasının birgə təşkilatçılığı ilə Azərbaycan-İspaniya biznes-forumu keçirilmişdir.**



Hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, enerji, tikinti, logistika, infrastruktur və digər sahələrdə fəaliyyət göstərən 90-dan çox şirkətin nümayəndələrinin iştirak etdikləri biznes-forumda Azərbaycan və İspaniya arasında ticarət və investisiya əməkdaşlığının genişləndirilməsi imkanları müzakirə edilib. Ölkələrimiz arasında Strateji İqtisadi Dialoqun 1-ci iclasında isə bərpaolunan enerji, sənaye, dövlət-özəl tərəfdaşlığı, iqlim məsələləri və digər sahələr üzrə tərəfdaşlıq potensialı dəyərləndirilib.

Forum ölkələrimiz arasında ikitərəfli əlaqələri gücləndirmək və əməkdaşlıq üçün yeni yolları araşdıran mühüm platforma kimi yadda qaldı. Qeyd edək ki, Azərbaycan dünyanın inkişaf etmiş və qabaqcıl ölkələrindən biri olan İspaniya ilə iqtisadi əməkdaşlığın gücləndirilməsində mühüm tərəfdaş kimi əlaqə qurur. Xatırladaq ki, İspaniya 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdəndir.

Bu gün Azərbaycanda biznes mühiti, iqtisadi münasibətlərə yanaşma əvvəlki kimi deyil. Daha doğrusu, əvvəlki illərlə müqayisədə indi daha real və praktik mövqeyin olduğunu görürük. Bu, təbii ki, biznes fəaliyyəti ilə məşğul olan hər kəsi sevindirir, istər yerli olsun, istərsə də əcnəbi. Xüsusən şəffaflıq və innovativ yeniliklərin tətbiqi ilə bağlı atılan addımlar təqdirəlayiqdir. Ona görə də İspaniya şirkətlərinin ölkəmizin biznes və investisiya sahəsində iştirakı üçün nəqliyyat, logistika, İKT, kənd təsərrüfatı və qida, maliyyə, tekstil, yüngül sənaye, kimya və neft-kimya, turizm kimi sahələrlə qırılmaz əlaqələri var. Azərbaycan sərmayədarları üçün isə İspaniyada avtomobil, maliyyə, daşınmaz əmlak və istehsal istiqamətində investisiya perspektivləri mövcuddur.

İspaniyanın Strateji və Beynəlxalq Araşdırmalar Fondunun (FESEI) elmi işçisi Xose Ventura Ballesterin ölkəsinin Azərbaycana enerji resurslarının şaxələndirilməsində, alternativ enerji mənbələrinin inkişafında və hasilatında kömək etmək potensialında olduğunu bildirmişdir. O, həmçinin dövlət idarəçiliyində yeni texnologiyaların tətbiqi sahəsində də İspaniyanın Azərbaycanla əməkdaşlığının mümkünlüyünü vurğulamışdır. Bu baxımdan, Azərbaycan-İspaniya biznes forumunun həmin əlaqələrin möhkəmləndirilməsinə yönəlməsi iki ölkə arasındakı iqtisadi əməkdaşlığın perspektivindən xəbər verir. Yeri gəlmişkən, qeyd edək ki, ötən il ölkələrimiz arasında ticarət dövriyyəsinin dəyəri 300 milyon dolları üstələmişdir. Amma bu, təbii ki, çox deyil. Ona görə də hazırda investisiya əməkdaşlığına xüsusi diqqət yetirilməklə iqtisadi əlaqələrin şaxələndirilməsi üzərində iş aparılır.

Bu mənada Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) idarə heyətinin sədri Orxan Məmmədovun forumda səsləndirdiyi fikirlər ispaniyalı iştirakçıların marağına səbəb olub. O.Məmmədov demişdir: "Ötən il İspaniyaya məhsuldar səfərimiz olub. İspaniyanın Sənaye və Turizm Nazirliyi, Ticarət Palatası, İşəgötürənlər və Sənaye Konfederasiyası, İspaniya İxrac və İnvestisiya Təşkilatı, Milli İnnovasiya Şirkəti kimi qurumlarla ilkin əlaqələrimiz olub. Məhsuldar müzakirələr gələcək əməkdaşlığın əsasını qoyub və ümid edirik ki, ölkələrimizin bizneslərinə fayda verəcək birgə təşəbbüslər üzərində işləyəcəyik. KOBİA olaraq biz Azərbaycanda sahibkarlara və bizneslərə öz bizneslərini qurmaq, KOB-ların resurslara çıxışını təmin etmək, təlim və potensialın gücləndirilməsi proqramlarını asanlaşdırmaq kimi dəstək veririk. Əsas təşəbbüslərimizdən biri həm yerli, həm də xarici investorlar üçün "bir pəncərə" sistemi kimi nəzərdə tutulmuş dövlət xidmətlərini, biznesin qeydiyyatını və investisiyaların asanlaşdırılmasını sadələşdirən "KOB evi" modelidir. Artıq fəaliyyət göstərən 3 "KOB evi" ilə bu tipli biznesi qurmağı, inkişaf etdirməyi və idarə etməyi asanlaşdırır".

Forum iştirakçıları tədbirdə iki ölkənin biznes imkanları və sahibkarlar arasında əlaqələrin genişləndirilməsi perspektivlərindən, eləcə də qarşılıqlı maraq doğuran layihələrdən söz açıblar, bir sıra məsələlər ətrafında müzakirələr aparıblar. Forumda həmçinin ölkələrimiz arasında bərpaolunan enerji, sənayenin müxtəlif istiqamətləri, dövlət-özəl tərəfdaşlığı, iqlim məsələləri və digər sahələr üzrə əməkdaşlıq imkanları nəzərdən keçirilib, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və İspaniya Krallığının İqtisadiyyat, Ticarət və Biznes Nazirliyi arasında strateji iqtisadi əməkdaşlıq haqqında imzalanan Anlaşma Memorandumunun iki ölkə arasında iqtisadi əməkdaşlığın daha da dərinləşməsi baxımından əhəmiyyəti vurğulanıb.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***





# Mədəniyyət





Ustad sənətkarlarımız

# Səhnəmizin Vaqifi, kinomuzun Rüstəm kişisi

## Görkəmli sənətkar Ələsgər Ələkbərovun yaradıcılığı mədəniyyət tariximizin silinməz səhifəsidir

**Görkəmli teatr və kino aktyoru, Xalq artisti Ələsgər Ələkbərov Azərbaycan mədəniyyətinin və incəsənətinin tarixində bir hadisə idi desək, yəqin ki, yanılmarıq. Çünki o özündən sonra sənətdə həqiqətən bənzərsiz və silinməz bir iz qoymuşdur.**



1910-cu ildə Bakıda anadan olmuşdu. Hələ yeniyetmə ikən atasını itirmişdi. 13 yaşından anası Zibeydə xanıma ailəni dolandırmağa kömək etməli olan Ələsgər fəhləlik edir. Yorulsa da, axşamlar Əbilov klubuna gəlir, burada fəaliyyət göstərən dram dərnəyinə qatılırdı. Anası "artist tayfasına camaat yaxşı baxmır" deyə oğlunu bu yoldan çəkindirməyə çalışırdı. Lakin çox gec idi, Ələsgər artıq dram dərnəyinin tamaşalarında baş rollarda oynayırdı, 17-18 yaşında tamaşaçılar tərəfindən tanınır və sevilirdi.

1927-1930-cu illərdə Ələsgər Ələkbərov Bakı Teatr Texnikumunda təhsil alır. Elə oxuduğu ilk ildən də Bakı Türk İşçi Teatrında işləməyə başlayır. Burada çalışarkən bir neçə maraqlı, yaddaqalan obrazlar, o cümlədən Hacı Baxşəli ("Ölülər") obrazını yaradır.

1933-cü ilin yanvar ayında AK(b)P MK-nın qərarı ilə Bakı Türk İşçi Teatrı Gəncəyə köçürülür. Ə.Ələkbərovun tərcümeyi-halını əks etdirən məlumatlara görə, o, bir neçə il Tiflisdəki Azərbaycan Teatrında və Gəncə Teatrında çalışır. Sonra taleyini indiki Milli Dram Teatrı ilə bağlayır.

Ələsgər Ələkbərov ovaxtkı Azərbaycan Akademik Dram Teatrına gələndə burada bir-birinə rəqib olan iki nəhəng aktyor var idi. Onların hər ikisi - Abbas Mirzə Şərifzadə və Ülvi Rəcəb 1937-ci il repressiyalarının qurbanı oldu. 1938-ci ildə "Vaqif" tamaşasından sonra burada həmin səviyyəli bir aktyor qalmışdı ki, o da Ələsgər Ələkbərov idi.

### Dramatik rolların əvəzsiz ifaçısı

Teatr mütəxəssisləri yazırlar ki, o, elə bir aktyor idi ki, səhnədə görünməsi ilə tamaşanın taleyini həll edirdi. "Maqbet"dəki Maktuf, "Şahnamə"dəki şah Zeyir, "Aydın"dakı Aydın, "Fərhad və Şirin"dəki Fərhad və neçə-neçə digər obraz sənətkarın böyük potensialından və geniş diapazonundan söhbət açırdı. O, səhnədə Mirzə Fətəli Axundzadənin, Cəlil Məmmədquluzadənin, Cəfər Cabbarlının qəhrəmanlarına həyat bəxş etmişdi. C.Cabbarlının Aydın, Elxan, Aqşin, Eyvaz kimi surətlərini birinci dəfə o yaratmış və onlara əbədiyaşar möhürünü vurmuşdu.

Ələsgər Ələkbərov hər rolda fərqli ifa nümayiş etdirirdi, qəhrəmanlarını bir-birinə bənzətməkdən çox uzaq idi. Məsələn, tək bir tamaşada - C.Cabbarlının "1905-ci ildə" pyesində üç rolda oynamışdı. Bir əsərin Eyvaz, general, Salamov kimi bir-birindən fərqli üç qəhrəmanını oynamaq, özü də məharətlə ifa etmək hər aktyorun istedadı çərçivəsinə sığan iş deyildi!

Onun Vaqifi, Fərhadı, Cavanşiri, Kral Liri, Otellosu Azərbaycan teatr sənətinə həqiqətən bir töhfədir. Ə.Ələkbərov həm də elə bir sənətkar idi ki, sələflərinin ən ümdə xüsusiyyətlərini istedadının süzgəcindən keçirmiş, onlara öz dəst-xəttini əlavə etmiş və sonrakı aktyorlar nəslinə bir nümunə, əslində, irs, xəzinə qoyub getmişdir.

Ələsgər Ələkbərov Vaqif rolunda 28 yaşından oynamağa başlamışdı. İllər ötdükcə, oyunu daha da dolğunlaşmış, mənalı və məzmunlu olmuşdu. Ə.Ələkbərovun yaratdığı Vaqif özünü, öz həyatını və mənafeyini deyil, xalqını, onun taleyini, gələcəyini düşünən bir obrazdır.

Yazılanlara görə, "Vaqif" tamaşası milli teatrda Ədil İsgəndərovun quruluşunda 1064 dəfə səhnələşdirilib. Arxiv sənədləri digər maraqlı bir faktı da qoruyub saxlayır: 1948-ci ilə qədər, yəni "Vaqif"in səhnə həyatının 10 ili ərzində Ələsgər Ələkbərov bu rolda artıq 300 dəfə çıxış etmişdi. Odur ki, "Vaqif" pyesinin və Vaqif obrazının yaşlı nəsil tamaşaçısının yadında məhz Ələsgər Ələkbərovun ifası ilə qalması təsadüfi deyil.

Ə.Ələkbərovun aktyor gücü özünü digər əsərlərdə də nümayiş etdirmişdi. Hüseyn Cavidin Şərqin böyük ədəbi abidəsi olan "Şahnamə"nin motivləri əsasında yazdığı "Səyavuş" faciəsinin qəhrəmanı gözəl bir gəncdir. Ögey anası onu xəyanətə sürükləmək istəyir. Lakin Səyavuş bu addımı atmır, "yox!" deyir. Ələsgər Ələkbərov obrazı tam mənimsəyərək "yox"u elə deyirdi ki, sanki bu səs daxilindəki üsyanın əks-sədasına çevrilir, tamaşaçını az qala diksindirir, heyrətə gətirirdi.

Aktyorun yaradıcılığının daha bir mərhələsi "Otello" ilə bağlıdır. O vaxt teatr tənqidçiləri Ə.Ələkbərovu "bütün Otellolardan daha canlı insan" adlandırmışdılar. Onun bu roldakı oyunu barədə də maraqlı fikirlər qalıb. Məsələn, Şekspir muzeyində hələ də Ələsgər Ələkbərovun "Otello" tamaşasında çəkilmiş şəkli saxlanılır. Moskvadakı Azərbaycan dekadası zamanı "Otello"ya baxan ingilislər tamaşanı lentə alıb özləri ilə aparıblar. Tamaşa vaxtı Moskva teatrının pərdəsi alqışlardan düz 17 dəfə açılıb-bağlanıb.

### O, kinonu teatr qədər sevirdi

Aktyorun böyük istedadı özünü kinoda yaratdığı obrazlarda da göstərir. Yaratdığı müxtəlif xarakterli obrazlar kinematoqrafiya tarixində layiqli yer tutur.

O, Azərbaycan kinosunun səsli dövrünün hələ ilk filmlərindən olan "Kəndlilər"də Göydəmir rolunu ifa etmişdi. Sonra gənc aktyor "Vulkan üzərində ev", "Lətif" filmlərində çəkilmişdi.

Ələsgər Ələkbərovun "Kölgələr sürünür", "Qara daşlar", "Ögey ana", "Uzaq sahillərdə", "Fətəli xan" və digər filmlərdə oynadığı rollar unudulmazdır. Onun kino qəhrəmanları da teatr obrazları kimi canlıdır, yaddaqalan və sevilənir.

1963-cü ildə Ə.Ələkbərov "Böyük dayaq" filmində Rüstəm kişi roluna çəkilir. Oynadığı obrazın xarakterini bütün müsbət və mənfi cəhətləri ilə tam aça bilir. Bu, aktyorun sanki son "akkord"u olur. Film ekranlara çıxana qədər o, artıq dünyasını dəyişir. Tamaşaçılar bu filmə baxaraq belə böyük sənətkarı itirdiklərinə bir daha təəssüflənir, acıyırlar.




Görkəmli aktrisa Leyla Bədirbəyli həmkarı haqqında ürək sözlərini sonsuz məhəbbət və ehtiramla qələmə almışdır: "Bəzən həyatda bir adamı yalnız görən zaman yada salır, xatırlayırsan. Lakin elə insanlar da olur ki, onları təkcə bir dəfə görür, amma uzun illər, hətta ömrün boyu unutmursan. Ələsgər Ələkbərov belə şəxsiyyətlərdəndir. O, tam mənasında səhnə üçün, sənət üçün doğulmuşdu. Bu mahir aktyoru səhnədə bir dəfə görən heç zaman unutmurdu. Heç yadımdan çıxmır, bir dəfə onun ad gününə yığışmışdıq. Çox da böyük olmayan məclis həddən artıq şən keçirdi. Ələsgər isə hamıdan şən idi. O, pianoda çalır, oynayır, şadlanırdı. Rəqsdən xüsusi zövq alırdı. Milli azəri rəqsi onun ifasında çox gözəl təsir bağışlayırdı. Qonaqlar təkrar-təkrar Ələsgərin şərəfinə sağlıq söyləyir, yüksək sənətindən, nəcib insanlığından danışırdılar. Bu zaman mənimlə yanaşı oturan Ələsgərin gülməkdən özünü zorla saxladığını görüb təəccüblə ona baxdım. Baxışımdakı sualı hiss edib dedi: "Başa düşə bilmirəm ki, bunlar bu qədər tərif dolu sözləri haradan tapırlar? Axı məndə nə görüblər? O qədər də gözəl deyiləm, gözlərim də olduqca balacadır... Mən dedim ki, yəqin tilsim, möcüzə yolu ilə sən özünü xalqa sevdirirsən. Bu zaman o, lap ürəkdən güldü. Həqiqətən də kiçik gözləri tamamilə yumuldu. Lakin coşqun məhəbbətlə yaratdığı səhnə surətlərini - Elxan, Aydın, Otello, Vaqif, Fərhad və Cavanşirin ülvi hisslərini məhz bu gözlərdə görmüşdük. O, yüz dəfə, min dəfə Otellonun, Vaqifin faciəsini öz faciəsi kimi yaşamış və bu "ölüm"lərlə ölməzlik qazanmışdı".

### Sönməyən işıq

Ələsgər Ələkbərovun böyük istedadını təkcə həmkarları deyil, bir çox görkəmli şəxsiyyətlər də, sadə tamaşaçılar da görmüş və yüksək dəyərləndirmişlər. Xalq yazıçısı Mirzə İbrahimov 1960-cı ilin noyabrında qələmə aldığı "Qartal qanadlı sənətkar" məqaləsində onu belə səciyyələndirirdi: "Azərbaycan dram teatrı ilə əlaqədar olduğum zamanlar Ələkbərovun sənətə münasibəti, surət üzərində işləməsi mənim diqqətimi cəlb etdi. Ələkbərov rol əlinə keçən gündən onunla yaşayırdı, hətta mənə elə gəlirdi ki, gündəlik həyata, rast gəldiyi adamlara da surətin gözü ilə baxır, sonra bunun psixoloji nəticələrini izləyir, hisslərin dilini tapmağa cəhd edir... Ələsgər Ələkbərov həm klassik əsərlərdə, həm də müasir əsərlərdə eyni hərarətlə oynayır. O, bizim adamların, bu gündən danışan dramlardakı qəhrəmanların surətini böyük həvəslə yaradır. Bu, çox qiymətli xüsusiyyətdir və yalnız ictimai cəhətdən deyil, estetik cəhətdən də mənalıdır".

1959-cu ildə Moskvada Azərbaycan mədəniyyəti və ədəbiyyatı ongünlüyü keçirilir. Vaxtanqov adına teatrın səhnəsində Azərbaycan Dram Teatrının artistləri "Otello"nu oynayırlar. Hər pərdənin sonunda salonda alqış səsləri qopur. Ələsgər Ələkbərov öz "Otello"su ilə tələbkar Moskva tamaşaçılarını heyran qoyur.

Ongünlük sona çatanda Azərbaycandan gəlmiş incəsənət xadimlərinə ittifaq səviyyəli fəxri adlar verilir. Rəşid Behbudov, Qəmər Almaszadə, Leyla Vəkilova SSRİ Xalq artisti fəxri adını alırlar. Gözlənildiyinə görə, Akademik Dram Teatrının payına düşən fəxri ada isə Ələsgər Ələkbərov layiq görülməli idi. Ancaq nədənsə həmin ad ona verilmir. Bu hadisə Ələsgər Ələkbərova bərk toxunur və o, qəlbindəki incikliyi dəf edə bilmir. Bakıya qayıdandan sonra teatrdan çıxmaq barədə mədəniyyət naziri Məmməd Qurbanova ərizə yazır. Nazir ərizəyə etiraz cavabı versə də, o, teatra qayıtmır. Azərbaycan Dövlət Filarmoniyasında müxtəlif konsertlərin, gecələrin aparıcısı kimi çalışır, filmlərə çəkilir.

İsgəndərov-Ələkbərov münaqişəsi Azərbaycan teatrına baha başa gəlir. Bunu sonralar onların hər ikisi etiraf edir. 1959-cu ilin sonunda Ələsgər Ələkbərov teatra qayıdır və o, sonralar "İsgəndərovsuz teatr həmin teatr deyil" deyərək öz fikrini və təəssüfünü hər yerdə bildirir.

Böyük aktyor 53 yaşında dünyasını vaxtsız dəyişəndə onu son mənzilə yola salmağa köhnə dostu - rəqibi Ədil İsgəndərov da gəlir... Bu, əslində, çox söz deyirdi.

Ələsgər Ələkbərovun şəxsi həyatı ürəkaçan olmayıb. Hələ çox gənc ikən aktrisa Hökumə Qurbanovanı böyük məhəbbətlə sevib. Bu sevgi qarşılıqlı olub və valideynləri Hökuməni ona vermək istəməsələr də, qızın inadı qarşısında aciz qalıblar.

Gənc, xoşbəxt ailənin ilkini dünyaya gəlir. Ona Nailə adını verirlər. Teatr Gəncəyə köçəndə ailə də bu şəhərə gəlir. Burada hər iki gəncin qəlbindəki qısqanclıq hissləri baş qaldırır. Bu mənasız hisslərin ikitərəfli olması ailə ocağının sönməsinə səbəb olur.

Sonra Ələsgər milliyyətcə rus olan bir qızla evlənir. İlk evlilikdən olan qızı Nailə isə gənc yaşlarında dünyasını dəyişir. Ümumiyyətlə, ömrünün son üç ilində onun həyatında mühüm hadisələr baş verir. Həmin müddətdə yalnız bir tamaşada oynayır. Bu, Mehdi Məmmədovun hazırladığı "Alov" tamaşası idi. Aktyor ənənəsinə sadiq qalaraq buradakı müstəntiq Kamalovun rolunu da böyük məharətlə yaradır.

1960-cı ildə aktyorun 50 illik yubileyi qeyd olunur. 1961-ci ildə SSRİ Xalq artisti fəxri adına layiq görülür. Ömrünün sonunda ona SSRİ Ali Sovetinə deputat seçilmək də qismət olur. Bu uğurlar silsiləsində aktyorun "Böyük dayaq" filmində yaratdığı Rüstəm kişi obrazı xüsusi yer tutur. Əslində, bunlar da - həm film, həm də sənətkarın oradakı rolu Azərbaycan kinematoqrafiyasına, Azərbaycan tamaşaçılarının yeni nəsillərinə qalan əvəzsiz yadigardır.

Son tamaşanı da 1963-cü ildə oynamalı idi. Yanvarın 31-də həmkarları "Səyavuş" faciəsini məşq edir və Ələsgər Ələkbərovun yolunu gözləyirdilər. Elə həmin gündən teatrın da, həmkarlarının da, tamaşaçılarının da gözü yolda qalır. O yolda ki, Ələsgər Ələkbərov bir də heç vaxt oradan dönməyəcək...

Bu il 115 yaşı tamam olan Ələsgər Ələkbərov elə bir sənətkar idi ki, yaratdığı obrazlar həm tamaşaçıların qəlbinə, həm də yeni aktyor nəsillərinin yaradıcılıq yollarına hələ indidən sonra da sönməz işıq saçacaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

Ruzimiz bol olsun...

# Novruz bərəkət bayramıdır, lakin israfçılığı sevmir

**Hər il hələ qışın ömrünə xeyli qalmış yazın həvəsi, eşqi, şövqü ilə yaşayırıq. İlk növbədə, səməni göyərtməyə tələsirik ki, o, bayram süfrələrimizi bəzəməyə "gecikməsin".**



"Səməni, ay Səməni, saxla məni, ildə cücərdərəm səni", - deyərək ürəyimizdə min niyyət tutur, arzularımızı dilə gətiririk. Bəzən də bir sini, ya bir nəlbəki əvəzinə bir neçə qabda səməni cücərdirik. Buna ehtiyac oldu-olmadı. Birbaşa mətləbə keçərək qeyd edək ki, burada da israfçılığa yol vermək olmaz. Bir evə, bir ailəyə simvolik olaraq bir səməni bəs etməzmi? Axı bu, buğdadan yaranır. Adi bir hesablama aparmağa cəhd edək. Bir qabda səməni göyərtmək üçün yüz qram buğda tələb olunursa və hər xanım beş səməni göyərdirsə, bu, yarım kiloqram buğda deməkdir. Bu hesabla 10 qadının səməni göyərtməsinə beş kiloqram buğda sərf olunur. Kiloqramlar üst-üstə gələrək tonlara çevrilir.

Belə çıxmasın ki, kimsə səməninin əleyhinədir. Yox! Bu, adətimiz, ənənəmiz, əziz bayramımızın simvollarından biri - arzu-dilək rəmzimizdir. Amma, necə deyərlər, hər şey öz qədərində gözəldir. Gəlin, ötən novruzları yada salaraq xatırlayaq ki, bayramdan sonra nə baş verir? O baş verir ki, zibilliklərin yanından keçəndə səmənilər nəinki qutuların içində, hətta bəzən ətrafda ayaqlar altında əzilən görürük. Günahdır bu! Təkcə arzularımızın rəmzinə çevirdiyimiz, müqəddəs bildiyimiz, əlimizlə bəslədiyimiz yaşıllığa deyil, bundan öncə də bərəkətə, çörəyə nankor olmaq deməkdir.

Deyilənə görə, bəzi bölgələrimizdə qız-gəlin bayramdan sonra çay qırağına gələrək səmənilər axar suya atır və yenə də qəlblərinin istəyini söyləyirlər. Bəlkə bayramdan sonra səmənilər bir yerə toplayıb toyuq-cücəsi, mal-qarası olana, yaxud yaxınlıqdakı fermalara vermək də olar. Ən azı bu bərəkət rəmzini əldən-ayaqdan uzaq, təmiz bir yerə qoymaq lazımdır.

Novruz ruzi-bərəkət, bolluq bayramı olsa da, israfçılığı da sevmir. Mənim doğulub böyüdüyüm bölgənin adətinə görə, bayramda, ələlxüsus da İlaxır çərşənbədə ailənin təknəsində olan ən əziz nemətlərin hamısı süfrəyə düzülərdi. Hətta anamızın, nənəmizin tədarük edib küncdə-bucaqda saxladığı təamlar həmin gün ortaya qoyulmalı idi. Əlbəttə, bunlar israfçılığa yol verilmədən istehlak olunardı. Qohum-qonşuya pay getməli və əlbəttə, ətrafdakı ehtiyacı olanlar mütləq diqqətdən kənarda qalmamalı idi.

Yenə də ötən illərin bayramdan sonrakı mənzərəsini xatırlayaq. Zibil qutularına nə qədər çürümüş qoğal, qurumuş çərəzlər, məsələn, innab, iydə, xırda xirnik və s. atılır. Sellofan torbalarda nə qədər boyat aş tullantıya çevrilir. Bu, bizə qismət etdiyi ruzinin müqabilində Allaha şükranlıq əvəzinə asi olmaq demək deyilmi?

Kimsə deyə bilər ki, axı Novruzda insanlar bir-biri ilə bayramlaşır. Ona görə də hər evdə qonaq gözləyir, bu səbəbdən bol-bol şirniyyat hazırlayır, xörəyi lazım olandan artıq bişirirlər. Bunun da həddi var. Çünki onsuz da süfrədə neçə cür nemət olur. Bizim bayram süfrələrimizdən doymamaq mümkün deyil!

Builki Novruzumuz Ramazan ayına təsadüf edib. Necə deyərlər, bayram bayrama qovuşur. Bəlkə də bu, bizi daha çox düşünməyə, ruzi-bərəkətin qədrini bilməyə, israfçılıq adlı günaha batmamağa, təknəmizdə olanı paylaşmağa çağırır. İsrafçı olmayaq, şükür-nemət, xeyirxah, mərhəmətli olaq və bundan zövq alaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Üzeyir bəy Hacıbəylinin ev-muzeyində "O olmasın, bu olsun" operettasının 115 illiyinə həsr olunmuş tədbir keçirilib

**Üzeyir bəy Hacıbəylinin ev-muzeyində dahi bəstəkarın "O olmasın, bu olsun" operettasının 115 illiyinə həsr olunmuş tədbir keçirilib.**

Tədbirdə əsərin tarixi-bədii dəyərindən, dramaturji və musiqi xüsusiyyətlərindən ətraflı bəhs edilib.

Muzeyin direktoru, Xalq artisti və bəstəkar Sərdar Fərəcov giriş nitqi ilə çıxış edib. O, "O olmasın, bu olsun" komediyasının Azərbaycan musiqi mədəniyyətində əvəzsiz rolunu vurğulayıb.

Öz növbəsində, Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin Sərgi və ictimai iş şöbəsinin müdiri Vəfa Bağırzadə əsərin dramatik və musiqi xüsusiyyətlərinin ətraflı təhlilini təqdim edərək, onun dahi bəstəkarın yaradıcılığında xüsusi əhəmiyyətini vurğulayıb.

Kinoşünas Hacı Səfərov əsərin filmə uyğunlaşdırılmasını tarixi-bədii baxımdan təqdim edib.

Həmçinin sənətşünas Sədaqət Əliyeva "Geyim mühüm element kimi" mövzusunda məruzə ilə çıxış edərək tamaşanın uğurunda səhnə geyimlərinin əhəmiyyətindən danışıb, bu detalların tamaşaçının hekayəni daha dərindən dərk etməsinə necə kömək etdiyini izah edib.




Sonra tədbirdə Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktyorları - Əməkdar artistlər Şövqi Hüseynov, Nahidə Orucova, Səmədzadə Xasiyev və Aydan Həsənova "O olmasın, bu olsun" musiqili komediyasından seçilmiş səhnələri tamaşaçılara təqdim ediblər.

Aparıcı onu da qeyd edib ki, bu il Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin 50 illik yubileyi qeyd olunur. O, bu mədəniyyət müəssisəsinin tarixindən, fəaliyyətindən, dahi bəstəkarın yaradıcılıq irsinin qorunması istiqamətində görülən işlərdən danışıb.

Tədbirin sonunda iştirakçılara verdikləri töhfələrə görə təşəkkürnamələr təqdim olunub.

# Braziliyada Azərbaycan rəssamlarının sərgisi açılıb

**Azərbaycanın gənc rəssamlarının "Art of Cultural Diplomacy-Art for Peace" adlı sərgisi açılıb.**

AZƏRTAC xəbər verir ki, açılışda Azərbaycanın Braziliyadakı səfiri Rəşad Novruz, Rio de Janeyro şəhərində fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, ictimaiyyət nümayəndələri, sənətsevərlər, yerli sakinlər iştirak ediblər. Azərbaycan rəssamlarının rəsm əsərləri böyük maraqla qarşılanıb.

Mərasimin sonunda səfirlik iştirakçı rəssamlara sertifikatlar təqdim edib. "Dirçəliş"



Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzinin direktoru, İslam Baxşəliyev sərgini ziyarət edənlərə, Azərbaycan mədəniyyətinin tarixi haqqında geniş məlumat verib. Sərgidə 18 rəssamın 44 əsəri nümayiş etdirilir.

# Kişilər hələ də üstünlük təşkil edir



**Hakimiyyətdə - icraedici və qanunverici vəzifələrdə olan kişilərin sayı qadınların sayından 3 dəfədən artıqdır. Bu barədə Parlamentlərarası İttifaqı (PAİ) və "BMT - Qadınlar" strukturu məlumat verir. Ekspertlərin fikrincə, bu, siyasi sahədə gender bərabərliyinə nail olmaqda məhdud irəliləyişə görədir.**

Yenicə açıqlanan "Qadınlar Siyasətdə 2025" hesabatına əsasən, dünya üzrə parlamentlərdə qadınların nisbəti keçən illə müqayisədə cəmi 0,3 faiz bəndi artaraq 27,2 faizə çatıb.

Amerika qitəsində qadın parlament üzvlərinin (34,5 faiz) və parlamentin qadın spikerlərinin (33,3 faiz) ən yüksək nisbəti var. Onların ən az sayı Yaxın Şərq və Şimali Afrikadadır (16,7 faiz).

## Maneələri aradan qaldırmağın vaxtıdır

PAİ prezidenti Tulia Akson qadınların qanunvericilik orqanlarında təmsil olunması baxımından irəliləyişin son dərəcə yavaş templə getməsindən narahatlığını ifadə edib: "Qlobal bərabərsizlik dünyanın bəzi yerlərində siyasətdə gender bərabərliyinin inkişaf etdirilməsinin sistemli uğursuzluğundan xəbər verir. İndi maneələri aradan qaldırmaq və bütün dünyada siyasətdə qadınların bərabər şəkildə təmsil olunmasını təmin etmək üçün qətiyyətli hərəkətlər etməyin vaxtıdır. Demokratiyamızın sağlamlığı bundan asılıdır".

İttifaqın baş katibi Martin Çunqonqubun dediyinə görə, siyasi liderlikdə gender bərabərliyi istiqamətində irəliləyişin olmaması hərəkətə keçmə çağırışını zəruri edir. Tərəqqinin sürətləndirilməsi kişilərin fəal iştirakından və dəstəyindən asılıdır: "Maneələri aradan qaldırmaq və qadınların rəhbər vəzifələrdə bərabər təmsilçiliyini təmin etmək, hamı üçün daha inklüziv və davamlı demokratiyaları təşviq etmək bizim kollektiv məsuliyyətimizdir".

## Qadının ölkə lideri olması qayda deyil, istisnadır

Dünyanın cəmi 25 ölkəsində ən yüksək dövlət vəzifələrində qadınlar çalışırlar. Avropa qadınların rəhbərlik etdiyi ən çox ölkənin (12) olduğu region kimi qalır.

2024-cü ildə tarixi hadisələr baş verib: Meksika, Namibiya və Şimali Makedoniya ilk dəfə qadın prezidentlərini seçib. 106 ölkədə hələ də qadın lider yoxdur.

## Nazirlər arasında qadınların təmsilçiliyi getdikcə azalır

2025-ci il yanvarın 1-nə nazirliklərə rəhbərlik edən qadınların xüsusi çəkisi bir il əvvəl 22,9 faizə düşüb. Ötən il bu rəqəm 23,3 faiz təşkil edib.

64 ölkədə nazir vəzifələrində qadınların sayı azalıb, 63 ölkədə durğunluq müşahidə olunub, 62 ölkədə isə ötən illə müqayisədə bu rəqəm artıb.

Yalnız doqquz ölkə, əsasən Avropada, nazirlər kabinetlərində vəzifələrdə gender bərabərliyinə nail olunub. Bunlar Nikaraqua (qadın nazirlərin 64,3 faizi), Finlandiya (61,1 faiz), İslandiya və Lixtenşteyn (hər biri 60 faiz), Estoniya (58,3 faiz), Andorra, Çili, İspaniya və Böyük Britaniyadır (hər biri 50 faiz). Bu rəqəm 15 ölkədə nazirlər kabinetlərində gender bərabərliyinin qeydə alındığı 2024-cü ildən aşağıdır.

Digər 20 ölkədə qadınların nazirlər arasında təmsil olunması 40 faizdən 49,9 faizə qədərdir. Özü də bu ölkələrin yarısı Avropadadır. Əsasən, Asiya-Sakit okean regionunda olan doqquz ölkənin nazirlər kabinetlərində qadın yoxdur. 2024-cü ildə yeddi belə ölkə olub.

Mərkəzi və Cənubi Asiya ölkələrində də qadınların nazir postunda təmsil olunması çox aşağıdır - cəmi 9 faiz.

## Nazir portfellərinin bölüşdürülməsində gender qərəzliliyi

Ekspertlər nazir portfellərinin bölüşdürülməsində davamlı gender qərəzliliyini də qeyd edirlər. Qadınların əsasən gender bərabərliyi, insan hüquqları və sosial məsələlərlə məşğul olan nazirliklərə rəhbər təyin edilməsi davam edir. Mədəniyyət (nazirlərin 35,4 faizi), təhsil (30,6 faiz) və turizm (30,5 faiz) kimi sahələrdə qadın liderlərin sayı artır.

Xarici siyasət, maliyyə və fiskal siyasət, daxili işlər və müdafiə kimi ən təsirli sahələr kişilərin dominantlığı altında qalır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Paytaxtda 24, rayonlarda 29 dərəcə isti olacaq

Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, axşam bəzi yerlərdə arabir duman olacaq. Cənub-qərb küləyi gündüz şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 7-12° isti, gündüz 19-24° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə arabir duman olacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12° isti, gündüz 24-29° isti, dağlarda gecə 3-8° isti, gündüz 18-23° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 22-27° isti olacağı proqnozlaşdırılır.



Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10° isti, gündüz 17-22° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 17-22°, bəzi yerlərdə 25°-dək isti olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 24-29° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz və Qusarda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 23-28° isti, dağlarda gecə 3-8°, gündüz 18-23° isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 24-29° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 20-25° isti, dağlarda gecə 7-10°, gündüz 19-24° isti olacağı proqnozlaşdırılır.


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Bakıda dünyanın yeni geosiyasi vəziyyəti müzakirə olunur

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 16.03.25-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə edilməsi imkanı təmin ediləcəkdir.


# Yaz depressiyasından necə qurtulmaq olar?

**Hər kəs yazın gəlişini, havaların isinməsini səbirsizliklə gözləyir. Baharda qan durulur, təzyiq yüksəlir, təbiət kimi orqanizm də oyanır. Bioritmlərin və hormonal balansların kəskin dəyişməsi isə əksər insanlarda yaz depressiyasına səbəb olur.**



Bəs yaz depressiyasının əlamətləri nələrdir? Ondan necə qurtulmaq olar?

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmov yaz depressiyasının bioloji və psixoloji faktorlarla əlaqəli olduğunu deyib. Mütəxəssisin sözlərinə görə, yaz depressiyası, adətən, mövsümi affektiv pozuntu (MAP) çərçivəsində dəyərləndirilən bir məqamdır və insanların psixoloji vəziyyətinə təsir edən mühüm dəyişikliklərlə müşayiət olunur. Fərqli simptomlarla özünü göstərən bu narahatlığın şiddəti insandan-insana dəyişir. Əsas əlamətləri halsızlıq, enerji, diqqət və konsentrasiyanın azalması, yuxu rejiminin pozulması, iştahanın dəyişməsi, qıcıqlanma və emosional həssaslıq, həyatdan zövq almamaqdır.

"Yaz depressiyasının yaranmasında bir neçə bioloji faktor rol oynayır. Buraya melatonin və serotonin balansının pozulmasını, bədənin bioloji ritmlərinin dəyişməsini, hormon balansındakı dəyişiklikliyi və sairə daxil edə bilərik. Yaz depressiyasının psixoloji səbəbləri kimi gözləntilərlə reallıq arasındakı uyğunsuzluqlar göstərilir. Belə ki, yaz fəsli əksər insanlar üçün yeni başlanğıclar və canlanma dövrü kimi qəbul edilir. Əgər insan bu dəyişikliklərə hazır deyilsə və ya gözlədiyi yenilikləri əldə edə bilmirsə, psixoloji təzyiq və məyusluq hiss edə bilər. Müqayisə və sosial təzyiqlər də bu prosesdə mühüm rol oynayır. Bahar fəslində insanlar daha çox sosiallaşmağa və açıq havada vaxt keçirməyə meyilli olurlar. Əgər bir insan özünü yetərincə aktiv hiss etmirsə, sosial mediada və ətrafında baş verən pozitiv dəyişikliklərlə müqayisədə özünü uğursuz və ya geri qalmış hiss edirsə, əlbəttə ki, o, depressiya yaşaya bilər. Onu da nəzərə almaq lazımdır ki, insanlar qış aylarında daha çox evdə vaxt keçirir, müəyyən bir gündəlik rejim formalaşdırırlar. Yazın gəlişi ilə sosial həyatın canlanması, insanların daha çox fəaliyyət göstərməsi isə bəzi insanlarda stres və uyğunlaşma çətinlikləri yarada bilər", - deyə mütəxəssis qeyd edib.

Yaz depressiyasının davametmə müddəti insandan-insana dəyişir. Elnur Rüstəmovun sözlərinə görə, bu vəziyyət, yazın əvvəlində, mart-aprel aylarında başlayıb, 4-8 həftə davam edə bilər. Bəzi insanlarda isə yayın ortalarına, iyun, iyul aylarına qədər uzanır. Əgər yaz depressiyası 2-3 aydan çox davam edirsə və hər il təkrarlanırsa, mütləq psixoloq və ya psixiatr dəstəyi almaq lazımdır.

Yaz depressiyası hər kəsdə eyni dərəcədə müşahidə olunmur. Bəzi insanlar mövsümi dəyişikliklərə daha həssasdır və onların psixoloji vəziyyəti daha çox təsirlənir. Əsas risk qruplarına əvvəlki illərdə payız-qış depressiyası və ya yaz depressiyası yaşamış insanlar daxildir. Eyni zamanda depressiya, bipolar pozuntu, anksiyete (həyəcan-təşviş) pozuntusu, obsesiv-kompulsiv pozuntu (OKP) kimi psixi xəstəliklərdən əziyyət çəkən insanlarda yaz depressiyası daha ağır formada keçə bilər. Hormonal dəyişikliklər emosional vəziyyətə təsir etdiyi üçün tiroid vəziləri ilə bağlı problemləri olanlar da yaz depressiyasına daha meyilli olurlar. Gecə növbəsində işləyən, qeyri-stabil həyat tərzi keçirən, dostları və ailəsi ilə az ünsiyyətdə olan, iş və ya sosial həyatında problemlər yaşayan insanlar da bu mövsümi narahatlığı daha ağır keçirirlər.

Bir neçə il ardıcıl təkrarlanan yaz depressiyası müalicə olunmazsa, xroniki hala çevrilə, bir müddət sonra daha ciddi psixi pozuntuların yaranmasına səbəb ola bilər. Psixoloq bildirib ki, xronikləşmənin qarşısını almaq üçün mütəmadi psixoloji və fiziki sağlamlığa diqqət yetirməli, depressiya əlamətlərini erkən mərhələdə aşkarlamalı və tədbirlər görülməlidir. Depressiyanı yüngülləşdirmək və ya onun təsirini azaltmaq üçün yuxu rejimini nizamlamaq, gün işığından daha çox yararlanmaq, fiziki və sosial aktivliyi artırmaq, meditasiya etmək, gündəlik gəzintilərə çıxmaq, dostlarla və ailə üzvləri ilə vaxt keçirmək vacibdir. Əsas məqsəd psixoloji və bioloji tarazlığı bərpa etmək, sosial sağlam həyat tərzi formalaşdırmaq və sosial aktivliyi artırmaqdır. Əgər bu üsullar nəticə vermirsə və depressiv əlamətlər daha uzun müddət, yazın ortalarına qədər davam edirsə və ya şiddətlənirsə, gündəlik həyatı ciddi şəkildə çətinləşdirirsə, bu artıq mövsümi affektiv pozuntudan daha ciddi bir psixi problemə işarədir və mütəxəssis müdaxiləsi tələb edir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Flora Sadıqovaya dayısı

**NƏSİR YUSİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Ülkər Xaspoladovaya nənəsi

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Energetika Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Protokol xidməti sektorunun müdiri Ataş İsayevaya qardaşı

**AZƏR SOKRAT OĞLU İSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3514
Sifariş 533

Qiyməti 60 qəpik